RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 106 (8422) CÜMƏ, 5 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İLHAM ƏLİYEV: “Sisyanı pozun, Qarakilsə yazın”



## Azərbaycan Prezidentindən tarixi həqiqətlərin bərpasına növbəti çağırış

Tarix, milli kimliyimizin, varlığımızın, ən əsası isə həqiqətin aynasıdır. Gələcəyimiz isə tarix üzərində bərqərar olan bir səltənətdir.
Və tarix həm də elə bir səhifədir ki, onu qaralamağa, silməyə, saxtalaşdırmağa, varlığın təməlini laxlatmağa çalışanlar da olur...
Elə buna görədir ki, tarixin də keşiyi çəkilməli, tarixin də tarixini saxtalaşdıranlara qarşı ayıq-sayıq olunmalıdır...
Təəssüf ki, vətənimiz Azərbaycan zaman-zaman məhz bu acı aqibətlə üzləşib. Ana yurdumuzun tarixi məqsədyönlü şəkildə saxtalaşdırılıb, yer adları, toponimləri dəyişdirilib, uydurma adlar taxılıb...
Prezident İlham Əliyev bu reallığı daim gündəmdə saxlayır, daş yaddaşımızın, tarixi və mədəni abidələrimizin itib-batmamasına, yadlaşdırılmamasına böyük diqqət yetirir. Muzeylərə səfər edir, tariximizə aid hər bir məqama diqqət yetirir, bütün həqiqətlərin olduğu kimi əks olunmasına böyük əhəmiyyət verir. Çatışmazlıqlar gördükdə isə dərhal iradını bildirərək düzəldilməsi barədə tapşırıq verir.

### Haradadır mənim qədim şəhərlərim?

Bu il martın 4-də Tovuzda Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edən Prezident İlham Əliyev orada nümayiş olunan tarixi xəritələrlə bağlı iradlarını bildirərək sual verdi: “Bu, neçənci əsrin xəritəsidir? Gərək yazılsın. Hər bir xəritədə yazılmalıdır neçənci əsrə aiddir, çünki dövlətlər dəyişib, sərhədlər dəyişib. Bu xəritəni siz haradan götürmüsünüz?”

Rayon icra hakimiyyətinin başçısı Prezidentə bildirib ki, xəritə Mədəniyyət Nazirliyindən götürülüb.

Prezident isə irad bildirərək qeyd edib: “Mədəniyyət Nazirliyindən? Qədim adlar, məsələn, Sisian yazılıb. O vaxt Sisyan adı yox idi, sonra kimsə bunu uydurub. Xəritədə indiki Azərbaycan ərazisində Mingəçevirdən başqa heç bir tarixi ad yazılmayıb. Halbuki Bərdə, Qəbələ, Naxçıvan - bütün bunlar qədim şəhərlərimiz olub. Ona görə soruşuram, bu, hansı əsrə aiddir? Çünki bu xəritədən heç nə başa düşmək mümkün deyil. Qafqaz Albaniyası dövləti də burada göstərilmir. Amma baxın, bu Urartu hansı hərflərlə yazılıb. Ona görə buna baxmaq lazımdır. Mədəniyyət Nazirliyi ilə əlaqə saxlayın, xəritələr həm dəqiq olmalıdır, həm də bunun tarixi göstərilməlidir. Bu xəritə də bilinmir hansı tarixə aiddir. İndiki Azərbaycan ərazisində heç bir şəhərin adı yoxdur. Var buna cavab? Xəritə asmısınız, hesab edirsiniz ki, bununla iş düzəlir? Bu xəritə bizim tariximizdir. Uşaqlar gəlib bu xəritədən tarix haqqında nə başa düşəcəklər? Heç bilinmir nədir bu. Özü də haradan götürmüsünüz, Allah bilir. Buna belə yanaşmaq olmaz. Eksponatları doldurursunuz, hesab edirsiniz ki, bununla iş bitir? Özü də uşaq otağıdır. Uşaq gəlib soruşacaq ki, bu nədir, mənim məmləkətim nədir? Haradadır mənim qədim şəhərlərim? Onun əvəzinə orada Urartu görürük”.

### “İndiki Ermənistan Respublikasının toponimlərinin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir”

İyunun 3-də isə Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edən dövlət başçısı nümayiş olunan xəritələrə baxarkən tarixi adlarımızın dəyişdirilmiş formada göstərilməsi ilə bağlı bir daha iradını bildirərək dərhal düzəldilməsini tapşırdı: “Bizim tarixi adlarımız burada gərək öz tarixi adları ilə əks olunsun. Sisyanın əsl adı Qarakilsədir. Sonradan ermənilər buna Sisyan adı veriblər. Ona görə bunu pozun və Qarakilsə yazın. İndiki Ermənistan Respublikasının toponimlərinin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Onlar müxtəlif vaxtlarda bu toponimləri dəyişdiriblər”.

### Tarix səhifələrindən məkrli niyyətlərin sildiyi həqiqətlər...

Prezident İlham Əliyevin muzeylərin açılışı zamanı tariximizi əks etdirən maddi mədəniyyət nümunələri ilə yaxından tanışlığı, onları dərindən təhlil etməsi, çatışmazlıqlarla bağlı iradları göstərir ki, bu sahə dövlət siyasətində prioritet istiqamətlərdəndir. Qədim tariximizin öyrənilməsində, gənclərdə vətənpərvərlik ruhunun formalaşmasında və inkişafında muzeylərin mühüm əhəmiyyəti var.

Dövlət başçısının Tovuz, Tərtər rayonlarında muzeylərlə tanışlığı zamanı etdiyi məlum iradlar əslində hər bir vətəndaşa açıq çağırışdır. Xalqımızın min illərin o tayından adlayıb gələn tarixi kökləri qorunmalı və həqiqətlər olduğu kimi gələcək nəsillərə ötürülməlidir. Tarix səhifələrindən məkrli niyyətlərin sildiyi həqiqətlər olduğu kimi yenidən bərpa olunmalıdır.

Və müvafiq dövlət qurumları da Prezidentin irad və tapşırıqlarından ciddi nəticə çıxararaq gələcəkdə bu kimi tarixi yanlışlıqlara bir daha yol verməməlidirlər.

***“Azərbaycan”***

## Qarabağ torpağında yerləşən Ağcabədi rayonunun inkişafı üçün son illərdə mühüm işlər görülüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədi rayonuna səfəri çərçivəsində Ümummilli Lider Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, Hindarx qəsəbəsində fermer təsərrüfatında olub, əkin sahəsində taxıl biçininə başlanması mərasimində, dənli bitki toxumlarının emalı müəssisəsinin, “ASAN Həyat” kompleksinin açılışında, Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin, eləcə də 110/35/10 kilovoltluq “Ağcabədi-2” elektrik yarımstansiyasının yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimlərində iştirak edib.

***Bax: səh. 2***

## “Siz bir daha sübut etdiniz ki, bütün dünyada yaşayan azərbaycanlıların qürur duyduğu lidersiniz”

Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir. Respublikamızın bütün guşələrindən, eləcə də xaricdən həmvətənlərimiz dövlət başçısının diqqət və qayğısından razılıqlarını ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının bir qismini təqdim edir.

Rusiyanın Krasnoyarsk diyarının Norilsk şəhərindən **Elzabit Namazov** yazır: “Möhtərəm cənab Prezident, mən uzun müddət doğma Vətənimdə yaşamasam da, qəlbən Azərbaycana bağlıyam. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi hakimiyyətə gəldiyiniz gündən bəri dəqiq hədəflərə hesablanmış uğurlu daxili və xarici siyasətinizi dəstəkləyirəm. Hər dəfə doğma yurduma gələndə, Azərbaycanımın inkişafını görəndə fəxr hissi duyuram. Pandemiyaya qarşı mübarizədə ciddi işlərin görülməsi üçün vaxtında göstəriş verməyiniz ölkəmizdə xəstəliyin geniş yayılmaması üçün zəmin yaratdı. Aztəminatlı ailələrə və sahibkarlara yardımlara, bu çətin dövrdə ölkə iqtisadiyyatının inkişafının qorunub saxlanılması istiqamətində qəbul etdiyiniz düzgün qərarlara görə Sizə dərin təşəkkürümü bildirirəm. Möhtərəm cənab Prezident, bu çətin günlərdə Siz bir daha sübut etdiniz ki, həqiqətən, bütün dünyada yaşayan azərbaycanlıların qürur duyduğu lidersiniz. Xalqımızın firavanlığı yolunda yorulmadan çalışdığınıza görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz adımdan və ailəmin adından təşəkkür edirəm”.

Böyük Britaniyanın Kardiff şəhərindən **Arzu Rzayeva:** “Hörmətli cənab Prezident, mən Böyük Britaniyanın Kardiff şəhərində təhsil alan azərbaycanlı tələbələrdən biriyəm. Yaranmış pandemik vəziyyət iş yerlərinin bağlanmasına səbəb olmuş və bu hal işləyərək öz tələbatlarını ödəyən tələbələri maddi cəhətdən çox çətin vəziyyətə salmışdır. Bu çıxılmaz vəziyyətlə üzləşən tələbələrdən biri olaraq yaşadığım evin kirayə haqqını ödəməkdə çətinlik çəkdiyim üçün ölkəmizin Londondakı səfirliyinə müraciət etdim.

***Ardı 5-ci səh.***

## İlham Əliyevdən Yerevana növbəti sərt xəbərdarlıq

### Ermənistanı daha böyük sarsıdıcı zərbələr gözləyir

İşğalçı Ermənistanda müşahidə olunan əsas məqamlar ictimai-siyasi müstəvidə gərginliyin daha da artması, sosial-iqtisadi sahədə vəziyyətin əvvəlki dövrlərə nisbətən xeyli pisləşməsidir. İki il bundan əvvəl Ermənistanda separatçı rejimin hakimiyyətdən devrilməsi, onun yerinə kənar qüvvələrin əlində sadəcə vasitə olan Nikol Paşinyanın iqtidara gəlməsi də təcavüzkar ölkədə gərgin ictimai-siyasi, ağır sosial-iqtisadi vəziyyətin sonuna çatmasına səbəb olmadı.

Bunun əsas səbəbi Ermənistanın işğal siyasətini davam etdirməsi, Azərbaycan Prezidenti İlham Əliyevin bununla bağlı bu dövləti təcrid vəziyyətində saxlamasıdır. Əslində Ermənistanda hərbi xuntanın devrilməsinin başlıca səbəbi də məhz Azərbaycanın bu ölkəyə qarşı atdığı addımlardan qaynaqlanır.

Xatırladaq ki, 2018-ci ilin aprelində Ermənistanda hakimiyyət kürsüsündən bərk yapışan, buna görə, hətta ölkənin konstitusiyasını dəyişən Serj Sarkisyan sonda yaşanan etirazlara davam gətirməyərək vəzifəsini tərk etdi.

***Ardı 11-ci səh.***



## Laqeydliyin acı nəticəsi

### Azərbaycanda karantin rejiminin yumşaldılmasının dayandırılmasına qərar verildi

Bu da vətəndaş məsuliyyətsizliyinin gözlənilən nəticəsi...

Bu da əhalinin əksər kəsiminin sərgilədiyi laqeydliyin acı aqibəti...

Bu da mütəxəssislərin, həkimlərin, dövlət qurumlarının çaldığı həyəcan təbilinin ağrılı inikası...

Axı, xüsusi karantin rejimi yumşaldılmağa başlandığı ilk gündən xəbərdarlıq edilirdi ki, Operativ Qərargahın qoyduğu qaydalara riayət olunmasa, yoluxma sayı artsa, yenidən məhdudiyyətlər tətbiq olunacaq, karantin rejimi sərtləşdiriləcək.

***Ardı 10-cu səh.***

## Pandemiya fonunda Azərbaycan iqtisadiyyatı

### Dörd ayın makroiqtisadi göstəriciləri bədbin proqnozları alt-üst edir

Bütün dünyanı önünə alıb aşağı-yuxarı sürüyən koronavirusla bağlı Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən elan olunmuş pandemiya insanların təkcə canının qəsdinə durmayıb, həm də malına qənim kəsilib.

Döşünə döyüb mənəm deyən məlum ölkələr belə, artıq neçə aydır bilmirlər əhalinin sağlamlığının qayğısına qalsınlar, yoxsa iqtisadiyyatlarını xilas etsinlər.

Çünki bəla burasındadır ki, onların birinin xilası digərinin fəlakətinə çevrilir, yəni əhaliyə “evdə qal” deyirsən - iqtisadiyyat çökür, qapını açıb hərəni öz iş-gücünə buraxırsan - virus həndəsi silsilə ilə artır və əlac qalır sosial (daha doğrusu, fiziki) məsafə və maskaya. İlk baxışdan boğulan üçün saman çöpünü yada salan bu sadə tələbə isə, deyəsən, bizim əməl etmək vərdişimiz yaranmır ki, yaranmır.

İndi gəl, bu pandemiya labirintindən yol tapıb çıx görüm, necə çıxırsan, məşhur məsəldə deyildiyi kimi, yuxarı bığdır, aşağı saqqal.

***Ardı 10-cu səh.***



## «Cənub qaz dəhlizi»nə kredit ayıran ilk beynəlxalq maliyyə qurumu

### Asiya İnkişaf Bankı Azərbaycanın enerji layihələrinə dəstək verməyə yenə də hazırdır

Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) çəkilişinin bu ilin sonunadək başa çatacağı gözlənilir. Bununla da “Cənub qaz dəhlizi” layihəsi tam yekunlaşmış olacaq. Belə nəhəng bir layihə Azərbaycanın yaratdığı mükəmməl əməkdaşlıq və tərəfdaşlıq formatı sayəsində gerçəkləşib. Bu baxımdan ölkəmizin Asiya İnkişaf Bankı ilə 20 ildən çoxdur davam edən sıx və səmərəli əməkdaşlığının da mühüm rolu olub.

***Ardı 7-ci səh.***

# Qarabağ torpağında yerləşən Ağcabədi rayonunun

## Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədi rayonunda səfərdə olub. AZƏRTAC xəbər verir ki, dövlət başçısı Ümummilli Lider Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

## Prezidentin xeyir-duası ilə Ağcabədidə taxıl biçininə başlanıldı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədi rayonunun Hindarx qəsəbəsində fermer təsərrüfatında olub, əkin sahəsində taxıl biçininə başlanması mərasimində iştirak edib.



Kənd Təsərrüfatı naziri **İnam KƏRİMOV** dedi: Cənab Prezident, Sizin xeyir-duanızla artıq bu gündən taxıl biçininə başlanılır. Ölkə üzrə bir milyon hektar taxıl sahəsində biçin aparılacaq, onun 370 min hektara yaxını arpa sahəsidir.

**Prezident İlham ƏLİYEV:** Arpa biçilir?

**İnam KƏRİMOV:** Bəli. Bir neçə gündən sonra da buğda biçininə başlanılacaq. Bütün texnika biçinə tam hazırdır.

**Prezident İlham ƏLİYEV:** Məhsuldarlıq nə qədər gözlənilir?

**İnam KƏRİMOV:** Cənab Prezident, keçən il hektardan məhsuldarlıq 32 sentnerə yaxın idi, bu il hələ dəqiq demək mümkün deyil. Çünki bu il hava quraqlıq keçdi.

**Prezident İlham ƏLİYEV:** Bu il də quraqlıqdır, keçən il də quraqlıq idi. Amma keçən il biz rekord səviyyədə məhsuldarlığı təmin edə bildik. Azərbaycanda heç vaxt hektardan məhsuldarlıq 32 sentner olmayıb. Özü də iri fermer təsərrüfatlarında təqribən 50 sentnerə çatıb. Təkrar əkinlə bağlı işlər görülür? Mən demişəm, Nazirlər Kabineti vəsait ayırıb.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı **Rafil HÜSEYNOV:** Bəli, cənab Prezident, Siz göstəriş verdiniz, qarğıdalı əkiləcək.

**Prezident İlham ƏLİYEV:** Orada əsas problem su problemidir. Onu gərək çatdırasınız.

**Rafil HÜSEYNOV:** Cənab Prezident, biz planlaşdırmışıq ki, su olan yerlərdə bu il iki min hektarda təkrar əkin aparaq.

**Prezident İlham ƏLİYEV:** Sizdə 2 min hektar, ölkə üzrə 100 min hektara yaxın. Bu, hədəfdir, indi nə qədər olar olar.

**Rafil HÜSEYNOV:** Su ilə bağlı əsas odur ki, suvarma pambıq becərilməsi ilə üst-üstə düşməsin. Bu il Ağcabədidə təxminən 30 min hektarda taxıl əkilib. Onun da 8 min hektara yaxını arpadır, 22 min hektarı buğdadır.

**Prezident İlham ƏLİYEV:** Keçən il Ağcabədidə məhsuldarlıq nə qədər idi?

**Rafil HÜSEYNOV:** Keçən il 35 sentner olub. Bu ildən növbəli əkinə qayıtmaq məsələsini nəzərdə tuturuq. Biz növbəli əkinə qayıtmasaq, məhsuldarlığı da təmin edə bilmərik. Biz razılaşmışıq ki, rayonumuzda eyni sahədə növbəli qaydada həm yonca əkək, çünki maldarlığı da dayandıra bilmərik, həm də pambıq. Çünki yonca sahələrində pambıq əkiləndə çox yaxşı məhsul götürmək olur. Biz pambıq, taxıl, yonca sahələrində növbəli əkin hesabına pambığı da 20 faizə qədər artırmağı nəzərdə tuturuq.

**Prezident İlham ƏLİYEV:** Məhsuldarlığı?

**Rafil HÜSEYNOV:** Pambığın özü də, məhsuldarlıq da xeyli artacaq. Bu il yaxşı pambıq var.

**Prezident İlham ƏLİYEV:** Sizdə məhsuldarlıq keçən il də yaxşı idi.

**Rafil HÜSEYNOV:** Bu il keçənilkindən daha yaxşı məhsul var.

**Prezident İlham ƏLİYEV:** Əkin sahələri eyni qalıb?

**Rafil HÜSEYNOV:** Eyni qalıb, amma gələn il üçün nəzərdə tuturuq ki, pambıq əkinini 25 faiz artıraq. Çünki bu gün bizim taxıl və yonca sahələri 50 min hektara qədərdir. Əlli min hektar bizə cəmi 500 iş yeri verir. Amma 10 min hektar pambıq əkirik, bu, 15 min iş yeridir.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, əməktutumlu sahədir. Həm də yaxşı maaş, məvacib götürülür.

**Rafil HÜSEYNOV:** Bəli, gəlir bundan üç dəfə artıqdır. Həm xalis gəlir, həm də ümumi gəlir artır.

**İnam KƏRİMOV:** Cənab Prezident, artıq fermerlər maraqlıdırlar ki, pambıq əksinlər və gəlir əldə etsinlər.

**Prezident İlham ƏLİYEV:** Biz pambığa olan marağı qaytardıq. Keçən il hektardan məhsuldarlığı 29 sentnerə qaldırmışıq. Bu da Azərbaycanın tarixində ən yüksək göstəricilərdən biridir. Sovet vaxtında hektardan məhsuldarlıq bəlkə cəmi 3-4 il təqribən 30 sentnerdən artıq olub. İndi biz, demək olar ki, 30 sentnerə yaxınlaşmışıq. Bu il də məhsuldarlıq daha yaxşı olsa, onda, əlbəttə ki, fermerlər və işləyənlər daha da böyük gəlir götürəcəklər.

**Rafil HÜSEYNOV:** Cənab Prezident, keçənilkinə nisbətən indi sıxlıq yüksəkdir, təxminən 100 faiz bitiş alınıb. Ona görə bu il pambıqda xeyli yaxşı nəticə gözlənilir.

**Prezident İlham ƏLİYEV:** Bir də ki təkrar əkinlə bağlı bizim yem bazası da genişlənəcək. Hesablamısınız, qarğıdalıdan nə qədər yem əldə edəcəyik? İdxaldan asılılıq nə qədər azalacaq?

**İnam KƏRİMOV:** Təxminən 1,2 milyon ton silos üçün yaşıl yem, 350 min ton qarğıdalı olacaq.

**Prezident İlham ƏLİYEV:** Yəni xaricə pul az gedəcək.

**İnam KƏRİMOV:** Bəli, az gedəcək.

**Rafil HÜSEYNOV:** Elektron uçotun qurulması çox böyük kömək etdi. Artıq biz uçotu bildik. Biz indi də başlamışıq rayon üzrə ev təsərrüfatlarının uçotunu qurmağa ki, onların nə qədər sahəsi var, orada nə dəyişiklik baş verir.

**Prezident İlham ƏLİYEV:** Fermerlər də öz işlərini bilirlər.

**İnam KƏRİMOV:** Cənab Prezident, xeyir-dua versəniz, biçinə başlayardıq.

**Prezident İlham ƏLİYEV:** Başlamaq olar?

**İnam KƏRİMOV:** Bəli, Sizin xeyir-duanızla.

**Prezident İlham ƏLİYEV:** Başlayın.

Sonra fermer Nizami Hüseynovun əkin sahəsində taxıl biçininə başlanıldı.

*AZƏRTAC*

## Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində yeni metod və üsullar tətbiq olunur





İyunun 3-də Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı müəssisəsi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müəssisənin açılışında iştirak edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsullar istehsal edən müəssisələrin yaradılması və ümumilikdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox mühüm layihələr icra olunur. Bu baxımdan həyata keçirilən işlər arasında Aqrar Sənaye komplekslərinin yaradılması müstəsna əhəmiyyət kəsb edir. Aqrar sektorun inkişafında, regionlarda iqtisadi potensialın artırılmasında, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində yeni metod və üsulların tətbiqi, qabaqcıl texnologiyalara əsaslanan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması özündə mühüm amilləri və hədəfləri birləşdirir.

Son illərdə ölkədə toxumçuluğun inkişaf etdirilməsi məqsədilə beş rayonda, o cümlədən Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı müəssisəsi qurulub. Müəssisə 1 hektar ərazidə salınıb və burada inzibati bina, taxıltəmizləmə bloku, taxıl üçün bunker və digər qurğular yaradılıb. Qalan ərazidə isə abadlıq və yaşıllaşdırma işləri görülüb.

Dövlət başçısına məlumat verildi ki, müəssisənin emal gücü saatda 5 tondur. Quraşdırılan qurğular vasitəsilə emal olunan toxum materialını 98 faiz təmizləmək mümkündür. Bu toxumların əkin sərfiyyatı digər qurğularda təmizlənənlərdən 20-30 faiz azdır. Bu da əkinə sərf edilən toxumun həcminin azalmasına imkan verir, həm də fermerin məhsul istehsalında çəkdiyi xərcləri də əsaslı şəkildə azaldır. Müəssisədə quraşdırılmış 3 min tonluq silo qurğularının əsas funksiyası təqdim olunan toxum materialını qəbul edərək emal xəttinə davamlı ötürülməsi və həmin qurğularda saxlanılan toxumun digər ərazilərə daşınması üçün avtomobillərə asanlıqla yüklənilməsini təmin etməkdir. Mövsüm başa çatdıqdan sonra dövlət ehtiyacı üçün tədarük olunmuş toxumun ehtiyatı bu qurğularda təhlükəsiz saxlanılacaq. Müəssisədə 25 nəfər işlə təmin olunacaq.

## Əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsi yaxşılaşdırılır





İyunun 3-də Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri istismara verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Cəbhəyanı ərazidə yerləşən Ağcabədi şəhərində əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin təsdiqlədiyi Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2017-ci ildə "Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin icrasına başlanıb. Azərbaycan hökuməti və



Asiya İnkişaf Bankının birgə maliyyələşdirdiyi "Su təchizatı və kanalizasiya investisiya proqramı" çərçivəsində icra olunan layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla 45 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb.

Prezident İlham Əliyev Ağcabədi şəhərinə içməli suyun verilməsini təmin edən qurğunu işə saldı.

Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov dövlət başçısına məlumat verdi ki, Ağcabədi şəhərini içməli su ilə təmin etmək üçün mənbə olaraq yeraltı sular seçilib və bu məqsədlə 14 subartezian quyusu qazılıb. Su mənbəyindən şəhərə 15 kilometr uzunluğunda magistral su xətti çəkilib. Şəhərin dayanıqlı su təchizatı məqsədilə hər birinin tutumu 10 min kubmetr olan 2 su anbarı inşa edilib. Layihə çərçivəsində Ağcabədi şəhərində 350 kilometr içməli su xətti çəkilib, 8500 ünvana ev birləşməsi verilərək su sayğacları quraşdırılıb. Suyun optimal idarə olunması üçün 618 siyirtmə, yanğın təhlükəsizliyi məqsədilə 905 yanğın hidrantı quraşdırılıb. Hazırda şəhər əhalisi yeni çəkilmiş şəbəkə vasitəsilə 24 saat keyfiyyətli içməli su ilə təmin olunur.

Ağcabədi şəhərində tullantı sularının idarə edilməsi məqsədilə 305 kilometr tullantı su şəbəkəsi, 4 kanalizasiya-nasos stansiyası, 9 kilometr kanalizasiya kollektoru inşa edilib. Yeni yaradılmış tullantı su şəbəkəsindən ünvanlara birləşmələr verilib. Şəhərdə yaranacaq tullantı suların zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan təmizləyici qurğunun tikintisi üzrə son tamamlama işləri aparılır. İstehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Ağcabədi Sukanal Sahəsi üçün müasir tipli inzibati bina tikilib.

# inkişafı üçün son illərdə mühüm işlər görülüb

## “ASAN Həyat” kompleksi - yeni xidmət, istirahət, əyləncə mərkəzi













Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədidə “ASAN Həyat” kompleksinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlət başçısına məlumat verdilər.

Bildirildi ki, Ağcabədi “ASAN Həyat” kompleksinin tikintisinə 2018-ci ilin aprel ayında başlanılıb və bu ilin iyununda işlər başa çatdırılıb. Kompleksin ümumi sahəsi 7290 kvadratmetrdir.

Prezident İlham Əliyev “ASAN Həyat” kompleksini işə saldı.

“ASAN Həyat” kompleksinə “ASAN xidmət”, “ASAN kommunal” mərkəzləri, “ASAN vəkillik” bürosu, Uşaq Psixoloji Sosial İnkişaf Mərkəzi və vətəndaşların istirahəti və əylənməsi üçün bir sıra sahələr daxildir. Ağcabədi regional “ASAN xidmət” mərkəzi Ağcabədi, Ağdam, Beyləqan, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Zərdab rayonlarında qeydiyyatda olan 815 mindən çox vətəndaşa xidmət göstərəcək. Mərkəzdə 207 əməkdaş və 45 könüllü çalışacaq.

Ağcabədi “ASAN Həyat” kompleksinin tərkibində sayca 5-ci “ABAD Food Hall” fəaliyyətə başlayıb. Digər “ABAD Food Hall”arda olduğu kimi, burada da ABAD-çılar tərəfindən qeyri-sənaye üsulu ilə hazırlanmış məhsulların sərgi-satışı təşkil edilib. “ABAD” publik hüquqi şəxsin 2020-ci il ərzində ABAD-çı ailələrinin sayı 16 nəfər artaraq 429-a çatıb və onlara 30-a yaxın xidmət göstərilir.

Daha sonra Prezident İlham Əliyevə innovativ yeniliklər barədə məlumat verildi. Qeyd olundu ki, “ASAN İnnoland” pandemiya ilə əlaqədar bir sıra yeniliklərə imza atıb, onlardan biri də istehsalçısı milli startaplar olan süni nəfəs aparatıdır.

**Prezident İlham ƏLİYEV:** Bu, sınaqdan keçib?

**Ülvi MEHDİYEV:** TƏBİB müayinədən keçirib, müəyyən rəy yazıb, o rəyə uyğun da baxacağıq. Bu isə gündəlik istifadə edilən əşyaların dezinfeksiyası üçündür. Bu, eskalatorlar üçün hazırlanıb, fırlandıqca ultrabənövşəyi şüalarla dezinfeksiya olunur. Bu isə temperaturu müəyyən edir, virusu yandırır, onu içəri keçməyə qoymur. Bu isə üz maskasıdır, bizdə istehsal olunur. DOST mərkəzlərinə paylamışıq, əməkdaşlar xidmət zamanı istifadə edirlər.

Sonra dövlət başçısına smart aptek aparatı barədə məlumat verildi. Bildirildi ki, bu aparat vasitəsilə vətəndaşlar onlara lazım olan dərmanları seçə, dərmanın qiyməti, təyinatı barədə məlumat ala və ödəniş edib preparatı götürə bilərlər.

**Ülvi MEHDİYEV:** Vətəndaş pulu daxil edir, kağız pul da alır, qəpik də. Seçdiyimiz dərmanı iyirmi saniyə ərzində içəridə tapır və təqdim edir.

**Prezident İlham ƏLİYEV:** İndiki şəraitdə bunun xüsusi əhəmiyyəti var.

**Ülvi MEHDİYEV:** Sizin tapşırığınızla müəyyən pulsuz dərmanlar verilir. O adamlar həmin dərmanı almaq üçün mütləq tibb müəssisəsinə getməlidir. Amma bu smart apteklər hər yerdə quraşdırıla bilir.

Qeyd edək ki, yerli istehsal olan smart aptek aparatının küçələrdə, iri ticarət mərkəzlərində, “ASAN xidmət”lərdə qoyulması planlaşdırılıb. 500 dərman növünün olduğu bu aparatın xaricə ixracı nəzərdə tutulub.

Daha sonra dövlət başçısına dezinfeksiya robotu barədə məlumat verildi. Qeyd olundu ki, bu robot vasitəsilə bütün ictimai məkanları dezinfeksiya etmək mümkündür. Xaricdə istehsal olunan bu aparatın yerli istehsalı planlaşdırılır. Bundan əlavə, Prezident İlham Əliyevə rəqəmsal icra hakimiyyəti sistemi barədə də məlumat verildi. Bu sistemin fəaliyyəti sayəsində hər bir icra hakimiyyətində xidmət məkanının yaradılmasına nail olmaq mümkündür. Bunun sayəsində tələb olunan sənədlərin sayı 225-dən 104-ə enəcək.

İnnovativ yeniliklərdən biri də pandemiya şəraitində dövlət orqanlarında vətəndaşları qəbul etmək üçün vahid e-qəbul portalının yaradılmasıdır. Vətəndaş mobil telefon və elektron hökumət portalında yaratdığı kabinetindən istifadə edərək qəbula yazıla bilər.

**Ülvi MEHDİYEV:** Onun üçün qəbul vaxtı müəyyən olunur. Həmin vaxt videoqəbul keçirilir. Hətta biz şikayətləri prioritetləşdirə bilirik. Bütün bunlar vahid sistemdə toplanır, analitik təhlil olunur. Şikayətləri təsnifatlaşdırmaq mümkündür.

Bundan başqa, yeni elektron rəngləmə sistemi də hazırdır. Onun vasitəsilə ağ-qara foto və videomaterialları rəngləmək mümkündür. Onu da deyək ki, Ağcabədi “ASAN Həyat” kompleksi üçün ayrılmış ərazidə geniş park salınıb, 100 avtomobil üçün dayanacaq yaradılıb.

Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev “ASAN könüllüləri” ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Bu gün növbəti “ASAN Həyat” Mərkəzinin açılışını edirik. Bu münasibətlə sizi təbrik edirəm. Mənim göstərişimlə Ağcabədi rayonunda müasir, gözəl “ASAN Həyat” Mərkəzi yaradılıb və bu gün istifadəyə verilir. Mərkəzlə tanışlıq çox xoş təəssürat bağışlayır. Həm xarici görünüşü, həm də daxili dizaynı, tərtibatı çox gözəldir. Ən önəmlisi odur ki, burada vətəndaşlara 320 xidmət göstəriləcək. Bu bölgədə yaşayan səkkiz yüz min insan bu imkanlardan istifadə edə bilər.

Növbəti “ASAN xidmət” mərkəzinin açılışı çox əlamətdar hadisədir. Çünki biz qısa müddət ərzində “ASAN xidmət” mərkəzlərinin sayını 19-a çatdırdıq və bu proses davam etdirilir. Hazırda səkkiz mərkəzin tikintisi nəzərdə tutulur. Onlardan bəziləri demək olar ki, hazırdır, bəzilərində isə işlər davam etdirilir. Beləliklə, biz bütün ölkəmizi “ASAN xidmət” mərkəzləri ilə əhatə edəcəyik. Əslində, bizim planlarımız da bundan ibarət idi. Biz bu təşəbbüsü irəli sürəndə mənim qəti fikrim ondan ibarət idi ki, əgər bu təcrübə müsbət olarsa, - mən buna şübhə etmirdim, - bütün ölkə üzrə “ASAN xidmət” mərkəzləri yaradılmalıdır və bütün vətəndaşlara keyfiyyətli xidmətlər göstərilməlidir. Biz bu işi ardıcıllıqla görürük. Bu gün bu mərkəzin işinə start verərkən gördüm ki, “ASAN xidmət”in fəaliyyətə başladığı dövrdən indiyə qədər təxminən 38 milyon müraciət olmuşdur. “ASAN xidmət”in fəaliyyətini ən gözəl əks etdirən fakt odur ki, vətəndaşların bəyənmə dərəcəsi 99,4 faizdir. Demək olar ki, 100 faiz vətəndaşlarımız “ASAN xidmət” mərkəzlərindən məmnundurlar. Bu da təbiidir. Əslində bizim niyyətimiz də, istəyimiz də insanlar üçün çox gözəl, rahat və şəffaf xidmət yaratmaqdır. Biz buna nail ola bildik.

Bu gün “ASAN xidmət” ölkəmizin intellektual məhsuludur. Mən bir dəfə demişəm, bir daha demək istəyirəm ki, biz artıq bu intellektual məhsulu ixrac edirik. Bir neçə ölkə ilə bizim “ASAN xidmət” mərkəzlərinin o ölkələrdə yaradılması ilə əlaqədar müqavilələr imzalanıb. Bəzi ölkələrdə artıq “ASAN xidmət” mərkəzləri fəaliyyətə başlayıb. Bu, bizim milli brendimizdir. “ASAN xidmət”in fəaliyyətə başlaması və uğurla fəaliyyət göstərməsi bu sahədə aparılan siyasətin çox gözəl nəticəsidir. “ASAN xidmət” innovasiyadır və hər bir yeni mərkəzin açılışında mənə yeni innovativ layihələr təqdim olunur, o cümlədən bu gün. Sonra isə bu layihələrin böyük əksəriyyəti həyatda öz əksini tapır.

“ASAN xidmət”in fəaliyyəti Azərbaycanda innovasiyaların inkişafına da çox böyük təkan vermişdir. Şadam ki, bu innovasiyaları təqdim edən, onları icad edən gənclərdir. Beləliklə, qısa müddət ərzində ölkəmizin ictimai xidmətlər sahəsində inqilabi dəyişikliklər baş verdi. Bəlkə on il bundan əvvəl heç kim təsəvvür edə bilməzdi ki, bir mərkəzdə 320 xidmət göstərilə bilər. Bu xidmətlərin yüksək innovativ əmsalı var. Eyni zamanda bu mərkəzlərdə şəffaflığın dərəcəsi mütləqdir. Yəni “ASAN xidmət”in əsas xüsusiyyətlərindən biri də odur ki, insanları ictimai xidmətlər sahəsində rüşvətxorluqdan, korrupsiyadan qoruya bildi. İctimai xidmətlər demək olar ki, ən korrupsiyalaşmış sahələrdən biri idi. İnsanlar onlara qanun çərçivəsində təqdim ediləcək bir arayış üçün həftələrlə, bəzən aylarla qapı-qapı gəzirdilər, məmurlardan xahiş edirdilər, bir çox hallarda onlara lazım olan sənədləri rüşvət müqabilində alırdılar. Amma artıq neçə ildir ki, bu praktika Azərbaycanda tamamilə aradan qaldırılıb. Bu, bir də onu göstərir ki, harada güclü iradə var, düşünülmüş siyasət var və icraedici mexanizmlər təkmilləşib, orada həmişə nəticə də olacaq.

Bildiyiniz kimi, “ASAN xidmət” mənim təşəbbüsümlə yaradılmışdır və mənim göstərişlərim əsasında öz fəaliyyətini genişləndirmişdir. Ancaq “ASAN xidmət”i yaradan sizsiniz, gənclərdir - “ASAN xidmət”in rəhbərləri, kadrları, işçiləri. Bu gün biz elə bir mükəmməl sistem yaratmışıq ki, haqlı olaraq bununla fəxr edə bilərik. İnsanların rahatlığını, ədaləti, şəffaflığı təmin etdik. Ona görə “ASAN xidmət”, sadəcə olaraq, bir xidmət mərkəzi deyil, tamamilə yeni bir təfəkkürün ortaya qoyulması, ictimai münasibətlərdə tamamilə yeni fəlsəfənin tətbiq edilməsidir. Ölkəmizin müasir inkişafı ilə tam uzlaşan bir təşəbbüsdür, böyük bir layihədir. Bunun çox böyük ictimai mənası var. Əlbəttə ki, burada işləyən insanlar, öz xidmətləri, öz işləri ilə “ASAN xidmət”i bu yüksək səviyyəyə qaldırdılar. Çünki hətta ən yaxşı bir layihə, ən yaxşı bir təşəbbüs əgər düzgün icra edilmirsə, onun səmərəsi olmur.

Mən çox şadam ki, “ASAN xidmət” mərkəzlərində işləyənlərin mütləq əksəriyyəti, demək olar ki, hamısı gənclərdir, o cümlədən könüllülər bütün mərkəzlərdə fəaliyyət göstərirlər. Mənə verilən məlumata görə, Ağcabədi “ASAN xidmət” mərkəzində 200-dən çox işçi və 45 könüllü fəaliyyət göstərəcək. Əslində, Azərbaycanda könüllülər hərəkatı “ASAN xidmət”dən başlamışdır. O vaxta qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. “ASAN xidmət”dən sonra digər sahələrdə də könüllülər fəaliyyətə başladılar. O cümlədən ölkəmizdə keçirilmiş böyük beynəlxalq idman yarışlarında - Avropa və İslam Həmrəyliyi oyunlarında könüllülər böyük xidmət göstərmişlər. Könüllülərsiz biz bu böyük yarışları keçirə bilməzdik. Bu gün mənim göstərişimlə digər sahələrdə də könüllülər fəaliyyət göstərirlər. Mən göstəriş vermişəm ki, dövlət təşkilatlarında, nazirliklərdə, dövlət şirkətlərində könüllülər işə cəlb edilsin, onlar təcrübə keçsinlər. Çünki bugünkü könüllülər sabahın rəhbərləridir. Təsadüfi deyil ki, mənim sərəncamımla bu il “Könüllülər ili” elan edilmişdir. Bu, bir daha bizim könüllülərin fəaliyyətinə göstərdiyimiz diqqəti və münasibəti əks etdirir.

Beləliklə, gənclər “ASAN Həyat”, “ASAN xidmət” mərkəzlərində fəaliyyətləri ilə Vətənə çox böyük xidmət göstərmiş olurlar. Əlbəttə ki, burada peşəkarlıq da yüksək səviyyədədir. Ümumiyyətlə, qeyd etdiyim kimi, ictimai münasibətlərin tamamilə yeni forması Azərbaycanda tətbiq olunur. Çünki əvvəlki dövrdə ictimai xidmətlər sahəsində korrupsiyadan, rüşvətxorluqdan başqa, deyə bilərəm ki, kobudluq, laqeydlik də adi bir hala çevrilmişdi. Amma “ASAN xidmət” mərkəzlərində buraya gələn hər bir vətəndaşa hörmət göstərilir, onların problemləri operativ qaydada, şəffaf şəkildə həll olunur. Ona görə biz haqlı olaraq fəxr edə bilərik ki, “ASAN xidmət” Azərbaycanın milli brendidir. Təsadüfi deyil ki, BMT “ASAN xidmət” mərkəzlərinin fəaliyyətini yüksək qiymətləndirib, xüsusi mükafat təqdim edib. Əlbəttə ki, bu xidmətin beynəlxalq müstəvidə tanıdılması ölkəmiz haqqında düzgün təsəvvürün yaranmasında da rol oynayır.

Biz əməkdaşlığa açığıq. Qeyd etdiyim kimi, biz artıq bir neçə ölkə ilə bu mərkəzlərin o ölkələrdə yaradılması ilə əlaqədar işlər görmüşük və müvafiq addımlar da atılıb. Növbəti mərhələdə həm bu il, həm gələn il bölgələrdə, Bakı şəhərində yeni mərkəzlərin açılışı nəzərdə tutulur. Hazırda Bakıda beş mərkəz fəaliyyət göstərir. Ancaq bildiyimə görə, bəzi mərkəzlərdə sıxlıq müşahidə olunur. Çünki, birincisi, xidmətlərin sayı artdı. “ASAN xidmət” fəaliyyətə başlayanda xidmətlərin sayı, səhv etmirəmsə, 100-ə qədər idi, indi isə 320-dir. Əhali də artır və müraciətlərin sayı da artır. Ona görə Bakı şəhərində əlavə iki mərkəzin yaradılması ilə bağlı qərar qəbul edildi. Eyni zamanda Sumqayıt və Gəncə şəhərlərinin hər birində ikinci mərkəzin açılışı nəzərdə tutulur və digər şəhərlərdə.

Nəzərə alsaq ki “ASAN xidmət”in 10 səyyar avtobusu fəaliyyət göstərir, hesab edirəm ki, biz növbəti 2-3 il ərzində ölkəmizin bütün bölgələrini əhatə edəcəyik və insanlara çox gözəl xidmət göstərəcəyik. Mən hər bir yeni mərkəzin açılışında bir yenilik də görürəm. Çünki “ASAN xidmət” öz fəaliyyətini genişləndirir, ABAD kimi brend artıq fəaliyyətdədir və ailə təsərrüfatlarının inkişafı ilə əlaqədar dövlət dəstəyi xüsusi rol oynayır. Ölkəmizin müxtəlif yerlərində fəaliyyət göstərən ailə təsərrüfatları öz məhsullarını artıq bazara çıxarırlar, eyni zamanda ixrac etməyə başlayırlar. Bu da ümumi iqtisadi inkişafımıza böyük töhfədir.

Bildiyiniz kimi, hazırda biz özünüməşğulluq proqramı ilə ciddi məşğuluq. Bu il ən azı 10 min insan bu proqrama cəlb ediləcək. O cümlədən ABAD xətti ilə yaradılan kiçik istehsalat sahələri də özünüməşğulluq proqramına böyük dəstəkdir. Bilirəm ki, mənim çağırışımla özəl şirkətlər də ABAD-la müqavilələr bağlayıb, onlara vəsait ayırıb ki, bu sahədə işlər daha geniş vüsət alsın.

Bu mərkəz Ağcabədi rayonu üçün yeni bir xidmət, istirahət, eyni zamanda əyləncə mərkəzi olacaqdır. Burada iki kinoteatr fəaliyyət göstərir. Bildiyimə görə, Ağcabədi şəhərində kinoteatr yoxdur. Burada gənclərin asudə vaxtlarını keçirmələri üçün imkanlar var, ABAD ticarət mərkəzi fəaliyyət göstərir. Ona görə bu mərkəz insanları cəlb edəcək. Ağcabədi gəncləri burada işlə təmin olunurlar. Qeyd etdiyim kimi, 200-dən çox iş yeri yaradılır ki, bu iş yerlərində gənclər çalışacaqlar.

Bu mərkəzin Ağcabədi rayonunda yaradılması təsadüfi deyil. Ağcabədi əhali baxımından ölkəmizin ən böyük rayonlarından biridir. Ağcabədi Qarabağ torpağında yerləşir və son illərdə rayonun inkişafı üçün bir çox işlər görülübdür. Bu, mənim Ağcabədiyə Prezident kimi 7-ci səfərimdir və bu illər ərzində çox böyük işlər görülübdür. Ağcabədidə infrastruktur tamamilə təzələnib. Elektrik enerjisi ilə bağlı əvvəlki illərdə problemlər var idi. İndi bu problemlər aradan qaldırılır. Bu gün Ağcabədidə açılacaq yeni yarımstansiya rayonu dayanıqlı enerji ilə təchiz edəcək. Ağcabədidə qazlaşdırmanın səviyyəsi 90 faizdən çoxdur. Cəmi bir neçə il bundan əvvəl burada insanlar, ümumiyyətlə, qazın nə olduğunu unutmuşdular. Şəhərin, kəndlərin qaz təchizatı yox idi. İndi qaz təchizatı 90 faizdən çoxdur. Yeni yolların çəkilişi. Mənim növbəti sərəncamlarımda yeni yol infrastrukturunun yaradılmasına əlavə vəsait ayrılması nəzərdə tutulub. Mənə verilən məlumata görə, Ağcabədi rayonunun şəhər və kənd yollarının 60 faizi yenidən qurulur. Qalan 40 faiz üçün də bizim proqramlarımız var. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında onlar təsbit edilib. Biz bütün yolları abadlaşdıracağıq.

İçməli su layihəsi öz həllini tapır. Bu gün biz Ağcabədi şəhərinə içməli suyun verilməsini qeyd edəcəyik. Bu da böyük layihədir. Çünki həmişə Ağcabədidə içməli su böyük problem idi. Bu məsələ də öz həllini tapır. Mənim sərəncamımla suvarma suyu ilə bağlı 115 subartezian quyusu qazılıbdır və əlavə 30 quyu qazılacaq. Çünki kənd təsərrüfatının inkişafı üçün su əsas amillərdən biridir.

Rayon mərkəzi xəstəxanası tikilib. Ölkəmizin rayonlarda yerləşən ən böyük xəstəxanalarından biridir. Özü də müasir standartlara cavab verən avadanlıqla təmin edilib. Olimpiya İdman Kompleksi, Qarabağ Muğam Mərkəzi, “ASAN Həyat” kompleksi - bütün bunlar mənim təşəbbüsümlə və dövlət büdcəsi hesabına görülmüş işlərdir. Ona görə Ağcabədi rayonunun infrastrukturuna, sosial obyektlərinə, insanları narahat edən problemlərin həlli üçün nəzərdə tutulmuş layihələrə çox böyük vəsait qoyulubdur. Bu, bir daha onu göstərir ki, ölkəmizin hər bir yerində işlər bu səviyyədə görülməlidir, plan üzrə, ardıcıllıqla, prioritetləri düzgün müəyyənləşdirməklə. Bunları biz etmişik. Əgər infrastruktur layihələri icra edilməsəydi, o biri layihələrin, ümumiyyətlə, əhəmiyyəti olmazdı. Bu təməli biz yaratmışıq. Ona görə indi iqtisadi inkişaf daha sürətlə getməlidir.

*Ardı 4-cü səh.*

# Qarabağ torpağında yerləşən Ağcabədi rayonunun inkişafı üçün son illərdə mühüm işlər görülüb

## “ASAN Həyat” kompleksi - yeni xidmət, istirahət, əyləncə mərkəzi

## Prezident İlham Əliyevin çıxışı

Əvvəli 3-cü səh.

Kənd təsərrüfatını texnika ilə tam təmin etmişik. Bu gün Ağcabədidə biçin mövsümünə artıq start verildi. Nəinki Ağcabədi rayonunu, bütün ölkəmizi, taxılyığan, pambıqyığan kombaynlarla tam təmin etmişik, özü də dünyanın ən qabaqcıl şirkətlərinin istehsalı olan kombaynlarla. Bizim kəndlilər, fermerlər bunu görməyiblər. Sovet vaxtından qalan sınıq-salxaq kombaynları onlar güc-bəla ilə təmir edirdilər, çalışırdılar ki, onlara xidmət göstərsin. Onlar da dəqiqəbaşı sınırdı, sonra sıradan çıxırdı. Bir neçə il ərzində texnika təchizatı, ümumiyyətlə, mövcud deyildi. Ona görə torpaqlar qalmışdı başsız, əkin-biçin getmirdi. Bunu da həll etmişik. Ona görə bu, gözəl bir təməldir. İndi bütün infrastruktur yaradılıb, texnika ilə təchiz edilib. Əsas indi sahibkarlar gərək öz sözünü desinlər. Ağcabədidə dörd iri fermer təsərrüfatı yaradılıb. Taxılçılıqda fermer təsərrüfatlarının xüsusiyyəti ondadır ki, məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan qat-qat üstündür, o cümlədən pambıqçılıqda. Biz ölkəmizi bu yolla inkişaf etdirəcəyik və iqtisadiyyatımızın şaxələndirilməsini təmin edəcəyik.

Əlbəttə, “ASAN xidmət”in fəaliyyətinə qayıdarkən, bir daha demək istəyirəm ki, bu xidmətin timsalında bizim müasir yanaşmamız görünür. Onu görürük və sübut edirik ki, korrupsiya ilə, rüşvətxorluqla nəinki mübarizə aparmaq mümkündür, uğur qazanmaq mümkündür. Biz bütün vasitələrdən istifadə edirik. Əlbəttə, hesab edirəm ki, burada əsas rol sistem xarakterli tədbirlərdir. Çünki artıq “ASAN xidmət”in timsalında görürük ki, burada bu mümkündür. Ona görə bu sistem xarakterli institusional tədbirlərlə biz korrupsiyanın, kölgə iqtisadiyyatının meydanını daraldırıq. Ancaq bununla yanaşı, inzibati tədbirlər və cəza tədbirləri görülür və görüləcək. Azərbaycan ictimaiyyəti bu məsələ ilə bağlı məlumatlandırılır. Deyə bilərəm ki, mənim ünvanıma gələn minlərlə məktubda korrupsiya, rüşvətxorluq ilə bağlı bizim mübarizə çox yüksək qiymətə layiq görülür. Vətəndaşlar bunu təqdir edir, bəyənir və biz görürük ki, yerlərdən artıq siqnallar gəlməyə başlayır. Mən bir daha demək istəyirəm ki, mütləq ictimai nəzarət olmalıdır. Məmur özbaşınalığı ilə bağlı hər bir siqnal araşdırılacaq. Təbii ki, bu siqnallar ədalətli olmalıdır. Burada da hansısa qarayaxma kampaniyasına yol vermək olmaz və kortəbii yanaşmaq olmaz. Hər bir siqnal ciddi araşdırılacaq. Çünki istisna deyil ki, kimsə yalandan ortalığa bir məlumat ata bilər, kiminsə kimdənsə xoşu gəlmir, onun haqqında nəsə yaza bilər, belə hallar da var. Ona görə, ilk növbədə, ədalət və ictimai nəzarət təmin edilməlidir. Əminəm ki, biz korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə də qalib gələcəyik. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizə sayəsində görülmüş işlərə yüksək qiymət verərək Azərbaycanı nümunəvi ölkə adlandırıb. Bəlkə də başqa ölkələr haqqında oxşar fikirlər səsləndirilib, amma mən eşitməmişəm. Amma Azərbaycana gəldikdə, Ümumdünya Səhiyyə Təşkilatı, o təşkilat ki, dünya miqyasında bütün səhiyyə sahəsində işlərə rəhbərlik edir və işləri koordinasiya edir, Azərbaycanı nümunəvi ölkə adlandırıb.






Bütün bunlar bir daha onu göstərir ki, birincisi, Azərbaycan güclü dövlətdir, ikincisi, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun sağlamlığıdır. Bu, onu göstərir ki, bizim tədbirlərimiz məqsədyönlüdür, səmərəlidir, vaxtında atılmış cəsarətli addımlardır. Biz insanların həyatını qorumaq üçün şüurlu şəkildə iqtisadi tənəzzülə və iqtisadi itkilərə getdik. Milyardlarla manat, - baxmayaraq ki, neftin qiyməti düşüb, - xərclədik və xərcləyirik. İnsanların sağlamlığı birinci yerdədir. Bu, onu göstərdi ki, ən çətin böhranlı anlarda biz düzgün addım ata bilərik və güclü iradə göstərə bilərik. Mən hər gün insanlardan yüzlərlə təşəkkür məktubu alıram. Onların cəmi bir hissəsi mətbuatda dərc edilir. İnsanlar bu məktublarda minnətdarlıqlarını bildirirlər. Mənim üçün görülmüş bu işlərə verilmiş ən yüksək qiymət vətəndaşların buna münasibətidir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə fəaliyyətinizdə uğurlar diləmək istəyirəm. Əminəm ki, siz - “ASAN xidmət”də çalışan işçilər, könüllülər, öz işinizlə ölkəmizin ümumi inkişafına töhfə verəcəksiniz. Bir daha təbrik edirəm. Sağ olun.

❖ ❖ ❖

Sonra Ağcabədi “ASAN xidmət” Mərkəzinin əməkdaşı **Tural NAĞIYEV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident, Sizi Qarabağımızın doğma diyarı olan Ağcabədidə salamlayıram. Bu gün Sizin qarşınızda çıxış etməklə böyük qürur yaşayıram.

Möhtərəm cənab Prezident, dövlətçiliyimizin, müstəqilliyimizin inkişafı meyillərinə uyğun olaraq, gənclərimizin daha da yaxşı təhsil alması və aparıcı qüvvəyə çevrilməsi olduqca önəmli amildir. Bu baxımdan Sizin rəhbərliyinizlə gənclərlə bu formada görülən tədbirlər sayəsində Azərbaycan gəncliyinin inkişafına təkan verilmiş və bizlərin cəmiyyətdə fərd olaraq özümüzü təsdiq etməyimizdə böyük rol oynamışdır. Bu dediklərimə bariz nümunə olaraq, Sizin müəllifi olduğunuz və dünyada Azərbaycan brendi kimi tanınan “ASAN xidmət” mərkəzləri dövlət idarəetməsində mühüm bir istiqamətə çevrilmişdir. Belə ki, yarandığı gündən etibarən şəffaflığı, korrupsiyaya qarşı mübarizəni və eləcə də elektron sahədə institusional islahatların səmərəliliyinin artırılması və nəhayətdə, Sizin tapşırığınıza əsasən vətəndaşlara ləyaqətlə xidmət etməyi özünə ümdə vəzifə seçmiş “ASAN xidmət” mərkəzləri bu gün, Sizin də bayaq qeyd etdiyiniz kimi, 38 milyon vətəndaş müraciətini cavablandırmışdır. Sevindirici digər bir hal ondan ibarətdir ki, bu xidmətlərin həyata keçirilməsində 4500 nəfər işçi heyəti iştirak etmişdir. Bunların da mütləq əksəriyyəti məhz gənclərdir.

Cənab Prezident, COVID-19 virusu qlobal təsirini hələ də saxlamaqdadır. Lakin buna baxmayaraq, ölkəmizdə virusun yarandığı ilk dövrdən etibarən dövlət tərəfindən aparılan təcili, zəruri və təxirəsalınmaz tədbirlər sayəsində pandemiyanın zərərləri minimuma endirilmişdir. Bununla bərabər, Sizin təşəbbüsünüz və rəhbərliyinizlə dünya ölkələri, beynəlxalq təşkilatlar və eləcə də tanınmış nəhəng şirkətlərin rəhbərləri ilə videokonfrans vasitəsilə həyata keçirdiyiniz tədbirlər düşünürük ki, pandemiyaya qarşı ümumi mübarizəni daha da mütəşəkkil etmişdir. Bu tədbirlər fonunda qeyd etmək istərdim ki, may ayının 14-də hökumətlərarası COVID-19-a qarşı mübarizədə “ASAN Qlobal” veb-forumu keçirilmişdir. Bu veb-foruma dövlət agentliyi evsahibliyi etdi. Forumda mütləq olaraq qeyd edildi ki, ölkəmizdə pandemiya dövründə vətəndaşlarımıza bir çox sahələrdə və bir çox xidmətlər üzrə yeni innovasiyalardan, texnologiyalardan istifadə edilərək rahat, çevik və fasiləsiz çıxış imkanı təmin olundu. Bir çox dövlətlər bu fürsətlərdən istifadə etmək, eyni zamanda bu təcrübədən yararlanmaq üçün öz rəsmi müraciətlərini ünvanlamışlar.

Möhtərəm cənab Prezident, çıxışımın sonunda qeyd etdiyim bütün bu məqamlar, əslində, ölkə rəhbərliyinin xalqa, bilavasitə gənclərə olan diqqət və qayğısını əks etdirməkdədir. Belə ki, biz bir gənc olaraq öz üzərimizə düşən vəzifəni anlayaraq, yaxşı təhsil alıb öz ixtisasımıza dərindən yiyələnib, heç bir əks-təsirin Vətən sevgisini üstələməsinə izin vermədən bu mirası gələcək nəsillərə ərməğan etməliyik. Odur ki, yaşasın dövlətimiz və onun müstəqil, müasir və mübariz gəncliyi!

Diqqətinizə görə minnətdaram.

❖ ❖ ❖

Daha sonra “ASAN könüllüsü” **Aytac ABDULLAYEVA** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident, əvvəla, Sizi salamlayıram. Sizi doğma Ağcabədimizdə görməkdən çox şadıq. Ağcabədi sakinləri, eləcə də biz gənclər rayonumuzda “ASAN xidmət” mərkəzinin açılacağı günü səbirsizliklə gözləyirdik. Bir tərəfdən, region əhalisi bir məkandan şəffaf qaydada bir çox dövlət və özəl xidmətlərdən yararlanacaq, digər tərəfdən isə, gənclərimizə əlavə fürsətlər açılacaq. Biz və bizim kimi çoxlu gənclər bu qurumun bir parçası olaraq könüllü fəaliyyət göstərmək, dövlətimizə və xalqımıza fayda vermək istəyirik.

Möhtərəm Prezident, “İnsanların əsl gücü ən çətin məqamlarda bilinir”, - deyə bir deyim var. Bu gün pandemiya dövründə Sizi yanımızda görmək bizim gücümüzə güc qatır. Biz bu çətin günlərdə Sizin “Biz birlikdə güclüyük!” şüarınız altında xalqımızın birliyinin bir daha şahidi olduq. Biz könüllülər də “Könüllülər ili”ndə bu prosesdən kənarda qala bilməzdik.

Siz çıxışlarınızdan birində yaşlı tənha insanların ehtiyaclarının təmin olunması üçün biz könüllülərə səsləndiniz. Elə bununla da ölkəmizin hər yerində bütün könüllülər səfərbər oldular. “ASAN könüllüləri” olaraq yaşı 65-dən yuxarı tənha yaşayan mindən çox insanı ərzaqla və bir çox tibbi vasitələrlə təmin etdik. Bizlər karantin elan olunan vaxtdan tibb işçiləri ilə birgə aeroportda vətəndaşların qarşılanmasına, məlumatlandırılmasına və zəruri ilkin tibbi ləvazimatlarla təmin olunmasına kömək etdik. Biz “ASAN könüllüləri” qana ehtiyacı olan, qan xəstəliyindən əziyyət çəkən insanlara qan donorluğu edib onların həyatda qalmalarına yardımçı olduq. Xüsusi qayğıya ehtiyacı olan 2 mindən çox uşağı və ailəsini ərzaqla təmin etdik. Biz “Könüllülər ili”nin tam mənada fədakarcasına yaşandığını gördük. Biz hamımız əminik, Sizin dediyiniz kimi, milli həmrəylik, məsuliyyət, milli birliyimiz imkan verəcək ki, biz bu xəstəliyə qalib gələk.

Bu gün biz Qarabağ gəncləri olaraq çox rahatıq. Çünki bilirik ki, arxalana biləcəyimiz dövlətimiz və Siz varsınız, cənab Prezident. Eyni zamanda dövlətimiz də bizə arxalana bilər. Çünki biz də digər könüllülər kimi xalqımızın və dövlətimizin rifahı üçün əlimizdən gələn hər şeyi edəcəyik. Hər zaman yanımızda olduğunuz üçün Sizə təşəkkürümüzü bildirirəm. Bunu da qeyd etmək istəyirəm ki, biz də hər zaman Sizin yanınızdayıq.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Sizi bir daha təbrik edirəm. Sizə uğurlar arzulayıram. Özünüzə yaxşı baxın, vətəndaşlarla məsafə saxlayın.

# Əhalinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təchizatı təmin olunacaq

İyunun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 110/35/10 kilovoltluq “Ağcabədi-2” elektrik yarımstansiyasının yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlət başçısına məlumat verdi ki, istehlakçıların elektrik təchizatının yaxşılaşdırılması məqsədilə Ağcabədi rayonu ərazisində 35 kilovoltluq yarımstansiyada əsaslı yenidənqurma işləri aparılaraq, gərginlik sinfi artırılıb və 110/35/10 kilovoltluq “Ağcabədi-2” yarımstansiyası inşa edilməklə, yarımstansiyanın qoyuluş gücü 17,5 MVA-dan 40 MVA-ya çatdırılıb. Bu yarımstansiya vasitəsilə Ağcabədi şəhərində sosial-iqtisadi təyinatlı obyektlərin, meliorasiya və suvarma sistemlərinin, ətraf kənd və qəsəbələrin, həmçinin Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkünlərin və hərbi hissələrin fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatı təmin olunacaq. Yarımstansiyanın istismara verilməsi ilə 5262-si əhali, 831-i qeyri-əhali olmaqla, ümumilikdə, 6093 abonentin elektrik enerjisinin təchizatı daha da yaxşılaşdırılacaq. Yarımstansiya beynəlxalq standartlara cavab verən müasir tipli elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi





və avtomatika sistemləri ilə təchiz edilib, məsafədən idarə olunan SKADA dispetçer sisteminə qoşulub. Yarımstansiyanın 330 kilovoltluq “İmişli” və “Ağcabədi” qovşaq yarımstansiyaları ilə əlaqələndirilməklə dairəvi elektrik təchizat sxeminə qoşulması təmin edilib ki, bu da istehlakçıların, xüsusən də, əhalinin enerji təchizatının dayanıqlılığını və təhlükəsizliyi artırıb.

Dövlət başçısı “Ağcabədi-2” elektrik yarımstansiyasını işə saldı.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə elektroenergetika sahəsində mühüm işlər görülüb, çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıb. Bu sırada Ağcabədi rayonunda energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchiz olunması prioritet məsələlərdən olub.

Son illərdə aparılan geniş tikinti, yenidənqurma və bərpa işləri nəticəsində rayonun kəndləri və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatı obyektlərinin artan elektrik tələbatının qarşılanması üçün geniş imkanlar yaranıb. Bu illərdə rayonda xeyli hava xətləri çəkilib, kəndlərin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib. Bununla mövcud elektrik şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər kəskin şəkildə azalıb.

## Ağcabədi rayonunun Sarıcalı kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağcabədi rayonunun Sarıcalı kəndində 360 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2020-ci il*

## Ağcabədi rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhramtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On dörd min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Mingəçevir-Stansiya Mingəçevir-Bəhramtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2020-ci il*

## Necdet Ünüvarın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Necdet Ünüvar "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Əs-səlamu aleykum va rahmatullahi va barakatuhu.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Ölkələrimiz, xalqlarımız arasındakı səmimi dostluq, əməkdaşlıq münasibətlərini çox yüksək qiymətləndirir və ümid edirəm ki, ikitərəfli və çoxtərəfli əlaqələrimiz, xüsusən də, Sizin Qoşulmama Hərəkatına sədrliyiniz dövründə daha da dərinləşəcəkdir.

Sizə ən dərin ehtiramımı və xoş arzularımı çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə firavanlıq diləyirəm. Ramazan bayramınızı təbrik edirəm.

*Vəssalamu aleykum va rahmatullahi va barakatuhu.*

***Hacı Həssənal BOLKİAH,***
***Bruneyin Sultanı***

* * *

Zati-aliləri.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümü - Respublika Günü münasibətilə San-Marino xalqı adından və şəxsən öz adımızdan Sizə və dost Azərbaycan xalqına ən xoş arzularımızı çatdırırıq.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımızı bildirir, xoşbəxtlik arzulayır, Azərbaycan xalqına isə əmin-amanlıq, inkişaf və firavanlıq diləyirik.

*Hörmətlə,*

***Alessandro Mançini və Qratsia ZAFFERANİ,***
***San-Marino Respublikasının Kapitan-Regentləri***

# "Siz bir daha sübut etdiniz ki, bütün dünyada yaşayan azərbaycanlıların qürur duyduğu lidersiniz"

*Əvvəli 1-ci səh.*



Müraciətimdən dərhal sonra mənimlə əlaqə saxlanıldı və bir neçə gün sonra müraciətimin qəbulu ilə bağlı mənə məlumat verildi. Bank rekvizitlərim alındı və müvafiq məbləğ dərhal hesabıma daxil edildi. Beləliklə, üzləşdiyim bu çətin məsələ dövlətimizin dəstəyi sayəsində öz həllini tapdı. Hörmətli cənab Prezident, bu çətin anda bizi köməksiz qoymadığınıza və göstərdiyiniz əvəzolunmaz dəstəyə görə Sizə hədsiz minnətdarlığımı bildirirəm".

Məcburi köçkün **Aysel Aslanzadə:** "Hörmətli cənab Prezident, mən keçmiş Ağdərə rayonundan məcburi köçkünəm. Hazırda Bərdə rayonunda yaşayıram. Sizin diqqət və qayğınızı biz məcburi köçkünlər hər zaman hiss edirik. COVID-19 pandemiyasının dünyanı lərzəyə gətirdiyi hazırkı vaxtda Sizin necə müdrik və qayğıkeş dövlət başçısı olduğunuzu bir daha gördük. Elə bu məktubu yazmaqda əsas məqsədim də ona görədir ki, xalqımızı bu çətin bəladan qurtarmaq üçün həyata keçirdiyiniz məqsədyönlü işlər üçün Sizə dərindən təşəkkürümü bildirim. Cənab Prezident, xalqımız Sizi sevir. Siz bizim ümid və pənah yerimizsiniz".

İsmayıllı rayonunun Topçu kəndindən **Sevinc Hüseyinova:** "Möhtərəm cənab Prezident, mən İsmayıllı rayonunun Topçu kənd tam orta məktəbinin 8-ci sinif şagirdiyəm. Bütün dünyanı sarsıdan koronavirus zamanı ölkəmizi qoruduğunuza, bu xəstəliyə qarşı mühüm işlər gördüyünüzə, dövlətimizin yüksəlişi üçün əlinizdən gələni etdiyinizə görə Sizə təşəkkür edirəm. Digər ölkələrdə bu virus çoxsaylı təlefata səbəb olsa da, Sizin sayənizdə ölkəmizdə xəstələrin sayı azdır. Mən inanıram ki, xalqımız Sizin sayənizdə bu çətin günlərdən üzüağ çıxacaqdır. Biz birlikdə qalib olacağıq!"

Ağcabədi şəhərindən **Zülfiyyə İsmayılova:** "Möhtərəm cənab Prezident, mən bir Azərbaycan vətəndaşı olaraq Sizinlə fəxr edirəm. Siz Azərbaycan xalqının layiqli övladısınız. Siz xalqını sevən, hər bir vətəndaşının qayğısına qalan müdrik dövlət başçısısınız. Siz bunu COVID-19 epidemiyası dövründə bir daha sübut etdiniz. Dövlətimizin dəstəyi koronavirusla mübarizədə bizə böyük stimul verdi. Bu dövrdə dövlətin ayırdığı birdəfəlik ödəməni mən də almışam. Bu yardımın bizə ödənilməsi xalqa göstərdiyiniz qayğının daha bir nümunəsidir. Yaxşı ki, Siz Azərbaycanın Prezidentisiniz və biz hər zaman Sizin arxanızdayıq!"

Cəlilabad rayonunun sakinləri **Qasım Miriyev, Vüsal Ağayev, Emil Ağayev, İlqar Ağayev, Qəyum Ağayev və Kamran Məmmədov** yazırlar: "Möhtərəm cənab Prezident, Sizin xalqımıza göstərdiyiniz diqqət və qayğı bizim Kazımabad kəndinin sakinlərindən də yan keçmir. Hazırda mövsümlə əlaqədar olaraq rayonumuzun kəndlərində insanlar əkinçiliklə məşğuldurlar. Biz kəndlilər, əsasən, kartof əkib-becəririk. Belə bir ağır dövrdə məhsulumuzu xarici bazarlara çıxarmağımıza böyük imkanlar yaratdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Məhsullarımız iritonnajlı yük maşınları ilə xarici bazarlara daşınır. Siz, həqiqətən də, hər bir azərbaycanlının Prezidentisiniz! Allah Sizi qorusun!"

Salyan rayonunun Marışlı kəndindən **Ərəstun Hüseynov, Şahmar Usubov, Ramil İbrahimov və Rövşən Əhmədov** yazırlar: "Möhtərəm cənab Prezident, son zamanlarda pandemiya ilə əlaqədar olaraq dünyanın bir çox ölkələri iqtisadi böhrana düçar olmuşdur. Amma bu gün Azərbaycan Respublikası yüksək inkişaf nəticəsində Sizin rəhbərliyinizlə bütün çətinliklərin öhdəsindən gəlməkdədir. Təbii ki, Azərbaycanın bu cür inkişafının banisi və memarı Ulu Öndər Heydər Əliyev və Sizsiniz. Salyan rayonunun Marışlı kəndində asfalt yolun çəkilişi Sizin kəndlərə göstərdiyiniz diqqət və qayğının nəticəsidir. Yol mədəniyyətdir, inkişafdır. Bütün görülən bu işlər Sizin biz vətəndaşlara göstərdiyiniz qayğının nəticəsidir. Cənab Prezident, biz Marışlı kənd sakinləri Sizinlə bir daha qürur duyuruq. Sizə daha böyük uğurlar arzu edirik. Biz həmişə Sizinləyik".

Şamaxı rayonunun ağsaqqalları adından **Ədilxan Zülfüqarov, Kamal Adıgözəlov, Tahir Tağıyev və Xasay İsayev** dövlət başçısına minnətdarlıq edərək yazırlar: "Möhtərəm cənab Prezident, dünyanı bürüyən koronavirus pandemiyası dönəmində Sizin gərgin əməyiniz nəticəsində ölkəmizdə əhalini qorumaq üçün aparılan qabaqlayıcı tədbirlər öz bəhrəsini verir. Azərbaycanda bu virusun törədə biləcəyi ağır fəsadların qarşısının alınması istiqamətində atılan hər bir addım bütün əhali tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Səhiyyə sahəsində həyata keçirilən effektiv tədbirlər bu işlərə bilavasitə nəzarətin və fədakar əməyin nəticəsidir. Belə çətin dövrdə Sizin və Mehriban xanımın rayonumuza səfəriniz əhalimiz tərəfindən böyük sevinc və qürur hissi ilə qarşılandı.

Azərbaycan tarixində və mədəniyyətində xüsusi yeri olan Şamaxı özünün yeni çiçəklənmə dövrünü yaşayır. Bu, Sizin diqqətinizin nəticəsidir. Rayonumuzdakı tikinti-quruculuq, abadlıq işləri ilə yanaşı, tarixi abidələrə göstərdiyiniz qayğı onlara ikinci həyat verir və bizi sevindirir. Pirsaat Baba, İmadəddin Nəsiminin qardaşı Şahxəndanın türbəsi və Pir Ömər Sultan ziyarətgahlarının yenidən qurulması çərçivəsində görülən işlərə diqqətiniz isə biz şamaxılılar üçün mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, bu abidələr bütün ölkə əhalisinin və başqa ölkələrdən gələn qonaqların ziyarət etdiyi müqəddəs yerlərdir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə son illərdə tariximizə və mədəniyyətimizə göstərilən qayğı Sizin milli-mənəvi dəyərlərimizə həssas münasibətinizdən xəbər verir. Sizin şamaxılılara olan diqqətiniz hər addımda hiss olunur. Şamaxıda yeni binalar tikilir, zəlzələdən zərər çəkmiş minlərlə ev təzələnir, kəndlərə, qəsəbələrə yeni yollar salınır, ucqar kəndlər belə qazla təmin olunur, heç vaxt suyu olmayan kəndlərə su çəkilir, əhalimizə müasir avtobuslar xidmət göstərir. Çox təəssüf hissi ilə qeyd edirik ki, son zamanlarda ölkəmizdə, o cümlədən regionlarda aparılan inkişaf prosesinə kölgə salmağa çalışanlar var. Bu, ölkəmizi, Vətənimizi sevməyən, süni narazılıq yaratmaq istəyən şər qüvvələrin əməlləridir və onlar bu istəklərinə çatmayacaqlar. Əmin ola bilərsiniz ki, bütün Azərbaycan xalqı, o cümlədən şamaxılılar Sizin hər bir qərarınıza güvənir və apardığınız siyasəti dəstəkləyirlər. Əziz Prezidentimiz və hörmətli Mehriban xanım, Allahdan Sizə möhkəm cansağlığı, dövlətimizin və xalqımızın inkişafı naminə apardığınız şərəfli işlərinizdə müvəffəqiyyətlər arzulayırıq".

Goranboy rayonundan **Cəfər İbrahimli:** "Cənab Prezidentimiz, mən Goranboy rayon Mübariz Fərmanov adına Xoylu kənd tam orta məktəbin 11-ci sinif şagirdiyəm. Əlaçıyam. Koronavirus infeksiyası təhlükəsi ilə əlaqədar evdə qalmağımıza baxmayaraq, biz onlayn dərslər vasitəsilə təhsilimizdən geri qalmırıq. Bizə yaratdığınız bu şəraitə görə cənab Prezident, Sizə öz minnətdarlığımı bildirir və təşəkkür edirəm".

Cəlilabad rayonunun Muğan kəndindən **Azad Dövlətov, Raqib Qürbətov, Ceyhun Rəhimov, Nusrət Filatov, İntiqam Qarayev, Cavid Qarayev, Eldar Hüseynov, Xanlar Adıgözəlov və Əfqan Dövlətov** yazırlar: "Əziz və hörmətli Prezident, bu gün ölkəmizdə xalq-hakimiyyət birliyi və həmrəyliyi müşahidə olunur. Azərbaycan xalqı pisi yaxşıdan, ağı qaradan seçməyi bacarır. Məhz Sizin düşünülmüş siyasətiniz və səyləriniz sayəsində biz kənd əhalisi davamlı sabitlik şəraitində yaşayır və fəaliyyət göstəririk. Əziz Prezidentimiz, Allahdan Sizə və ailənizə möhkəm cansağlığı və fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq".

Quba rayonundan **Xəyal Nuhbalayev:** "Hörmətli cənab Prezident, bu ağır pandemiya günlərində xalqımızın yanında olduğunuz, qayğımıza qaldığınız, əhalinin maddi rifah halının yaxşılaşdırılması üçün hər cür tədbirlər gördüyünüz üçün mən bir Azərbaycan gənci olaraq Sizə öz adımdan və ailəm adından təşəkkür edir, dərin minnətdarlığımızı bildiririk. Allah Sizi qorusun!"

Göygöl rayonunun Topalhəsənli kəndindən **Çərkəz Həmzəyev:** "Möhtərəm cənab Prezident, bütün dünyada ciddi həyəcan yaradan, yaşından, irqindən və dinindən asılı olmayaraq insanların həyatına son qoyan koronavirus pandemiyası adlı bəlaya qarşı bütün imkanlardan istifadə olunmaqdadır. Sizin bilavasitə rəhbərliyiniz altında ölkəmizdə vətəndaşların sağlamlığının qorunması naminə aparılan əvəzolunmaz tədbirləri çox yüksək qiymətləndiririk. Qısa bir zamanda yeni xəstəxanaların istifadəyə verilməsi, mövcud xəstəxanaların uyğunlaşdırılması, qoruyucu vasitələrin istehsalı, xəstələrin müalicəsi üçün tibb ocaqlarının lazımi avadanlıqlarla təmin olunması, canları bahasına xəstələri müalicə edən həkimlərin əməkhaqlarına əlavələr edilməsi, işləməyənlərə yardımların verilməsi, sosial iş yerlərinin açılması, sahibkarlara maliyyə dəstəyinin və güzəştlərin edilməsi və digər işlər çox təqdirəlayiqdir. Əziz Prezidentimiz, Azərbaycan vətəndaşları arasında itkilərin minimuma endirilməsi üçün gördüyünüz bütün işlərə görə ailəmiz adından Sizə minnətdarlığımızı bildirirəm".

Qaradağ rayonunun Lökbatan qəsəbəsindən **Zara Niftiyeva:** "Hörmətli cənab Prezident, Siz uğura gedən yolda daim yanımızda olub, bütün çətinliklərdə öz köməyinizi əsirgəməyən dəyərli Prezidentimizsiniz. Bu çətin və şərəfli yolda Sizə daim uğurlar arzu edirəm. Pandemiya dövründə Azərbaycan xalqına dəstəyiniz, bütün şücaətləriniz göz qarşısındadır. Biz haqlı olaraq Sizinlə fəxr edirik. Cənab Prezident, Sizə bir daha uğurlar diləyir, ailəmiz adından dərin təşəkkürümüzü bildirirəm".

Bakının Yasamal rayonundan **Taleh Mansurov:** "Möhtərəm Prezident, bir gənc olaraq Sizə minnətdarlıq etməyi özümə vətəndaşlıq borcu bilərək bu təşəkkür məktubunu ünvanlayıram. Hörmətli Ali Baş Komandan, dünyamız həm siyasi, həm iqtisadi, həm də tibbi baxımdan ağır sınaqdan keçir. Dünyada supergüc hesab edilən ölkələrdə pandemiyanın ağır nəticələri artıq özünü göstərməyə başlayır. Dünyanın bu mənzərəsi fonunda ölkəmizdəki sabitlik, dövlətin vətəndaşlara yardımları Azərbaycanın bu pandemiyadan ən az zərərlə çıxacağının göstəricisidir. Bu gücün əsas səbəbi Sizin xalqımıza olan sevginiz, güclü iradənizdir. Danılmaz faktdır ki, Siz və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva dövlətimiz və xalqımız üçün bütün gücünüzlə çalışırsınız. Mən də bir Azərbaycan gənci olaraq daim Sizin siyasətinizi dəstəkləyir, Vətənim, dövlətim üçün layiqli gənc olmağa çalışıram. Tanrı Sizləri qorusun!"

## Su təsərrüfatı və meliorasiya işçilərinə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə "Əməkdar mühəndis" fəxri adı verilsin:

Allahverdiyev Yəhya Salman oğlu
Ələsgərov Yusif Sədaqət oğlu
Həsənov Eldəniz Ağayar oğlu
Mustafayev Usup Adil oğlu
Nəsibov Fəxrəddin Baxış oğlu
Nuriyev Elman Qoçu oğlu
Osmanov Teymur Əyyub oğlu
Sadıqov Saleh Teymur oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2020-ci il*

## Su təsərrüfatı və meliorasiya işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Eyvazov Eyvaz Mülki oğlu
İbrəhimov İbrəhim Alxas oğlu
İmanov Camal Dadaş oğlu
Məmmədov Adil Məmməd oğlu
Məmmədov Rəfail Əlimövsüm oğlu
Rzayeva Leyla Vasifovna

**"Tərəqqi" medalı ilə**

Abdullayev Cəbrayıl Ovçu oğlu
Babayev Fəhraddin Hacıbaba oğlu
Babayev Namiq Əbdül oğlu
Bağırov Vaqif Musa oğlu
Baxşəliyeva Rüxsarə Məmməd qızı
Əhmədov İbrahim Süleyman oğlu
Əliyev Azad Bayraməli oğlu
Əliyev Kamil Mahmud oğlu
Əliyev Mətləb Arif oğlu
Əliyev Siyah Əli oğlu
Əmişov Şəmsəddin Murtuzəli oğlu
Hacıyev Həsən Əlövsət oğlu
Hüseynov Elxan Bayram oğlu
İsgəndərov Pərviz Ələkbər oğlu
İsmayılov Tahir Məmməd oğlu
Qarayev Məzahir İxtiyar oğlu
Qənbərov Elman Surxay oğlu
Məmmədov Yasin Əhməd oğlu
Namazov İlqar Şahlar oğlu
Nazıyev Əsgər Hacıxəlil oğlu
Pircanov Mikayıl Abdulla oğlu
Rəhimova Aygün Asim qızı
Salahov Əsgər Güləhməd oğlu
Səlimov Mürşüd Şuluq oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2020-ci il*

## Yeni Azərbaycan Partiyası İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib



İyunun 4-də Yeni Azərbaycan Partiyası İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib. YAP-dan AZƏRTAC-a bildiriblər ki, iclasda pandemiya ilə əlaqədar Yeni Azərbaycan Partiyasının gördüyü işlər barədə məlumat dinlənilib.

Qeyd edilib ki, Azərbaycan Respublikasında koronavirus pandemiyasının geniş yayılmaması və pandemiyanın vura biləcəyi zərərin qarşısını almaq üçün sistemli tədbirlər həyata keçirilib. Görülən tədbirlər sırasında əhalinin sosial müdafiəsinin gücləndirilməsi də xüsusi diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə təşəbbüsü və birbaşa rəhbərliyi altında epidemiyanın qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərdə Yeni Azərbaycan Partiyası yaxından və fəal iştirak edib, bu istiqamətdə bir sıra mühüm aksiyalar keçirib. Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna bütövlükdə 500 min manat, Naxçıvan Muxtar Respublikasında Koronavirusla Mübarizəyə Dəstək Fonduna isə 30 min manat ianə edib. Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə ayrılmış ərzaq yardımları YAP-ın könüllüləri tərəfindən 33355 imkansız ailəyə çatdırılıb.

Yeni Azərbaycan Partiyası tərəfindən 21-29 mart tarixlərində "Sağlamlığımız milli həmrəyliyimizdədir" devizi ilə keçirilən kampaniya çərçivəsində bütün respublika ərazisində ahıl, imkansız və ehtiyacı olan 7780 ailəyə könüllülər vasitəsilə gigiyenik vasitələr çatdırılıb. YAP tərəfindən aprelin 4-də start verilmiş və xüsusi karantin rejiminin tətbiq olunduğu dövr ərzində davam edən aksiya çərçivəsində partiyanın rayon təşkilatlarının, eləcə də fəalların maliyyə dəstəyi ilə 17324 ailəyə ərzaq və digər yardımlar göstərilib.

Yeni Azərbaycan Partiyasının və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aprelin 4-də başladığı birgə sosial aksiya çərçivəsində isə 21138 ailəyə sosial xidmət təqdim edilib.

İclasda, həmçinin Yeni Azərbaycan Partiyasında fəaliyyət göstərən komissiyaların yenidən formalaşması məsələsi müzakirə edilib. Qəbul edilmiş qərara əsasən, komissiyaların tərkibində müvafiq dəyişikliklər edilib. İclas iştirakçıları komissiyaların fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində təkliflərlə çıxış ediblər.

Daha sonra partiya həyatı ilə bağlı bir sıra məsələlər müzakirə olunub.

# Baş Nazir, Operativ Qərargahın rəhbəri Əli Əsədov əhaliyə müraciət edib



Azərbaycan Respublikasının Baş Naziri, Operativ Qərargahın rəhbəri Əli Əsədov iyunun 4-də ölkəmizdə koronavirusa yoluxma hallarının kəskin artması ilə bağlı əhaliyə müraciət edib.

AZƏRTAC müraciəti təqdim edir:

"Hörmətli həmvətənlər!

Məlum olduğu kimi, 2020-ci ilin əvvəlindən başlayaraq dünyada cərəyan edən və fevral ayından Azərbaycana da idxal olunan koronavirus infeksiyasının qarşısının alınması məqsədilə dövlət və hökumət tərəfindən ilk günlərdən təxirəsalınmaz və qətiyyətli tədbirlər görülüb və görülməkdədir. Profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Operativ Qərargah "Sanitariya-epidemioloji salamatlıq haqqında" qanuna uyğun olaraq martın 24-dən aprelin 20-dək Azərbaycanda xüsusi karantin rejimi elan etmişdir, kütləvi tədbirlər ləğv edildi, ölkəmizin quru sərhədləri bağlanıldı, şəhər və rayonlararası gediş-gəliş dayandırıldı. Xəstəliklə mübarizənin gücləndirilməsi məqsədilə xüsusi karantin rejimi mərhələli şəkildə sərtləşdirildi. Bu müddət ərzində epidemiyanın Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə dövlət başçısının tapşırıqlarına uyğun olaraq bütün sahələr və istiqamətlər üzrə lazımi tədbirlər görülüb və görülməkdədir. Atılmış bütün addımların əsas məqsədi vətəndaşlarımızın sağlamlığının və həyatının qorunmasıdır.

Görülmüş tədbirlər müsbət nəticələr vermişdir və bu, statistik göstəricilərdə də öz əksini tapmışdır. Həkimlərin tövsiyələri və statistik göstəricilərə əsaslanaraq, aprelin 27-dən Operativ Qərargah mərhələli şəkildə yumşaldılma tədbirlərinə başlamışdır. Karantin dövrü ərzində istər həkimlərin, istərsə də digər rəsmi şəxslərin müraciətlərində mütləq olaraq sanitariya-epidemioloji və gigiyenik qaydalara riayət edilməsi əsas tələb kimi qoyulmuşdur. Əhalimizin böyük hissəsi görülmüş işləri yüksək qiymətləndirərək həmrəylik göstərdi və ilkin olaraq həmin tövsiyələrə və tələblərə riayət edirdi. Lakin təəssüflə qeyd etməliyəm ki, son yumşaldılma tədbirləri zamanı vətəndaşlarımızın böyük bir hissəsi müəyyən olunmuş qaydalara və təcrid tövsiyələrinə riayət etmədi. Bunun nəticəsi olaraq son günlər infeksiyaya yoluxanların sayı kəskin artmışdır.

Bunlara əsaslanaraq və tibbi qərargahın müraciəti ilə Operativ Qərargah bu gün qərar qəbul edib. Qərara əsasən 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək aktiv yoluxma hallarındakı artım səbəbindən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda sərt karantin rejimi tətbiq olunacaq. Qərarda göstərilən tələblərə riayət olunması məcburidir və mütləqdir.

Xəstəliyin yoluxma halları digər şəhər və bölgələrdə artacağı hallarda sərt tədbirlər gələcəkdə həmin bölgələrdə də təkrarən tətbiq olunacaqdır.

Qərarın icra olunmasına nəzarət Daxili İşlər Nazirliyinə həvalə olunmuşdur.

Sonda bir daha bildirmək istəyirəm ki, görülən bütün tədbirlərin ali məqsədi vətəndaşlarımızın sağlamlığının və həyatının qorunmasıdır".

# *Operativ Qərargah:* "Xüsusi karantin rejiminin müəyyən günlərdə sərtləşdirilməsi qərara alınıb"

Hazırda dünyada 7 milyonadək insan yeni növ koronavirus (COVID-19) xəstəliyinə yoluxmuş, 400 minədək şəxs vəfat etmişdir. COVID-19 virusunun peyvəndi bu günədək tapılmadığından dünya dövlətləri tərəfindən davamlı preventiv tədbirlər həyata keçirilməkdədir. Son günlər mövcud karantin rejimi qaydalarının əhali tərəfindən kütləvi surətdə pozulması ölkənin bir sıra bölgələrində sanitar-epidemioloji vəziyyətə ciddi təsir göstərmiş, virusa yoluxanların sayı artıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildiriblər ki, COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə xüsusi karantin rejiminin müəyyən günlərdə sərtləşdirilməsi qərara alınıb.

Bununla əlaqədar olaraq, 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda, ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılacaq (xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti avtomobillərinin hərəkəti istisna olmaqla).

Qeyd olunan tarixdə Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir.

Sakinlər yaşayış yerlərini və ya olduğu yerləri həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandığı halda, eləcə də təxirəsalınmaz tibbi yardıma ehtiyac olduqda yalnız təcili tibbi yardım xidməti vasitəsilə, habelə yaxın qohumların dəfnində iştirak etmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə almaqla tərk edə bilər.

2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək yalnız aşağıdakı qurum və xidmətlərin fəaliyyətinə icazə verilir:

- Siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilən dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların fəaliyyəti;
- xəstəxanalar, təcili tibbi yardım müəssisələrinin fəaliyyəti;
- sosial xidmət müəssisələrinin fəaliyyəti, o cümlədən əqli və hissiyyat pozuntusu olan, habelə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti;
- kommunal xidmətlər (su təchizatı və kanalizasiya, qaz təchizatı, istilik təchizatı, enerji paylanması, məişət tullantılarının yığılması və utilizasiyası);
- elektrik enerjisinin istehsalı və təchizatı;
- meliorasiya və su təsərrüfatı;
- rabitə xidmətləri;
- teleradio yayımçılarının (televiziya və radio kanalları, kabel televiziyaları) fəaliyyəti;
- dəmir yolu, avtomobil, dəniz, hava nəqliyyatı ilə yük daşımaları;
- boru kəmərləri ilə nəqliyyatın təmin edilməsi fəaliyyəti;
- fasiləsiz istehsalat fəaliyyəti (istehsalat-texniki şərtlərə görə fəaliyyətinin dayandırılması mümkün olmayan müəssisələr);
- neft və qazın hasilatı, emalı, saxlanması və satışı;
- fəaliyyəti dayandırılmış iş və xidmət sahələrinin mühafizə və texniki təhlükəsizliyinin təmin edilməsi üzrə xidmətlər.

Fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində işləyən şəxslərin və xidməti avtomobillərin hərəkətinə işəgötürən tərəfindən həmin şəxslər barədə məlumatlar elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol veriləcək. Eyni zamanda dövlət əhəmiyyətli, həyat təminatlı müəssisələrin və qurumların, həmçinin fasiləsiz işləyən qurumların fəaliyyətləri zəruri hesab edilən işçilərini məhdud sayda cəlb etməklə tənzimlənəcəkdir.

2020-ci il 5 iyun tarixində Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində dövlət orqanları və qurumları üçün saat 14:00-dək qısaldılmış iş rejimi müəyyən edilib.

Xüsusi karantin rejiminin tələblərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyır.

Bir daha vətəndaşlarımızı COVID-19 virusu ilə mübarizədə sosial məsuliyyətdən irəli gələrək həmrəylik nümayiş etdirməyə, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və qaydalarına əməl etməyə, özlərinin və yaxınlarının sağlamlığını qorumağa çağırırıq.

## Dünən Azərbaycanda 7047 test aparılıb

Dünən Azərbaycanda koronavirusa yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7047 test aparılıb. Ötən müddət ərzində aparılan testlərin sayı 322.574-ə çatıb.

AZƏRTAC xəbər verir ki, bunu bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

O bildirib ki, hazırda 2707 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Xəstələrdən 100 nəfəri reanimasiyadadır ki, onlardan da 21-i süni tənəffüs cihazına qoşulub.

## Noyabr-dekabr aylarında COVID-19-a yoluxanların olub-olmadığını müəyyənləşdirmək üçün testlər aparılacaq

Ölkəmizdə Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi və xüsusi proqramına uyğun olaraq seroloji testlər aparılacaq. Testlər nəticəsində əhali arasında COVID-19 xəstəliyinə qarşı inkişaf etmiş immunitet yoxlanılacaq. AZƏRTAC xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva söyləyib.

Şöbə müdiri deyib: "Bizi martdan sonra xəstəliyə yoluxan və sağalan vətəndaşlarda inkişaf edən immunitet çox ciddi şəkildə maraqlandırır və eyni zamanda noyabr-dekabr aylarında bu xəstəliyə yoluxan və onu keçirən vətəndaşların olub-olmadığı aydınlaşdırılacaq".

## Azərbaycanda koronavirusa daha 262 nəfər yoluxub, 72 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 262 yoluxma faktı qeydə alınıb, 72 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1960 və 1963-cü il təvəllüdlü iki nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 6522 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 3737 nəfər müalicə olunaraq sağalıb, 78 nəfər vəfat edib, 2707 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 64 nəfərin vəziyyəti ağır, 75 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 322.574 test aparılıb.

# *Sahibə QAFAROVA:* "Unutmayaq ki, görülən bütün tədbirlərin məqsədi vətəndaşların sağlamlığının qorunmasıdır"

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova iyunun 4-də öz "Facebook" səhifəsində koronavirusla bağlı əhaliyə müraciət edib.

AZƏRTAC müraciəti təqdim edir:

"Əziz və hörmətli həmvətənlərim!

Bütün dünyada olduğu kimi, ölkəmizdə də koronavirusa və bu virusun millətimizin hər bir fərdi üçün yaratdığı hədələrə qarşı hərtərəfli mübarizə aparılır. 2020-ci ilin fevral ayından başlayaraq ölkəmizdə görülməyə başlanan koronavirus infeksiyasının qarşısının alınması məqsədilə görülən tədbirlər üçün dövlətin bütün müvafiq qurumları səfərbər olmuşdur. Cənab Prezident bu virusun ölkəmizə verə biləcəyi zərəri minimuma endirmək üçün ciddi siyasi iradə ortaya qoymuş və effektiv tənzimləmə mexanizminin formalaşdırılması üçün müvafiq göstərişlər vermişdir.



Görülmüş tədbirlər müsbət nəticələr versə də, aprelin 27-dən xüsusi karantinin rejiminin mərhələli şəkildə yumşaldılması və təəssüflər olsun ki, müəyyən olunmuş qaydalara və təcrid tövsiyələrinə riayət edilməməsi son günlər infeksiyaya yoluxanların sayının kəskin artması ilə nəticələnmişdir. Buna görə də Operativ Qərargahın qərarı ilə 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək aktiv yoluxma hallarındakı artım səbəbindən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda sərt karantin rejimi tətbiq olunacaq.

Qərarda göstərilən tələblərə riayət edilməsinin mütləq olmasını nəzərə alaraq, hər bir həmvətənimdən bir ana, bir azərbaycanlı və Milli Məclisin Sədri olaraq xahiş edirəm: millətimizin bu bəladan ən qısa müddətdə xilas olması üçün üzərinizə düşən mühüm missiyanı yerinə yetirin - qoyulmuş tələblərə və verilmiş tövsiyələrə riayət edin, özünüzü, ailə fərdlərinizi və yaxınlarınızı, həmçinin ətrafınızda olan insanları düşünün və bu bəlanın daha geniş vüsət almasına imkan yaratmayın.

Unutmayaq ki, görülən bütün bu tədbirlərin ali məqsədi siz - əziz həmvətənlərimizin sağlamlığının və həyatının qorunmasına yönəlmişdir".

# Milli Məclisdə keçirilən görüşdə Azərbaycan ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasındakı əlaqələrdən danışılıb

İyunun 4-də Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin rəhbərinin müavini Emanuela Bertinqinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə BQXK arasında əlaqələrin tarixindən danışılıb. Bildirilib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu beynəlxalq qurumla münasibətlər daha da genişlənib, yeni müstəviyə qədəm qoyub. Söhbət zamanı komitənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1992-ci ildən etibarən Azərbaycanda fəaliyyəti, itkin düşmüş şəxslərin məsələlərinin diqqət mərkəzində saxlanması, eləcə də təmas xətti yaxınlığında yaşayan insanların təhlükəsizliyinin qorunması və onlara yardım göstərilməsi sahəsində gördüyü işlər barədə fikir mübadiləsi aparılıb.

Milli Məclis Sədrinin müavini Adil Əliyev Ermənistanın Azərbaycana təcavüzü, əzəli torpaqlarımızın zəbt olunması nəticəsində 1 milyondan çox soydaşımızın məcburi köçkün olmasını, Ermənistanın apardığı təcavüzkar siyasətin İnsan Hüquqları haqqında Avropa Konvensiyasının tələblərinə zidd olmasını qonaqların diqqətə çatdırdı. Bununla yanaşı, o, 2014-cü ildə Azərbaycanın tarixi torpağı olan Kəlbəcər rayonuna səfər edən Dilqəm Əsgərov və Şahbaz Quliyevin əsassız olaraq tutulması, hazırda qondarma rejim tərəfindən həbsdə saxlanması, onlarla qeyri-insani rəftar olunması barədə narahatçılığını da dilə gətirib.

Söhbət zamanı qonaqlara itkin düşmüş şəxslərlə bağlı Azərbaycan hökumətinin gördüyü işlər, Milli Məclisdə hazırlanan qanun layihələri barədə məlumat verilib, bu sahələrdə birgə əməkdaşlığın əhəmiyyətindən danışılıb.

# Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib



İyunun 4-də Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Əhliman Əmiraslanov əvvəlcə koronavirus (COVID-19) pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, bu sahədə həyata keçirilən tədbirlər barədə danışıb. Bu sahədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) fəaliyyətini yüksək qiymətləndirən komitə sədri ölkə vətəndaşları tərəfindən karantin rejiminin yumşaldılmasından sui-istifadənin yolverilməz olduğunu vurğulayıb.

Sonra iclasda "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə edilib. Əhliman Əmiraslanov sənədi ətraflı şərh edib. Qeyd olunub ki, qanun layihəsi ölkə Konstitusiyasının 94-cü maddəsinə uyğun olaraq, Azərbaycanda insan orqan və toxumalarının donorluğunun və onların transplantasiyasının hüquqi əsaslarını, donorların, resipiyentlərin, orqan transplantasiyası sahəsində fəaliyyət göstərən tibb müəssisələrinin, tibb işçilərinin hüquqlarını və vəzifələrini müəyyən edəcək, bu sahədə yaranan münasibətləri tənzimləyəcək. 5 fəsil, 35 maddədən ibarət sənəddə qanunun tətbiq dairəsi, donorluğun və transplantasiyanın əsas prinsipləri, qayda və şərtləri, bu sahəyə yardımın təşkili, transplantasiya işini həyata keçirən mütəxəssislərin hüquq və vəzifələri, resipiyentlərin uçotu, donorluq işinin koordinasiyası, donor orqanlarının resipiyentlər arasında bölüşdürülməsi kimi məsələlər ətraflı ehtiva olunub.

Komitə üzvləri Rəşad Mahmudov, İlham Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, dəvət olunmuş mütəxəssislər qanun layihəsi ilə bağlı fikirlərini bildirərək, bu sahədə dünya ölkələrinin qabaqcıl təcrübəsindən danışıblar.

Gündəliyin ikinci məsələsini təqdim edən Milli Məclis Aparatının İqtisadi və sosial qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Yerin təki haqqında" və "Ətraf mühitin mühafizəsi haqqında" qanunlara təklif olunan dəyişiklikləri diqqətə çatdırıb və bildirib ki, bu dəyişikliklər ekoloji təhlükəsizliyin qorunması məqsədi daşıyır.

İclasda gündəliyin üçüncü məsələsinin - "Dövlət rüsumu haqqında" Qanuna təklif olunan dəyişikliklərin (birinci oxunuş) mahiyyətini açıqlayan Məhəmməd Bazıqov diqqətə çatdırıb ki, "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda dəyişiklik edilməsi barədə" 2019-cu il 27 iyun tarixli Qanunda tibb müəssisələrinin akkreditasiyası nəzərdə tutulub. Bunu TƏBİB-in tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, digər tibb müəssisələrinə münasibətdə isə Səhiyyə Nazirliyi həyata keçirəcək. Sənəddə ambulator xidmət göstərən tibb müəssisələrinin akkreditasiyasının keçirilməsinə görə tutulan dövlət rüsumunun məbləği ərazi (regional) prinsipinə görə, stasionar xidmət göstərən tibb müəssisələrinin akkreditasiyasına görə tutulan dövlət rüsumunun məbləği isə çarpayı sayına görə diferensiallaşdırılır. Tibb müəssisələrinin akkreditasiyasının məqsədi əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin, əhalinin yüksək keyfiyyətli tibbi xidmət göstərən müəssisə tərəfindən müayinə və müalicə olunması üçün seçim hüququnun təmin edilməsidir.

Ətraflı müzakirələrdən sonra hər üç qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# *Əli ƏHMƏDOV:* “Heydər Əliyev unudulmur və unudulmayacaq”



“Azərbaycanın son 102 illik tarixi müxalifətin təşəbbüsü ilə ekspert qrupları səviyyəsində yenidən müzakirə mövzusuna çevrilib. Belə bir müzakirənin açılmasını adi elmi diskussiya saymaq olardı. Lakin diskussiyaların xalis siyasi və ideoloji yönümü ona adi elmi müzakirə kontekstindən yanaşılmasını qeyri-mümkün edir. Müxalifətin məlum kəsimi yenə də ənənəsinə uyğun olaraq müstəqillik tarixini öz inhisarına almaq və buradan çıxış edərək mövcud hakimiyyətin və onun qurucusu Heydər Əliyevin tarixdəki rolunu təhrif etmək yolunu seçməklə diqqəti özünə cəlb etməyə çalışır”.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Baş Nazirin müavini, YAP Sədrinin müavini - icra katibi Əli Əhmədovun özünün “Facebook” səhifəsində paylaşdığı “Heydər Əliyevin tarixdə rolunu təhrif etmək istəyənlərə” sərlövhəli məqaləsində yer alıb. Məqaləni təqdim edirik.

Əvvəla, onu qeyd edim ki, müxalifətin Azərbaycan hakimiyyətinin Xalq Cümhuriyyətinə münasibətinə verdiyi qiymət əsassız və əsassız olduğu qədər də qeyri-obyektivdir. Azərbaycan Respublikasının özünü Xalq Cümhuriyyətinin varisi sayması, cümhuriyyətin elan olunduğu 28 mayın dövlət bayramı kimi qeyd edilməsi müxalifətin ittihamlarının qərəzli və siyasi cəhətdən motivləndiyini sübuta yetirən ən adi həqiqətlərdir. Hakimiyyətin həyata keçirdiyi siyasətdə cümhuriyyət qurucularının amalı olan dövlət müstəqilliyi ideyasının başlıca və həlledici komponent kimi iştirak etməsi onların xatirəsinə və irsinə sönməz hörmət və ehtiramın bariz ifadəsi sayılmalıdır. Bu mənada mən bəzi müxalifətçilərin Azərbaycan hakimiyyətini cümhuriyyətin qurucularına və onların ideyalarına yetərincə hörmət göstərməməkdə suçlamasını qeyri-obyektivliyin və qərəzliyin yüksək ifadəsi kimi qiymətləndirirəm.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin Azərbaycan tarixində rolu məsələsinə müxalifətin yenidən diqqət ayırması və ənənəsinə uyğun olaraq onu təhrif etməyə çalışması ayrıca təhlil mövzusudur. Müxalifətin Heydər Əliyevin şəxsiyyətinə münasibətində xüsusi bir qısqanclığın olması heç kimə sirr deyil. Liderləri də daxil olmaqla onların edə bilmədiklərini Heydər Əliyevin həyata keçirməsi və nəticə etibarilə Azərbaycanın müasir tarixinin hamılıqla qəbul edilən müəllifinə çevrilməsi onları rahat buraxmır. Mən buna uğursuzluq sindromunun yaratdığı qısqanclıq kimi baxıram. Ancaq etiraf olunmalıdır ki, bu xüsusda günahkar axtarılacaqsa, onu uğursuzların arasında tapmaq mümkündür.

Heydər Əliyevin tarixdəki rolunu saxtalaşdırmaq cəhdlərində indi tarixçi Cəmil Həsənli xüsusi canfəşanlıq göstərir. Mən onun vaxtilə yazdığı kitablarda Heydər Əliyev haqqında çox yüksək fikirlərin əks olunduğunu bir kənara qoyuram. Bu, necə deyərlər, mənəviyyat məsələsi, şəxsiyyətin özü-özünü inkar etməsidir. Buna baxmayaraq, ciddi tarix tədqiqatçısı olduğunu şübhə altına almadığım birisinin Heydər Əliyevin az qala, obrazlı şəkildə desək, SSRİ-də doğulduğunu və yaşamasını onun günahı kimi təqdim etməyə çalışması tarixin siyasətə qurban verilməsinin nə qədər arzuolunmaz nəticələrə gətirib çıxardığına acı nümunədir.

Azərbaycan ikiillik fasilə ilə 1813-cü ildən 1991-ci ilə qədər Rusiyanın və SSRİ-nin tərkibində olub. Təxminən 170 il ərzində Azərbaycanın indiki əhalisinin əhəmiyyətli bir hissəsi də daxil olmaqla 6 nəsli həmin dövlətlərdə yaşayıb. Onların içərisində ziyalılar da yetişib, az sayda olsa da, dövlət xadimləri də. Nə həmin dövrdə yaşamaq, nə də müxtəlif sahələrdə, o cümlədən dövlət idarəçiliyində xidmətlər göstərmək onları milli köklərdən və ruhdan məhrum etməyib və edə bilməzdi. Haqqında söhbət açdığımız tarixi şəraitdə, daha dəqiq ifadə etsək, SSRİ dövründə yetişmiş ən böyük şəxsiyyət və dövlət xadimi məhz Heydər Əliyev olmuşdur.

Müxalifətin məntiqinə görə, SSRİ dövründə müxtəlif sahələrdə çalışanlar sovet ideologiyasına xidmət etdiklərindən milli ruhlu insanlar ola bilməzlər. Bu məntiqlə yanaşsaq, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Niyazi və digər korifeylər də həmin kateqoriyaya aid edilməlidir. Deməli, sovet dönəmində heç kim idarəçilikdə çalışmamalı, elm, mədəniyyət, incəsənətlə məşğul olmamalı idi ki, indiki müxalifət onları qeyri-milli olmaqda suçlaya bilməsin. Bəs alternativ nə olmalı idi? Bu cür yanaşmanın nə qədər bəsit təfəkkürün məhsulu olduğunu sübut etməyə ehtiyac duymuram.

Qeyd edildiyi kimi, sovet hakimiyyəti illərində yetişmiş ən parlaq azərbaycanlı dövlət xadimi və siyasi xadim Heydər Əliyev olub. Lakin bu, ona dərin milli ruha malik olmasına, o dövrün imkanları daxilində öz xalqına ləyaqətlə və böyük fayda ilə xidmət göstərməsinə mane ola bilməzdi və bilmədi. Sovet dövründə yüksək dövlət vəzifələrində çalışmasına görə onun Azərbaycan tarixində rolunu təhrif etməyə çalışan müxalifətin bütün cəhdlərinə baxmayaraq, xalqın tarixində elə o dövrdə buraxdığı dərin izlər indi də xatırlanır və qiymətləndirilir. Sovet dövründə Azərbaycanda iqtisadiyyatın, sənayenin, kənd təsərrüfatının, elmin, təhsilin, mədəniyyətin sürətli inkişafı Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərə təsadüf edir. Bakının, Gəncənin, Sumqayıtın, digər şəhər və kəndlərin simasının kökündən dəyişməsi, əhalinin əksəriyyətini təşkil edən kənd yerlərində yaşayanların məişətinin və həyat tərzinin bütünlüklə yeniləşməsi və müasirləşməsi Heydər Əliyevin adı ilə bağlı idi. Onun şəxsi təşəbbüsü ilə Azərbaycanda o dövr üçün ən müasir onlarca zavod, sənaye müəssisəsi, universitet, səhiyyə və mədəniyyət mərkəzi, hərbi məktəb yaradıldı, hər il yüzlərlə azərbaycanlı gənc SSRİ-nin ən qabaqcıl ali təhsil ocaqlarında təhsil almağa göndərilirdi. Sadalananların hər biri Azərbaycana, Azərbaycan xalqına xidmətin ayrı-ayrı nümunələri kimi xatirələrdə yaşayır. Azərbaycanın elm, mədəniyyət və incəsənət xadimlərinə o dövr üçün şöhrətin və yaradıcılıq uğurlarının etirafının ən yüksək pilləsi hesab edilən adların və mükafatların verilməsi xalqın və onun tarixinin, mədəniyyətinin ən yaxşı təbliği sayılırdı. Heydər Əliyevin sovet dövrü fəaliyyətində yetərincə sırf milli komponentin (əlbəttə, mövcud şərtlər daxilində) özünü büruzə verdiyinə aid nümunələr də kifayət qədərdir. Azərbaycanın dövlət idarəçiliyi sahəsində milli kadrların kəmiyyət baxımından kəskin şəkildə artması onun dövründən etibarən müşayiət olunmağa başladı. Yaxud bir sıra inzibati ərazi vahidlərinin adlarının dəyişdirilməsi, Gəncə adının qaytarılması istiqamətində ilk addımın atılması (o zamankı Kirovabad şəhərində iki rayon yaradılaraq birinin Gəncə adlandırılması), Bakıda inşa edilən möhtəşəm saraya “Gülüstan” adının verilməsi və s. Heydər Əliyevin milli ruhlu dövlət xadimi olmasını sübuta yetirən digər faktlardır. Stalin repressiyasının qurbanı olmuş Hüseyn Cavidin nəşinin Sibirdən Azərbaycana gətirilməsi, başqa bir repressiya qurbanı Mikayıl Müşfiqə Bakıda abidə ucaldılması və digər çoxsaylı milli ruhlu qərarların qəbul edilməsini də nəzərə alsaq, müxalifətin Heydər Əliyevin tarixi xidmətlərinin milli köklərdən qoparmaq cəhdlərinin nə dərəcədə saxta iddialara əsaslandığını və ziyanlı xarakter daşıdığını dərk etmək çətin deyil.

Heydər Əliyev böyük dövlət xadimi və dahi siyasətçi idi. Sovet rejiminin məlum qaydaları və şərtləri daxilində mənsub olduğu xalqa ləyaqətlə xidmət etməyin və fayda verməyin yollarını aydın dərk edirdi. Onu sovet idarəçiliyinə xas olan ideoloji qaydalara əməl etdiyinə görə tənqid etmək cəhdləri qədər tarixdə şəxsiyyətin roluna mənasız, hər cür məntiqdən və rasionallıqdan məhrum yanaşma təsəvvür etmirəm. Düşünürəm ki, bu məntiqdən məhrum olan tənqidlərin müəllifi Cəmil Həsənli Bakı Dövlət Universitetində çalışarkən özünün buraxdığı ciddi səhvlər nəticəsində yaranmış problemlə üzləşəndə Leninin mavzoleyinə şikayət məktubları göndərdiyini, Əli Kərimli isə hərbi xidmətdən qayıdıb BDU-da təhsil alarkən, qrupda ən yaşlı tələbə kimi tələbə komsomol komitəsinin katibi seçildiyini unutmayıb. Bu, onlara özlərini milli ruhlu insanlar kimi təqdim etməyə mane olmursa, onda niyə sovet cəmiyyətində yaşamış və işləmiş digər insanlara başqa münasibət sərgilənməlidir. Əvvəldə qeyd etdim, haqqında söhbət açdığımız müxalifət nümayəndələrində onların liderlərinin və özlərinin edə bilmədiyini böyük məharətlə etmək qabiliyyətinə görə Heydər Əliyevə dərin qısqanclıq kompleksi yaranıb. 1992-ci ildə tale AXCP-Müsavat təmsilçilərinə hakimiyyət bəxş edərək onlara müstəqilliyi qorumaq, müstəqil dövləti qurmaq şansı verdi. Lakin onlar bu şansdan istifadə edə bilmədilər. Çünki onlarda Heydər Əliyevdə olan zəka, iradə, qətiyyət, dövlətçilik təcrübəsi, bir də ki, hər bir dövlət xadiminə çox lazım olan millət sevgisi çatmırdı. Cəmi bir ilin içərisində iflasa uğradılar, dövləti müflis etdilər, ölkəni parçalanmaq həddinə gətirdilər. Nəticəsi məlumdur: xalq yarıtmaz hakimiyyət kimi onları devirdi və acınacaqlı hala düşmüş Azərbaycanı xilas etmək naminə Heydər Əliyevi hakimiyyətə dəvət etdi.

İndi Heydər Əliyevin tarixi rolunu böhtanlar və yalanlarla təhrif edənlərdən soruşmaq lazımdır: xalq niyə taleyinin ən ağır günündə məhz Heydər Əliyevə üz tutdu, hakimiyyətə dəvət etdi?! Bu sualın yeganə cavabı var. Azərbaycan xalqı Heydər Əliyevi o dərəcədə milli ruhlu, vətənsevər dövlət xadimi kimi tanıyır və qəbul edirdi ki, ən ağır günlərdə taleyini yalnız ona etibar edə bilərdi. Çünki bilirdi ki, Heydər Əliyev həyatı bahasına olsa da, Azərbaycanı dardan xilas edəcək. Və yanılmadı. Uğursuz siyasətçilər bunu Heydər Əliyevə bağışlaya bilmirlər. Onun şəxsiyyətinin əzəməti və tarixi xidmətlərinin böyüklüyü qarşısında cılız və əlacsız olduqları daha qabarıq görünür.

Başqa bir həqiqət də var ki, onu da xatırlamaq yerinə düşər. Əgər Heydər Əliyev haqqında indiki azsaylı böhtançıların söylədikləri doğru idisə, niyə onların da vəzifələr tutduğu hökumət 1993-cü ildə Heydər Əliyevi hakimiyyətə dəvət etdi, arxasınca prezident təyyarəsini göndərdi?! Kimə və nəyə inanaq - 1993-cü ildə indiki müxalifətçilərin vəzifə tutduğu hökumətin rəhbərlərinin Heydər Əliyevin zəkasını, gücünü, əzəmətini və təbii ki, milli ruhunu qiymətləndirərək dağılmaqda olan Azərbaycanı və əlbəttə ki, özlərini xilas etmək üçün paytaxta dəvət etməsi kimi tarixi fakta, yoxsa illər keçəndən sonra Heydər Əliyev ruhunun əzəməti qarşısında acizlik kompleksi yaşayan bir neçə müxalifət nümayəndəsinin məntiqdən və rasionallıqdan məhrum böhtanlarına?

Faktları inkar etmək heç kimə müyəssər olmayıb. Deyilənlər kontekstində iki tarixi faktı yada salmaq istəyirəm: birincisi, qalıqları bu gün Heydər Əliyevlə əlaqədar böhtan uyduran AXCP-Müsavat hakimiyyətinin cəmi bir il iqtidarda olmasıdır. İkinci fakt isə Heydər Əliyevin 10 il davam edən Prezidentliyidir. Birincilərin 13 aylıq hakimiyyəti xaos, anarxiya, total böhran və vətəndaş müharibəsi ilə, Heydər Əliyevin hakimiyyəti isə birincilərin qoyub getdiyi ağır mirasın aradan qaldırılması, sabitlik və əmin-amanlığın bərqərar olması, siyasi və iqtisadi islahatların həyata keçirilməsi və müstəqil Azərbaycan dövlətinin qurulması, “Əsrin müqaviləsi” adını almış neft sazişinin imzalanması və s. möhtəşəm inkişaf və dəyişikliklərlə tarixə düşüb. Bu inkişaf indi də davam edir, Heydər Əliyev ideyaları yaşayır və Azərbaycan xalqına xidmət edir. Müasir, qüdrətli, güclü Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsi və təcəssümüdür. Qeyd edilən həmin faktların əks etdirdiyi tarixi həqiqətləri təhrif etmək üçün kimlərsə cəhdlər edə bilər, lakin nəticəsiz qalacaq. Müqayisə edilən tarixi dövrlər və dövrün liderləri bir-birindən o dərəcədə fərqlənir ki, istənilən təhrif və ya saxtakarlıq nəyisə dəyişdirmək gücündə deyil.

Ayrı-ayrı vaxtlarda Heydər Əliyevə qarşı çox haqsızlıqlar edilib. Lakin zaman hər şeyi öz yerinə qoyub. Heydər Əliyev isə həmişə haqqın və ədalətin yanında olub. Ona görə də, Heydər Əliyev elə möhtəşəm tarixdir ki, onu dəyişdirmək imkan xaricindədir. 1993-cü ilin fevral ayında Heydər Əliyev Naxçıvandan Bakıya gəlmişdi. Yeni Azərbaycan Partiyasının üzvləri ilə görüşdə iştirakçılardan biri çıxışında ozamankı prezident Əbülfəz Elçibəyin şəxsiyyəti haqqında kəskin ifadələr işlətdi. Heydər Əliyev dərhal onu dayandırıb, “Əbülfəz Elçibəy Azərbaycanın prezidentidir. Sənə də, digərlərinə də dövlətimizin başçısının şəxsiyyəti haqqında kəskin ifadələr işlətməyi məsləhət görmürəm. Biz onun yeritdiyi siyasəti tənqid edirik, lakin şəxsiyyətinə hörmətlə yanaşmaq lazımdır” dedi. Bu epizod Heydər Əliyevin həm insan, həm siyasətçi, həm də dövlət xadimi kimi böyüklüyünü təsdiq edən yüzlərlə faktlardan yalnız biridir. Ona görə Heydər Əliyev unudulmur və unudulmayacaq.

# «Cənub qaz dəhlizi»nə kredit ayıran ilk beynəlxalq maliyyə qurumu

## Asiya İnkişaf Bankı Azərbaycanın enerji layihələrinə dəstək verməyə yenə də hazırdır

*Əvvəli 1-ci səh.*

Asiya İnkişaf Bankı ötən illər ərzində ölkəmizdə həyata keçirilən elektrik enerjisinin istehsalı, yolların, o cümlədən dəmir yollarının tikintisi, su və kanalizasiya ilə bağlı çoxsaylı infrastruktur layihələrini dəstəkləyib. Bankın Azərbaycana ayırdığı kredit və zəmanətlərin ümumi məbləği 3 milyard ABŞ dollarını ötür.

Bu barədə Prezident İlham Əliyevlə Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və rəhbərliyinin digər nümayəndələri arasında keçirilən videokonfransda ətraflı bəhs olunmuşdur. Asiya İnkişaf Bankının təşəbbüsü ilə baş tutan videokonfransda əməkdaşlıq sahəsində qazanılan uğurlar xatırlanmaqla yanaşı, gələcək plan və məqsədlər haqqında da söhbət getmişdir. Belə ki, iqtisadiyyatın bir çox sahələrində yeni layihələrin reallaşması üçün imkan və istəyin olması bildirilmişdir.

Asiya İnkişaf Bankının prezidenti Azərbaycanda koronavirus pandemiyası ilə bağlı tədbirlərin təqdirəlayiq olduğunu vurğulamışdır. Eləcə də bildirilmişdir ki, bank ölkəmizə iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsində, inklüziv artımın təşviqində, həmçinin koronavirusdan sonrakı zaman bərpaolunma və strateji inkişafda dəstəyini davam etdirəcək.

Videokonfransda M.Asakava “Cənub qaz dəhlizi”nin əsas mərhələlərinin başa çatması münasibətilə Azərbaycan Prezidentini təbrik etmişdir. O, layihənin cari il ərzində tam yekunlaşması məqsədilə bankın maliyyə dəstəyini davam etdirəcəyini də bildirmişdir. Prezident İlham Əliyev bununla bağlı demişdir: “Əlbəttə ki, biz “Cənub qaz dəhlizi” layihəsinin həyata keçirilməsinə sadiqliyinizə və dəstəyinizə, maliyyə dəstəyinizə görə sizə çox minnətdarıq. Mən sizə deyə bilərəm ki, Asiya İnkişaf Bankı bu layihəyə kredit verən ilk böyük beynəlxalq banklar arasında birinci olub. Sizin çox mühüm və vaxtında göstərdiyiniz dəstək bizə, həmçinin çox geniş kreditorlar qrupu yaratmağa kömək etdi. Bildiyiniz kimi, “Cənub qaz dəhlizi” tamamlanmağa çox yaxındır, 3 layihə artıq tamamlanıb. Dördüncüsü - Trans-Adriatik boru kəməri 95 faizdən çox tamamlanıb. Bu, həqiqətən də əməkdaşlığın çox yaxşı əlamətidir”.

Asiya İnkişaf Bankı elektrik enerjisinin paylanması sahəsində götürdüyü öhdəliklərə də sadiqdir. Bu məqsədlə elektrik şəbəkəsinin təkmilləşdirilməsinə sərmayə proqramını nəzərdə tutur və əgər Azərbaycan tərəfindən müsbət qərar verilərsə, onu uğurla icra edə bilər.

Beləliklə, tədbirdə toxunulan əsas mövzulardan biri enerji səmərəliyi barədə olmuşdur. Bu istiqamətdə “Azərenerji” və “Azərişıq”la aparılan işlər barədə məlumat verilmişdir. Belə ki, ötən il və bu ilin əvvəlindən yatırılmış müəyyən investisiyalara görə “Azərenerji” minimum 600 meqavat səviyyəsində mövcud elektrik enerjisi stansiyalarının məhsuldarlığını artıra bilmişdir. Proses davam edir. Qafqazın ən böyük elektrik stansiyası olan Mingəçevir elektrik stansiyası tamamilə bərpa edilmişdir. Stansiyanın bərpa işlərindən sonra, bir-iki ay müddətində açılacağı gözlənilir.

Bunlardan əlavə, bərpa olunan enerji mənbələri üzərində də ardıcıl iş aparılır. Bu sahədə fəaliyyət göstərən iki tanınmış xarici şirkətlə cari ilin əvvəlində iki ilkin müqavilə imzalanmışdır. Nəzərdə tutulan bu layihələr üzrə ümumi enerji hasilatının həcmi 400 meqavat təşkil edəcək. Xarici investisiya hesabına günəş və küləklə işləyən iki stansiya qurulacaq.

Azərbaycanın günəş və külək mənbələri ilə zənginliyi nəzərə alınaraq enerjinin bu sektorunu inkişaf etdirmək üçün planlarımızın olduğu da bildirilmişdir. Ona görə Asiya İnkişaf Bankının rəhbərliyinə bu variantı nəzərdən keçirmək təklif edilmişdir.

Prezident İlham Əliyev Azərbaycanın Asiya İnkişaf Bankı ilə əməkdaşlıqla bağlı yeni ideyalarda maraqlı olduğunu və qarşılıqlı əlaqələrin möhkəm bünövrəyə əsaslandığını demişdir: “5-6 il bundan əvvəl bizim maliyyə dəstəyinə ehtiyacımız olanda Asiya İnkişaf Bankı çox tez reaksiya göstərdi. Həqiqətən də bu, mənə çox xoş təsir bağışladı və mən bir daha çox vaxtında göstərilmiş dostcasına yanaşmaya görə minnətdarlığımı ifadə etmək istəyirəm... Mən xatırlayıram, bəzi başqa banklar layihəyə maliyyə öhdəliyini nəzərdən keçirdiyi vaxtda qeyd etdim ki, “Şahdəniz”dən hasil olunan qaz Avropaya nəql ediləcək. Lakin Avropa banklarında hələ proses getdiyi halda, Asiya İnkişaf Bankı artıq maliyyələşməni təmin etdi. Düşünürəm ki, sizin çox dostcasına verdiyiniz dəstək böyük bir qrupun birləşməsində mühüm rol oynadı”.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Nadir şahın qətli üzərindən sirr pərdəsinin götürülməsinə xidmət edən dəyərli nəşr

## Akademik Ramiz Mehdiyevin “Nadir şahın şəxsi həkiminin məktubları - hakimiyyətinin son dövrünə və qətlinin təfərrüatlarına dair qiymətli mənbə kimi” kitabı çapdan çıxıb

Son vaxtlar görkəmli dövlət xadimi Nadir şahla bağlı bir sıra tədqiqatlar aparılmasına və yeni sənədlərin üzə çıxarılmasına baxmayaraq onun qətli üzərindən sirr pərdəsi bu günədək götürülməyib. Mənbələrdə ətraflı təsvir olunmuş qətl səhnəsi bu cinayətin gerçək səbəbləri, onların törədilməsində maraqlı olan şəxslər, yaxud dairələr haqqında aydın təsəvvür yaratmaq üçün kifayət etmir.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevin bu yaxınlarda çapdan çıxmış “Nadir şahın şəxsi həkiminin məktubları - hakimiyyətinin son dövrünə və qətlinin təfərrüatlarına dair qiymətli mənbə kimi” kitabı böyük fatehin öldürülməsi ilə bağlı müəmmalı məqamlara aydınlıq gətirir və maraqla oxunur.

Nadir şahın şəxsi həkimi - fransız əsilli Lui Bazinin (1712-1774) məktubları əsasında qələmə alınmış əsərdə dövrün hərbi-siyasi mənzərəsi, saray çəkişmələri, yaxınları və düşmənləri tərəfindən şaha qarşı hazırlanan sui-qəsdlər və digər hadisələr tarixi sənədlərə və faktlara istinadla şərh edilir.

Xatırladaq ki, akademik Ramiz Mehdiyev ingilis şərqşünası M.Aksvörtinin “Nadir şah” kitabının Azərbaycan nəşrinə yazdığı ön sözdə apardığı təhlil və müqayisələr bu böyük şəxsiyyəti dövlət hakimiyyətinə gətirən yolun aydın qavranılmasına kömək edir. Görkəmli alimin “Şah İsmayıl Səfəvi: tarixi-diplomatik sənədlər toplusu”, “Şah İsmayıl Səfəvi: hökmdarın və döyüşçünün portreti”, “Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında” və digər kitabları Azərbaycan tarixinin qaranlıq səhifələrini işıqlandıran, onu sənədlər əsasında tədqiq edən xüsusi elmi nümunələrdir.

Müəllif əvvəlki əsərlərində olduğu kimi, yeni kitabında da orta əsrlərə aid saray, yaxud rəsmi tarixşünaslığın mənbələri ilə yanaşı, Avropa qaynaqlarını dərindən öyrənməyin əhəmiyyətini vurğulayır, bu mənbələrdən ən mühümlərini mümkün olduqca Azərbaycan dilində təqdim etmək üçün mənbəşünaslarımıza, tərcüməçilərimizə və tarixçilərimizə çağırış edərək yazır: “Nadir şah Əfşarın dövründə baş verən bir sıra siyasi proseslərin obyektiv şəkildə başa düşülməsi nöqteyi-nəzərindən böyük fatehin müasiri olmuş, xüsusilə də həmin dövrdə Yaxın Şərqdə fəaliyyət göstərmiş avropalıların qələmə aldıqları əsərlər, məktublar, gizli hesabatlar və digər mənbələr əvəzsiz dəyərə malikdir. Xüsusilə də Nadirin ölümü ilə nəticələnmiş sui-qəsdin bütün pərdəarxası məqamlarının başa düşülməsi məsələsində avropalı müəlliflərin məlumatları olmadan keçinmək mümkün deyil”.

Akademik bir daha vurğulayır ki, XVIII əsrin Ceyms Frazer və Conas Henvey kimi Qərb müəlliflərinin əsərləri, həmçinin o dövrün avropalı diplomat və missionerlərinin yazışmaları Azərbaycan dilinə tərcümə edilərək dərindən təhlil olunmadıqca, biz nəinki Nadir şah, onun fəaliyyəti və qətli haqqında, həmçinin tariximizin bütöv bir mərhələsi barəsində olduqca dəyərli məlumatlardan, faktlardan məlumatsız qalacağıq. Bununla yanaşı, müəllif mənbəyindən asılı olmayaraq əldə edilən bütün məlumatları yoxlamağın, təhlil etməyin və yalnız bundan sonra onlara qiymət verməyin vacibliyini bildirir.

Ramiz Mehdiyevin fikrincə, Nadir şahın şəxsi təbibi, keşiş Lui Bazinin qələmə aldığı iki irihəcmli məktub Avropa qaynaqları arasında əhəmiyyətinə və tarixi dəyərinə görə mühüm yer tutur. Bu məktubların tarixi əhəmiyyətini səciyyələndirən üç əsas amil var. Birincisi, 1741-ci ildə İrana gəlmiş keşiş Bazin illər ərzində Əfşarlar imperiyasında baş verən ictimai-siyasi, iqtisadi, hərbi prosesləri yaxından müşahidə etmək imkanı qazanmışdı. Yəni o, imperiyanın real vəziyyətinə dərindən bələd idi.

İkincisi, Lui Bazin Nadir şahın şəxsi həkimi kimi fəaliyyətə başlayanadək missionerlik edirdi. Əslində xristianlığın təbliği missionerlərin fəaliyyətinin ancaq bir hissəsi idi. Onların başlıca missiyası operativ, etibarlı və geniş xəfiyyə şəbəkəsinin qurulması, hökmdarın yaxın ətrafına aid nüfuzlu əyanlarla sıx əlaqələrin yaradılması idi. Keşiş Bazinin də həmin şəbəkənin ən bacarıqlı nümayəndələrindən biri olduğunu qeyd edən akademik diqqətə çatdırır ki, məktublarda Nadir şah və onun qüdrətli imperiyası haqqında əksini tapan məlumatlardan bir çoxu o dövr üçün məxfi hesab olunur, kəşfiyyat səciyyəsi daşıyırdı. Həmin qeydlər dövrün rəsmi tarixşünaslığı tərəfindən işıqlandırılmamış bir sıra mühüm məqamları görməyə və təhlil etməyə imkan yaradıb.

Üçüncü və ən başlıca amil Lui Bazinin 1746-cı ilin dekabrından Nadirin ölüm gününədək böyük fatehin şəxsi təbibi vəzifəsində xidmət etməsi ilə əlaqədardır. Akademikin fikrincə, Nadir şahın ömrünün son aylarını yaxından müşahidə etmək imkanı olan, ən əsası isə sui-qəsd haqqında ən müfəssəl məlumatı qələmə alan bir şəxsin yazdıqlarına etinasız yanaşmaq tariximiz qarşısında səhv olardı. Bazin bir din xadimindən, həkimindən daha çox, kəşfiyyatçı idi və bu onun məktublarının yazılma üslubundan açıq-aşkar duyulmaqdadır.

Lui Bazinin kitabda Azərbaycan dilində təqdim edilən məktublarından məlum olur ki, o, bunları Nadir şahın ölümündən sonra Bəndər-Abbas şəhərində qələmə alıb və Yezutilər ordenində yüksək rütbəli ruhani olan Rocer ataya ünvanlayıb. Birinci məktubda Nadir şah dövrünün hadisələri, şahın yüksəlişinin tarixçəsi, böyük fatehin psixoloji və fiziki xüsusiyyətləri ətraflı təsvir olunub. Lui Bazin yazırdı: “Onun uğurlarının yeganə mənbəyi sarsılmaz iradəsi və ciddi səylə çalışması idi. Belə yüksək mərtəbəyə qalxmasına görə yalnız özünə borclu idi. Mənşəyinə baxmayaraq, o, sanki anadan taxt-tac üçün doğulmuşdu. Təbiət ona insanı qəhrəman edən, hətta onlardan bəzilərini dahi hökmdarlara çevirən bütün ali keyfiyyətləri bəxş etmişdi”.

Akademik Ramiz Mehdiyev bildirir ki, Nadir şahın irsi ilə yaxından maraqlanmağa başladığı vaxtdan etibarən onun bu qədər dəqiqliklə təəssübkeşlikdən və qərəzdən uzaq təsvir edilmiş psixoloji portretinə nə dövrün saray tarixçilərinin, nə də müasir tədqiqatçıların heç birinin əsərində rast gəlməyib. Təsadüfi deyil ki, L.Lokkart və M.Aksvörti kimi tədqiqatçılar Nadir şahın şəxsi keyfiyyətlərini - məziyyət və qüsurlarını səciyyələndirərkən məhz L.Bazinin qənaət və müşahidələrinə istinad etməyə üstünlük veriblər.

Birinci məktubda, həmçinin Bazinin böyük fatehin xidmətinə necə daxil olması, şahın xəzinəsi haqqında qiymətli məlumatlar öz əksini tapıb.

İkinci məktubda isə Nadir şahın qətlindən sonra Əfşarlar dövlətində baş verən hərbi-siyasi proseslərdən, adi hal almış çevriliş və qətllərdən, feodal hərc-mərcliyindən danışılır. Adil şahın, İbrahim şahın və Şahrux Mirzənin hakimiyyəti dövründə baş vermiş hadisələrin qısa şəkildə nəql olunduğu məktub 1751-ci il hadisələri ilə başa çatır. Bazin öz məktublarına Nadir şahın düşərgəsinin təsvir olunduğu sxemi də əlavə etmişdi. Bu, məktub müəllifinin fəaliyyətinin əsl mahiyyəti ilə bağlı bir çox mətləbdən xəbər verir.

Kitabda Bazinin fəaliyyətinin bizim üçün hələ də qaranlıq qalmaqda davam edən məqamlarına dair akademikin qələmə aldığı fikirlər sadəcə ehtimallar və fərziyyələr üzərində qurulub. Bunu xüsusi vurğulayan alim oxucuların və tədqiqatçıların bu qənaətləri qəbul edib-etməməkdə sərbəst olduqlarını yazır və bir mühüm məsələyə diqqət çəkir: “Ancaq onlar bir faktı yaddan çıxarmamalıdırlar ki, müsəlman dünyasının qüdrətli imperiyalarının, demək olar ki, hamısının daxildən laxladılmasında, onların siyasi sisteminin dağıdılmasında, siyasi hərcmərcliyin, saray çəkişmələrinin güclənməsində Avropadan gələn dini, ticari və diplomatik missiyaların fəaliyyəti olduqca böyük rol oynayıb. Həmin missiyaların törətdikləri bəzi fəsadların təsiri bu gün də özünü göstərməkdədir”.

Yeni əsərdə Mirzə Mehdi xan Astrabadi, L.Lokkart, M.Aksvörti, İ.P.Petruşevski, M.H.Qüddusi, K.Sinxa, A.Ç.Banerdji, Y.B. Çernyak, Qiyasəddin Əli, F.Bernye, E.E.Litavrina, P.P.Şyoqolev və digər müəlliflərin fikirlərinə istinad edilib.

Qeyd edək ki, Bazinin məktubları ilk dəfə 1780-ci ildə Parisdə “Xarici missiyaların məlumatlandırıcı və maraqlı məktubları” adlanan çoxcildli sənədlər toplusunun “Levant xatirələri” adlanan IV cildində dərc edilib. Sonradan bu məktublar Qərb şərqşünaslarının Nadir şah və onun dövrü haqqında apardıqları tədqiqatlarda ən çox istinad etdikləri qaynaqlardan birinə çevrilib. İki əsr sonra isə Parisdə yaşayan iranlı tədqiqatçı Əli Əsgər Həriri tərəfindən fars dilinə tərcümə olunaraq nəşr edilib. Məktubların fransız orijinalının daxil olduğu toplu çoxdan bəri nadir biblioqrafik nüsxəyə çevrildiyindən “Nadir şahın şəxsi həkiminin məktubları - hakimiyyətinin son dövrünə və qətlinin təfərrüatlarına dair qiymətli mənbə kimi” kitabında Əli Əsgər Həririnin tərcüməsinə istinad olunub. Sənədləri fransız və fars dilindən Fuad Həsənov, Əli Şükrü, Şahin Yəhyayev tərcümə ediblər.

Dövrün mühüm tarixi şəxsiyyətlərinə və hadisələrinə dair şərhlərin müəllifləri siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Eldar Əmirov, hüquq üzrə fəlsəfə doktoru Cahangir Hüseynov-Əfşardır. Nəşrin redaktoru Yaşar Əliyevdir.

Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən nəşr edilən kitab geniş oxucu kütləsi, tarixçilər, mənbəşünaslar, eləcə də Azərbaycanın orta əsrlər tarixi ilə maraqlananlar üçün qiymətli elmi mənbədir.

# Milli maraqlar naminə əməkdaşlıq

## Müxalifət dövlətin və xalqın mənafeyi məsələlərində hakimiyyətlə eyni mövqe nümayiş etdirməlidir

### Qüdrət HƏSƏNQULİYEV: “Yeni siyasi dialoq ölkəmizdə sabitliyin dayanıqlılığına, siyasi sistemin təkmilləşdirilməsinə xidmət edən ciddi faktordur”



Azərbaycan inkişafının yeni dövrünə qədəm qoyub. Bu dövrün ən mühüm hadisələrindən biri sosial-iqtisadi sahədə islahatların dərinləşdirilməsi ilə yanaşı, siyasi sferada, idarəçilikdə, hakimiyyət qollarında da yeniləşmənin həyata keçirilməsidir. Hakimiyyətlə müxalifət arasında siyasi dialoqun qurulması, müxalifət partiyalarının ölkənin siyasi-ictimai həyatında iştirakının, təşəbbüskarlığının və proseslərə reaksiyasının yüksəldilməsi də bu dövrün yeni siyasi reallığıdır.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyevlə müsahibəmiz də bu mövzudadır.

*- Son vaxtların əsas siyasi müzakirə mövzularından biri Azərbaycanda siyasi sistemdə yeni konfiqurasiyanın formalaşmasıdır. Prezident İlham Əliyevin apardığı siyasi islahatların tərkib hissəsi olan bu proses artıq ilkin nəticələrini verir. Bu yeni düzənin əsas özəllikləri, sizin fikrinizcə, nədən ibarətdir və gözləntiləriniz nədir?*

- Gözləntilərimiz çox böyükdür və hesab edirəm ki, doğrudan da, cəmiyyətimizdə, Prezident İlham Əliyevin özünün də bəyan etdiyi kimi, siyasi islahatların aparılmasına ehtiyac var idi. İlk olaraq onu qeyd edim ki, siyasi partiyaların rolu artırılmalıdır. Ona görə ki, bizim siyasi sistemdə çoxpartiyalılığı inkişaf etdirmədən cəmiyyətin qarşısında dayanan problemləri yetərincə həll edə bilmərik. Məhz bütün bunları nəzərə alaraq cənab İlham Əliyev Milli Məclisdə təmsil olunan digər siyasi partiyaların da parlamentin idarə olunmasında iştirakının təmin edilməsi təşəbbüsü ilə çıxış etdi. Müxalifət partiyasını təmsil edən Fəzail İbrahimli parlament sədrinin müavini seçildi. Digər partiyaların təmsilçiləri arasından isə komitə sədrinin müavinləri seçilənlər oldu.

Eyni zamanda Azərbaycan Prezidentinin Administrasiyasında siyasi partiyalarla iş üzrə ayrıca şöbə yaradıldı. Şöbə qısa müddətdə siyasi partiyalarla işgüzar münasibətlər qurub, o cümlədən Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası ilə. Bu barədə mənim digər partiya rəhbərləri ilə söhbətim olub. Onlar da bizimlə eyni fikirdədirlər ki, bu yeni siyasi dialoq, əməkdaşlıq ölkəmizdə siyasi sabitliyin dayanıqlılığına, siyasi sistemin təkmilləşdirilməsinə xidmət edən ciddi faktordur. Xaricdən idarə olunanlar istisna olmaqla, bütün siyasi partiyalar bu prosesə qoşulublar. Düzdür, karantin səbəbilə son vaxtlarda bu istiqamətdə görüşlər keçirmək mümkün olmadı, amma ümid edirəm ki, pandemiya aradan qalxdıqdan, karantin rejimi bitdikdən sonra yəqin ki, siyasi dialoq davam etdiriləcək.

*- Yeniləşən siyasi sistemdə müxalifətin iştirakı, rolu, funksiyası, fəaliyyəti necə olmalıdır? Müxalifət partiyalarının fəaliyyətində təkmilləşməyə, sizcə, ehtiyac varmı?*

- Əlbəttə var. Hesab edirəm ki, artıq parlamentdə təmsil olunan partiyaların dövlət tərəfindən maliyyələşdirilməsi onların öz fəaliyyətlərini daha da gücləndirmələrinə və təkmilləşdirmələrinə çox böyük töhfədir. Dövlətimiz siyasi partiyaların maliyyələşdirilməsində iştirak edir və bu, partiyaların öz fəaliyyətlərini həyata keçirmələri, ofis və digər təşkilati, texniki məsələlərini yoluna qoya bilmələri üçün vacibdir.

Üstəlik iqtidarla siyasi partiyalar arasındakı dialoq və yeni konstruktiv siyasi-işgüzar əməkdaşlıq tellərinin formalaşması onu şərtləndirir ki, siyasi partiyalar öz fəaliyyətlərini daha da təkmilləşdirsinlər, ölkənin siyasi-ictimai həyatında yaxından iştirak etsinlər.

Dövlətin siyasəti ilə iqtidarın siyasəti bir-birindən ayrı məsələlərdir. Dövlət siyasətinin həyata keçirilməsində, yəni ümummilli məsələlərdə müxalifət partiyaları hakimiyyətlə, hakim partiya ilə eyni mövqe ortaya qoymalıdır. Tutaq ki, ümummilli problemimiz olan Dağlıq Qarabağ məsələsində, yaxud siyasi, sosial-iqtisadi islahatların həyata keçirilməsində. Bu cür proseslərə bütün siyasi partiyalar öz funksiyalarından çıxış edərək dəstək verməlidirlər. Eyni zamanda partiyalar hansısa bir məsələni məqsədyönlü şəkildə şişirdib ölkədə sabitliyi pozmağa yox, əksinə, pozulmasının qarşısının alınmasına səy göstərməlidirlər. Yoxsa məqam düşüb deyə hakimiyyətə gəlmək üçün sabitliyi pozmaq mövqeyi sərgiləməməlidir.

Müxalifətin borcudur ki, ümumən iqtidar partiyasının üzərində bir ictimai nəzarət funksiyasını həyata keçirsin, nöqsanları, problemləri göstərsin, onun həlli yolları ilə bağlı öz proqramını açıqlasın. Bütövlükdə siyasi partiyaların özündə də dəyişikliklərin baş verməsi, gənclərin siyasətə cəlb edilməsi istiqamətində iş getməlidir. Onlar öz fəaliyyətlərində konstruktiv və milli maraqlara uyğun mövqe nümayiş etdirməlidirlər. Bizim yanaşmamız məhz bundan ibarətdir.

*- Özünü sağlam siyasi proseslərdən təcrid edən, marginallaşan radikal müxalif partiyalar barədə mülahizələriniz nədən ibarətdir?*

- 1993-cü ildə mənim də təmsil olunduğum Azərbaycan Xalq Cəbhəsi hakimiyyətdən getdikdən sonra həmin iqtidarın iflasına səbəb olmuş, amma demokratik dəyərləri gözdən salmış insanlar bu gün də siyasətdədirlər. Baltikyanı ölkələrə, Ukraynaya, Gürcüstana, Moldovaya baxsaq, görərik ki, bir vaxtlar xalq hərəkatının önündə olmuş insanların heç biri bu gün siyasətdə deyil. Siyasətə tamamilə yeni nəsil gəlib və əvvəlki siyasətçilər də bildirirlər ki, öz missiyalarını nə bacarıblarsa, yerinə yetiriblər və çəkiliblər kənara. Amma bizdə o dövrdə AXC-nin siyasətini müəyyənləşdirən dövlət katibi, baş nazir, parlamentin sədri olmuş şəxslər siyasətdən çəkilmədilər. Bu, onların birinci yanlışlığıdır.

İkinci yanlışlıq ondan ibarətdir ki, onlar yeniləşə, öz fəaliyyətlərini sağlam müxalifətçilik prinsipləri üzərində qura da bilmədilər. Biri var ki, siyasətdən çəkilmirsən, amma heç olmasa buraxılmış səhvlərdən nəticə çıxarırsan. Sivil mübarizə yolu seçirsən, öz işini müasir dövrün tələbləri çərçivəsində qurursan, dövlətin milli maraqlarını rəhbər tutursan, siyasi fəaliyyətində xalqın mövcud obyektiv sosial inkişaf səviyyəsini nəzərə alırsan. Amma həmin insanlar bunları bacara bilmədilər. Onlar siyasətdə ilişib qalmaqla mühiti də zəhərləyirlər. Bütün bunların başında isə Əli Kərimli, Cəmil Həsənli, onların təmsil olunduqları AXCP, Milli Şura adlandırdıqları qurum durur. Bu insanlar yenidən “demokratik” şüarlar altında hakimiyyətə qayıtmaq istəyirlər və bunun üçün xaricdəki ermənipərəst qüvvələrlə, Azərbaycanda maraqları bəlli olan xarici dövlətlərlə əməkdaşlıqdan çəkinmirlər. Xatırlayırsızsa, Rüstəm İbrahimbəyovun “Ziyalılar ittifaqı” vardı. Sonrakı dövrdə gördük ki, bu insanlar xarici dövlətlərə bağlı siyasi qüvvələrlə bir araya gəlmişdilər.

İndi də sözügedən düşərgə xaricdən tapşırıq əsasında öz fəaliyyətini həyata keçirir. Onlar hakimiyyətin dialoq təşəbbüsünə cavab vermədilər. Sözsüz ki, xarici dairələrin tapşırığı ilə bu prosesə qoşulmadılar. Ona görə ki, Azərbaycan hakimiyyəti ilə münasibətlərin normal məcraya salınmasında maraqlı deyillər. Böyük xarici dövlətlər digər dövlətə təsir göstərmək üçün onun daxilində hansısa qüvvələri ələ alır və onların vasitəsilə təzyiq planlarını həyata keçirmək istəyirlər. Amma hesab edirəm ki, iqtidarla əməkdaşlığın genişlənəcəyi təqdirdə həmin qüvvələr sözün həqiqi mənasında tarixin zibilliyinə atılacaq.

*- Müxalifət partiyasının rəhbəri kimi Milli Məclisdə təmsil olunursunuz. Bu gün müxalifətin parlamentdə iştirakı, ona qanunverici orqanda yaradılan şərait barədə nə deyə bilərsiniz?*

- Hazırda mən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müaviniyəm. Komitənin sədri həm də Milli Məclis Sədrinin birinci müavinidir. Komitədə çox sağlam və işgüzar mühit var. Hər bir deputatın, o cümlədən müxalifət təmsilçilərinin qanunvericilik təşəbbüsünə xüsusi diqqətlə yanaşılır. Komitə əvvəlki dövrlərlə müqayisədə çox aktiv formada fəaliyyətini həyata keçirir.

Onu da qeyd edim ki, əvvəlki dövrdə plenar iclasda ayda bir, maksimum iki dəfə cari məsələlərə vaxt ayrılırdısa, indi hər iclasda deputatlara bu imkan yaradılır. Gündəlikdə az məsələ olduqda, yaxud üçüncü oxunuşda müzakirə edildikdə cari məsələlərə daha çox vaxt ayrılır. Sonuncu iclasda mən buna görə Milli Məclisin Sədrinə öz minnətdarlığımı ifadə edərək bildirdim ki, deputatlara öz seçicilərinin problemlərindən danışmağa imkan yaradılır. Əgər insanlar görsə ki, onları narahat edən məsələlər parlamentdə müzakirə olunur, o zaman xalqla parlament arasında etimad mühiti daha da güclənər, eyni zamanda nümayəndəli orqan kimi dövlət idarəetmə sistemində parlamentin nüfuzu daha da yüksələr. Təbii ki, bundan dövlət də faydalanar, hakimiyyət də.

Açıq demək lazımdır: əgər seçici görürsə ki, seçdiyi deputat onun problemini parlamentdə qaldıra bilmir və problemi radikal müxalif qüvvələr tərəfindən səsləndirilir, həmin seçici istər-istəməz o auditoriyaya üz tutacaq. Həmin seçici onun problemindən danışanlara qulaq asacaq. Bilirsiniz, görülən işləri də qiymətləndirmək lazımdır, insanlar onsuz da bütün müsbət məqamları görürlər. İnsanlar bundan məmnundurlar, onları narahat edən yalnız ortaya çıxan çatışmazlıqlardır, nöqsanlardır. Əgər deputat bu nöqsandan danışmayacaqsa, yalnız görülən işlərdən söz açacaqsa, sözsüz ki, həm deputatın nüfuzu xalq arasında yüksək olmayacaq, həm də seçicilər başqa ünvana üz tutacaqlar. Ona görə mən iclasda təklif etdim ki, əgər mümkündürsə, parlament televiziyası da yaradılsın, iclaslar yayımlansın. Bir çox ölkələrdə bu belədir, o cümlədən bizə yaxın olan Türkiyə və Gürcüstanda. Bu baxımdan insanlar həm də problemlərinin parlamentdə qaldırıldığını görməlidirlər.

Bütövlükdə Azərbaycan parlamentində artıq bu imkan yaradılıb ki, deputatlar iclaslarda öz sözlərini desinlər. Bütün bunlar ölkənin siyasi həyatının müsbət məqamlarıdır və mən də təqdir edərək dərhal özümün müsbət münasibətimi diqqətə çatdırdım.

Son vaxtlar parlamentin Aparatında da islahatlar aparılır, müəyyən ixtisarlar olunur. Düşünürəm ki, bu iş ölkə miqyasında davam etdirilməlidir. Çünki bizdə dövlət aparatı həddindən artıq şişirdilib. İnkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda adambaşına düşən dövlət məmurunun sayı xeyli çoxdur. Məmurların sayını azaltmaq və qənaət olunan vəsaiti digər məmurların əməkhaqqına əlavə etmək lazımdır. İmkan yaratmaq lazımdır ki, dövlət qulluğunda olan bir qisim bacarıqlı insanlar gedib özlərinə biznes qursunlar, özəl sektorda çalışsınlar. Ona görə dövlət idarəetməsində də ixtisarlar aparılmalıdır və bu məsələdə Milli Məclis bir nümunədir. Digər dövlət orqanları da bundan nümunə götürməlidirlər.

Milli Məclisin açılış iclasında Prezident İlham Əliyev söylədi ki, parlament idarəetməsində siyasi partiyaların rolu artırılmalıdır. Mən belə bir təşəbbüslə çıxış etmişəm ki, Milli Məclisin Sədri parlamentdə təmsil olunan partiya sədrləri ilə mütəmadi olaraq görüş keçirsin. Çünki parlamentin işi ilə bağlı Milli Məclis Sədrinin yanında keçirilən görüşdə yalnız müavinlər və komitə sədrləri iştirak edirlər. Kim müraciət edirsə, parlament Sədri onu qəbul edir, bu başqa məsələdir. Parlamentin işinin qurulması ilə əlaqədar olaraq siyasi partiyaların fikrinin öyrənilməsinə də çox böyük ehtiyac var. Bu istiqamətdə qərarın qəbul edilməsi doğru olardı.

*- Ölkədə korrupsiyaya qarşı mübarizə tədbirlərini necə qiymətləndirirsiniz?*

- Əlbəttə, korrupsiyaya qarşı aparılan mübarizəni bütün xalqımız alqışlayır və dəstəkləyir. Bəzi məmurlar sözün həqiqi mənasında onlara göstərilən etimaddan və həvalə olunan vəzifə səlahiyyətlərindən sui-istifadə ediblər. Heydər Əliyev Fondunun aztəminatlı insanlar üçün göndərdiyi yardıma göz dikmək vicdansızlığın son həddidir. Rayon icra hakimiyyəti başçısının bu yardımı mənimsəməsinə isə söz tapmaq olmur. Belə insanlar öz əməlləri ilə artıq qırmızı xətti də keçiblər. Görün nə qədər mənəvi aşınmaya məruz qalıblar ki, aztəminatlı və işsiz vətəndaşın sosial rifahı onları zərrə qədər narahat etməyib. Prezidentin təşəbbüsü ilə yaradılan ictimai iş yerləri üçün ayrılan əməkhaqlarını mənimsəyənlərə qanunun ən sərt üzünü göstərmək lazımdır. Ümid edirəm ki, tutulan şəxslər layiqli cəzalarını alacaqlar və digərləri də bundan nəticə çıxaracaqlar. Bütün bunlardan nəticə çıxarmayanların da ifşası davam etdirilməlidir.

Amma yalnız hüquq mühafizə orqanlarının peşəkarlığı, onların öz vəzifələrini vicdanla yerinə yetirməsi ilə bu problemi həll etmək mümkün deyil. Bu problemi doğuran səbəb və şərait aradan qaldırılmalıdır, məhkəmə hakimiyyətinin gücləndirilməsi istiqamətində qərarlar qəbul olunmalıdır. Biz gördük ki, Biləsuvarda nə qədər insanın torpağı məhz məhkəmənin qəbul etdiyi ədalətsiz qətnamələrlə əllərindən alınıb. Ona görə də məhkəmə sistemində də islahatların aparılmasına böyük ehtiyac var. Paralel olaraq dövlət idarəetməsi də təkmilləşdirilməlidir. Rayonlarda icra başçılarının çox böyük səlahiyyətləri var. Onların üzərində Prezident nəzarətindən başqa heç bir nəzarət yoxdur.

*- Prezident İlham Əliyevin müəllifi olduğu sosial-iqtisadi islahatlar konsepsiyası son dövrlərdə yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Müxalifət partiyasının lideri kimi bu islahatlara münasibətiniz necədir?*

- Bu gün iqtisadiyyatımız hələ ki, əsasən neftə bağlıdır. Azərbaycanda neft sənayesi inkişaf edib. İri neft şirkətləri ilə müqavilələr bağlanılıb. Ölkəyə yatırılan xarici sərmayə daha çox enerji sektorunu əhatə edir. Qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün son illər əsaslı addımlar atılır. Amma düşünürəm ki, bunlar yetərli deyil və iqtisadi islahatlar daha da dərinləşdirilməlidir ki, azərbaycanlılarla yanaşı, xarici investorlar da qeyri-neft sektoruna sərmayə yatıra bilsinlər.

Qeyri-neft sektoruna sərmayənin yatırılması üçün gərək əlverişli vergi siyasəti həyata keçirilsin ki, xarici öz ölkəsindən gəlib burada işini qursun. Həm də həmin sərmayənin toxunulmazlığına məhkəmələr təminat verməlidirlər. Yəni investor əmin olmalıdır ki, səhərisi dövlət orqanları ilə hansısa bir mübahisəsi yaransa, hüquqlarını məhkəmədə qoruya biləcək. Bunları təmin etsək, xarici investorları daha geniş şəkildə Azərbaycana cəlb edə bilərik.

***Müsahibəni yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

## Azərbaycanı inkişaf və yüksəliş yolundan döndərmək mümkün deyil

Bir dövlətin müstəqilliyi həm də onun müstəqil qərarlar qəbul edə bilməsi, sərbəst siyasət həyata keçirməsi deməkdir. Lakin müasir dövrün reallıqları göstərir ki, heç də bütün dövlətlər müstəqil siyasət yürüdə bilmirlər. Ulu Öndər Heydər Əliyevin yaratdığı, İlham Əliyevin daha da gücləndirdiyi Azərbaycanın isə regionda lider, dünyada söz sahibi olması göstərir ki, dövlətimiz tam müstəqil siyasət yürüdür. Bu müstəqilliyi qəbul edə bilməyənlər - antiazərbaycançı dairələr, ermənipərəst siyasi mərkəzlər, onlara xidmət edən daxilimizdəki “beşinci kolon” nə qədər dövlətimizə qarşı çirkin oyunlar oynasalar da, Azərbaycan öz uğurları ilə bu ünsürləri darmadağın edir.

Milli Məclisin deputatları da bu barədə fikirlərini qəzetimizə bölüşdülər.







### Qurtuluşdan tərəqqiyə

**Cavid OSMANOV,** *Milli Məclisin deputatı, YAP Ağdaş Rayon Təşkilatının sədri:*

- Müasir Azərbaycan dinamik inkişaf edən bir ölkədir. Ölkədə baş verən müsbət dəyişikliklər hər bir vətəndaşın gözü qarşısında baş verir. Yetişən gənc nəsil, xüsusilə də 20-25 yaş arası gənclər gözünü açıb Azərbaycanı sabit, əmin-amanlığın hökm sürdüyü bir ölkə kimi görüblər. Lakin orta və yaşlı nəslin nümayəndələri müstəqil Azərbaycanın ağır, keşməkeşli günlərini görüblər və yaxşı xatırlayırlar.

Azərbaycan bu dövrə, bu günə gəlib çıxana kimi qan-qadalı və ağır böhranlardan keçib. Öz övladlarının qanı-canı bahasına 1991-ci ildə müstəqillik əldə edən Azərbaycan, obrazlı desək, yağışdan çıxıb, yağmura düşmüşdü. Təbii ki, səriştəsiz, naşı və savadsız rəhbərlər üzündən. Ölkədə siyasi hakimiyyətə sahiblənmək istəyən qruplar sözün əsl mənasında ölkəni uçuruma aparmaqla məşğul idilər. 1992-93-cü illərdə ölkədə silah gücünə hakimiyyətə gələn AXC-Müsavat cütlüyü yarıtmaz siyasəti və xalq malına hərisliyi səbəbindən onsuz da zəif olan ölkə iqtisadiyyatını tamamilə çökdürmüş, hərc-mərclik yaratmış və respublikamızı gündən-günə dərinləşən həm siyasi, həm də iqtisadi böhranla üzüzə qoymuşdu. Yaranmış vəziyyət Azərbaycana qarşı torpaq iddiasında olan təcavüzkar Ermənistanın əlinə fürsət vermişdi. Ölkənin vəziyyəti çox acınacaqlı idi. Xalqın gündəlik yaşayışı və təhlükəsizliyi gündən-günə daha ağır təhlükə qarşısında qalırdı. AXC-Müsavat cütlüyü isə hakimiyyətini saxlaya bilmək üçün əllərində olan silahları xalqın gözünü almaq məqsədilə istifadə edir, insanları hədə-qorxu altında yaşadırdılar. Xalqın sabaha olan inamı belə sarsılmışdı. Lakin xalqın xilas üçün tək bir ümid yeri vardı. O da Ulu Öndər Heydər Əliyev idi! Məhz həmin çətin günlərdə xalq öz xilaskar oğluna müraciət etdi. Xalqın təkidli tələbilə Bakıya gələn Ulu Öndər Heydər Əliyev öz tarixi missiyasını böyük müdrikliklə yerinə yetirdi.

Heydər Əliyev qətiyyətinin, xarizmasının, siyasi uzaqgörənliyinin qarşısında aradan qaldırılması mümkün olmayan məsələ yox idi. Bu mənada 1993-cü ildən sonra cərəyan edən siyasi-ictimai, iqtisadi proseslər, bütün sahələrdə inkişafa doğru dönüş yaradılması həqiqətən də ölkəmizə milli mənafelərimizi əldə rəhbər tutan xarizmatik və qətiyyətli liderin, əsl siyasətçinin rəhbərlik etməsindən xəbər verirdi. O siyasətçidən ki, üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə baxmayaraq Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsindən qurtardı. Heydər Əliyevin Prezident seçilməsi isə Azərbaycanda tamamilə yeni bir siyasi-ictimai münasibətlər sisteminin bərqərar edilməsinə, nəhayət, ümumxalq maraqlarının gerçəkləşməsinə xidmət edən proseslərin start götürməsinə səbəb oldu, xalqın özünə inamını, sabaha nikbin baxışlarını bərpa etdi, dövlətçiliyimizin əsasını təmin edən ictimai-siyasi sabitliyin əsasını qoydu.

İlk dəfə Prezident seçildikdən sonra andiçmə mərasimində Ulu Öndər Heydər Əliyev belə bir söz söyləmişdi: “Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram”. Həqiqətən zaman bu deyilənləri sübut etmiş oldu. Daha doğrusu, Ulu Öndər Heydər Əliyev öz yorulmaz fəaliyyəti, canı-qanı bahasına, çəkdiyi min bir əziyyətlə bunu sübut etdi.

Azərbaycan beynəlxalq aləmdə yüksək nüfuz sahibinə çevrilmiş bir ölkədir. Ulu Öndərin layiqli davamçısı kimi Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində iqtisadiyyatımızın davamlı inkişafı təmin edilir, ölkənin hər bir bölgəsində infrastruktur layihələri uğurla icra edilir, Azərbaycan bütün dünyada nüfuzlu və söz sahibi olan dövlət kimi qəbul edilir.

Ulu Öndərin əsas amalı xalqa xidmət idi və biz bu amalı onun adına olan fondun iş prinsipində də görə bilirik. Heydər Əliyev Fondu çox hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi ilə çoxlu sayda xeyriyyə aksiyalarına, ölkə, regional və beynəlxalq əhəmiyyətli layihələrə uğurla imza atır. Birinci vitse-prezident Mehriban xanım Əliyeva öz xeyriyyəçiliyi və ictimai-siyasi fəaliyyəti ilə xalqımızın rəğbətini qazanaraq insanlarımızın ümid yerinə çevrilib.

Xalqımız xoşbəxt xalqdır. Ona görə ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursu cənab prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkənin firavan gələcəyi üçün davamlı olaraq mühüm işlər görülür. Lakin Azərbaycan xalqının xoşbəxtliyini, əmin-amanlıq, sabitlik şəraitində yaşamasını istəməyən və siyasi maraqları üçün ölkəmizə, xalqımıza asi kəsilən “müxalifət” qiyafəli radikal düşüncə sahibləri və antimilli ünsürlər 1990-cı illərin əvvəllərindəki kimi, öz çirkin əməllərindən qalmaq istəmirlər. Əslində, bu adamlar anlamaq istəmirlər ki, xalq onlara çoxdan “yox” deyib və nə olur-olsun onlara inanan deyil. Ölkədə bərqərar olan möhkəm əsaslı xalq-iqtidar birliyi də buna bariz sübutdur. Müdrik xalqımız çox gözəl bilir ki, müstəqil Azərbaycanın firavan gələcəyi naminə ölkəmizin Ulu Öndər siyasətinə hər zaman ehtiyacı olacaq.

Biz tariximizi, dünənimizi unutmamalıyıq. Azərbaycanın keçmişdə əldə etdiyi uğurlarının təməlində Heydər Əliyev siyasəti dayanır, bu gün də, sabah da belə olacaq. Bir sözlə, müasir müstəqil Azərbaycan 1993-cü ildən bu vaxta kimi ötən 27 illik bir müddət ərzində çox böyük bir yol keçib. Heç bir tərəddüd olmadan biz bu yolu “Qurtuluşdan tərəqqiyə gedən yol” da adlandıra bilərik!

### Heç bir qüvvə Azərbaycana təzyiq və ya təsir edə bilməz

**Vüqar İSKƏNDƏROV,** *Milli Məclisin deputatı:*

- Ulu Öndər Heydər Əliyevin qurduğu Azərbaycan dövləti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da qüdrətlənir, beynəlxalq münasibətlər sistemində güclü mövqeyi olan dövlət kimi qəbul edilir. Respublikamızın müstəqil siyasət yürütməsi, enerji təhlükəsizliyi, beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması, sivilizasiyalar və mədəniyyətlərarası dialoqun yaradılması kimi qlobal məsələlərdə söz sahibi kimi çıxış etməsi sağlam siyasi mərkəzlərin etiraf etdiyi reallıqlardır.

Azərbaycanın bu uğurlarını qəbul etməyənlər isə Qərbin erməni təəssübünü çəkən siyasi dairələridir. Hansı ki, həmin dairələr daim Azərbaycanda gedən inkişaf və demokratikləşmə proseslərinə, ölkəmizin hər bir uğuruna qara yaxmağa, kölgə salmağa, anlayışını belə verə bilmədikləri “siyasi məhbus” axtarmağa çalışıblar. Son olaraq Avropa Şurasının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində separatçı rejim tərəfindən keçirilən seçki şousuna münasibət bildirməməsi həmin dairələrin iç üzünü bir daha ortaya qoydu.

Dünən Tərtər şəhərində Olimpiya İdman Kompleksinin açılışından sonra idmançılarla görüşən Prezident İlham Əliyev bu məsələyə toxunaraq bir daha bəyan etdi ki, Avropa Şurası tərəfindən Azərbaycan ilə əlaqədar qəbul edilmiş sənədlər bir kağız parçasından artıq deyil. “Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda “beşinci kolon”u, satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Ona görə Avropa Şurası bu saxta seçkilərlə bağlı səsini belə çıxarmadı” deyən Prezident qeyd etdi ki, bu halda hansı obyektivlikdən, hansı ədalətdən söhbət gedə bilər!

Bəli, dövlət başçısının da dediyi kimi Azərbaycan ictimaiyyəti görüb ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meyilləri, azərbaycanafobiya hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində məhz azərbaycanafobiya durur. Avropa Şurasının və onunla eyni mövqedə olan “Freedom House”, “Human Rights Watch”, “Amnistey İnternational” kimi təşkilatlar daim Azərbaycanı ləkələmək üçün fürsət axtarır, ölkəmizdə insan hüquqlarının vəziyyəti ilə bağlı obyektivlikdən uzaq bəyanatlar verir, o cümlədən islamofobiya mövqeyində duraraq qərəzli çıxışlar edirlər. Lakin bir dəfə də olsun qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan artıq azərbaycanlının pozulmuş yaşamaq və mülkiyyət hüquqlarını müdafiə etməyiblər.

Amma Azərbaycan dövlətinin uğurlarını həzm edə bilməyənlər yalnız bunlar deyil. Bu gün özünü müxalifətçi və ya hüquq müdafiəçisi hesab edən bir qrup qaragüruh, xəyanət yolunu seçmiş reneqatlar da öz əməlləri ilə dövlətimizə və xalqımıza qənim kəsiliblər. Prezident İlham Əliyev Tərtərdəki nitqində “beşinci kolon”u və “satqınlar” ifadələrini təsadüfi işlətmədi. Çünki çoxdan tükəndiklərini, xalqın nifrətini qazandıqlarını hələ də dərk edə bilməyənlərin və onların təmsil olunduqları təşkilatların xalqa və dövlətə xəyanət yolunu tutduqları sübuta ehtiyacı olmayan aksiomdur. Məsələn, bu adamlar sifariş aldıqları Qərb dairələrində keçirdikləri görüşlərdə bir dəfə də olsun Azərbaycanın haqq səsini ucaltmır, Qarabağın Ermənistan tərəfindən işğal olunduğunu dilə gətirmir, eyni zamanda Azərbaycandakı real vəziyyəti məqsədyönlü şəkildə təhrif edirlər. Çünki siyasi xülyaları naminə məhz ermənipərəst dairələrlə əməkdaşlıq edirlər və bununla da Azərbaycan dövlətinin və xalqının milli maraqlarına qarşı çıxırlar.

Azərbaycan dövləti müstəqilliyini bərpa etdiyi 29 il ərzində çox ağır sınaqlara məruz qalıb. Lakin dövlətimiz bütün bu sınaqlardan daim alnıaçıq çıxıb. Bu gün isə cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha qüdrətli və daha güclüdür. Heç bir xarici qüvvə və milli satqınlar qrupu bu dövlətə təzyiq və ya təsir edə bilməz.

### Mayası xəyanətdən yoğrulmuş “yuva”

**Müşfiq MƏMMƏDLİ,** *Milli Məclisin deputatı:*

Azərbaycan dünyada böyük etimad qazanan ölkə, etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışının ardından başlanan uğurlu dövlətçilik yolu qısa zamanda - cəmisi 27 ildə ölkəmizin böyük inkişaf yolu keçməsində əsaslı rola malik oldu. 2003-cü ildən Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu daxili və xarici siyasət kursu isə ölkəmizi Cənubi Qafqazın istər iqtisadi, istərsə də siyasi aktoruna çevirməklə yanaşı, ona beynəlxalq münasibətlər sisteminin mühüm oyunçusu adını qazandırdı.

Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında sıx səfərbər olaraq bütün sahələrdə apardığı siyasəti dəstəkləyir. Çünki bu siyasət dövlətimizin qüdrətlənməsinə, inkişafına, müstəqilliyimizin daha da gücləndirilməsinə və xalqımızın rifahına xidmət edir. Başqa bir reallıq ondan ibarətdir ki, dövlətimizin bütün nailiyyətləri erməni təəssübünü çəkən xarici dairələrin, antiazərbaycançı siyasi dairələrin qısqanclığı ilə qarşılanır və mütəmadi olaraq onlar tərəfindən ölkəmizə qarşı çirkin oyunlar aparılır.

Ən təəssüfləndirici hal odur ki, bəzi “sapı özümüzdən olan baltalar”, adını radikal müxalifət qoymuş, xarici antimilli güclərin “beşinci kolonu” qismində çıxış edən dar düşüncəli, qara təfəkkürlü ünsürlər də ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasında iştirak edir, dövlətimizin və xalqımızın milli maraqlarına qarşı çıxırlar. Kimdir bunlar? Adını “Milli şura” qoymuş qisasçı ab-havada yaşayan, cılız mənfəətlər uğrunda xalqının mili maraqlarını tapdalayan, “siyasi təşkilatları” kiçik dərnəkdən seçilməyən, bütün “siyasi fəaliyyətini” yalnız maddi gəlir əldə etməyə fokuslayan bu azlıq Azərbaycanı satmaq üçün daim “axtarışdadır”.

Əslində, bir az keçmişə getsək və bəzi faktlara müraciət etsək, Dağlıq Qarabağın və ətrafındakı rayonların həmin marginal qrupların günahı ucbatından işğal olunduğunu görərik. Bu, elə də uzaq bir tarix deyil. 1992-ci ildə Dağlıq Qarabağın alınmaz qalası Şuşanın, xəyanətin qurbanına çevrilmiş Laçının işğalının altında məhz o dövrün AXC-nin hakimiyyətə gəlmək oyunlarının dayandığını açıq şəkildə görə bilərik. Bundan başqa, məhz onların apardığı səriştəsiz siyasət nəticəsində 1992-1993-cü illərdə ölkəmizdə separatizm meyilləri baş qaldırdı, “səhra komandiri” təyin edilən şəxslər əllərindəki silahlı birləşmələr vasitəsilə özbaşınalıqlar etdilər, rayonlarda müxtəlif cinayətlər törətdilər.

2013-cü ildə elə xarici güclərin diktəsi ilə yaradılmış “Milli şura”nın sədri Cəmil Həsənli həmin dövrdə güya “Qarabağ konsepsiyası” hazırlayacağından dəm vururdu. Amma nəticə nədir? Ortada hər hansı bir konsepsiya, filan yoxdur. Hətta bu konsepsiyanın olmaması insanı daha çox sevindirir. O baxımdan ki, mayası xəyanətdən yoğrulmuş bir quruma başçılıq edən, xarici ölkələrə səfərlərində - konkret olaraq ABŞ-a səfərlərində ölkəmizə qarşı ən böyük haqsızlıqlardan sayılan “Azadlığa Dəstək Aktı”na 907 saylı düzəlişin müəlliflərindən biri olan Kristofer Smitlə görüşlər keçirən Cəmil Həsənlinin bu münaqişəyə münasibətdə tutduğu mövqe hər kəsə bəllidir - yəqin ki, bu mövqe onun “dostları” olan ermənipərəstlərin mövqeləri ilə uzlaşır. 2016-cı ildə ermənilər cəbhənin təmas xəttində Azərbaycana qarşı hücumlar təşkil etdiyi bir dövrdə AXCP sədri Əli Kərimlinin oğlu “beynəlxalq tədbirlərdə” Dağlıq Qarabağdakı separatçı rejimin başçısı olan Bako Saakyanın oğlu Armen Saakyanla birlikdə anti-Azərbaycan fəaliyyəti ilə məşğul olurdu. Demək ki, ermənipərəst fəaliyyət bunlar üçün şüurlu bir seçimə çevrilib.

Pandemiya ilə əlaqədar karantin günlərində də “beşinci kolon” nümayəndələri ictimai rəyi manipulyasiyaya məruz qoymaq üçün təxribat və dezinformasiya xarakterli məlumatlar yaymağa cəhd etməklə öz xain simalarını bir daha nümayiş etdirdilər. Amma onların bu xain arzuları da puç oldu. Xalq-dövlət birliyi çətinliklərin öhdəsindən uğurla gəldi. “Milli şura”, AXCP və onların xarici uzantılarının bu xəbis istəkləri isə elə özləri kimi iflasa uğradı. Radikal dağıdıcılıq təfəkküründən qurtula bilməyən bu xain dəstənin iç üzü son günlərdə bir daha Azərbaycan cəmiyyətinə özləri tərəfindən “təqdim edildi”. “Milli şura” adlı xainlər qruplaşmasının koordinasiya mərkəzinin son toplantısında baş verənlər bu qurumda təmsil olunanların “siyasi intiharı”na çevrildi.

Azərbaycan dövlətini öz inkişaf və yüksəliş yolundan döndərmək mümkün deyil. Prezident İlham Əliyevin uğurlu siyasəti ölkəmizi istəməyən bütün dairələrin planlarını bundan sonra da darmadağın edəcək.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

## 5 İyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günüdür

5 iyun tarixi ölkə melioratorları üçün olduqca əlamətdar bir gündür. Hər il onlar bu tarixdə böyük fərəh və sevinc hissi ilə öz peşə bayramlarını qeyd edirlər.
Qədim suvarma əkinçiliyi ölkəsi olan respublikamızda kənd təsərrüfatının yüksəlişində, məhsul bolluğunun yaradılmasında, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatının həllində mühüm rol oynayan meliorasiya və su təsərrüfatının inkişafı, bu sahədə aparılan islahatlar, böyük quruculuq işləri, geniş meliorasiya potensialının yaradılması və perspektiv proqramların qəbul edilməsi dünya siyasətinin tanınmış lideri, müdrik və uzaqgörən siyasətçi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin yorulmaz fəaliyyəti, gərgin zəhməti və uzaqgörən siyasəti ilə bağlıdır.



# Torpağa bərəkət verən su

Ölkənin əsas kənd təsərrüfatı bazası sayılan Kür- Araz düzənliyinin ərazisi quraq və arid zonada yerləşdiyinə görə burada suvarma aparılmadan, meliorasiya və su təsərrüfatını inkişaf etdirmədən kənd təsərrüfatı məhsullarının yetişdirilməsi mümkün deyildir. Bunu böyük uzaqgörənliklə qeyd edən və "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış müdrik bir şəxsiyyət, dünya şöhrətli siyasətçi Ulu Öndərimiz Heydər Əliyev meliorasiya və su təsərrüfatı sahəsini daim diqqət mərkəzində saxlamış, onun inkişafına xüsusi əhəmiyyət vermişdir.

Azərbaycanda meliorasiya və irriqasiya işləri keçən əsrin əvvəllərində təşəkkül tapsa da, onun genişmiqyaslı, intensiv inkişafına Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-cu ildən başlanılmışdır. Bu vaxtdan etibarən ölkənin kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə, iqtisadiyyatın bütün sahələrində xüsusi bir yüksəliş dövrü başlandı. Ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında bir neçə tarixi qərar qəbul edildi. Bu qərarlarda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsini təmin etmək məqsədi ilə kompleks meliorasiya proqramları hazırlandı və meliorasiya olunmuş torpaqlarda kənd təsərrüfatı istehsalının sabit şəkildə artırılması üçün mühüm tədbirlər işlənib həyata keçirildi.

Ulu Öndərimiz keçmiş İttifaq rəhbərliyində olduğu illərdə də respublika iqtisadiyyatının, o cümlədən meliorasiya və su təsərrüfatının inkişafını daim diqqət mərkəzində saxlamışdır. Lakin böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, o, keçmiş İttifaq rəhbərliyindən getdikdən sonra kənd təsərrüfatının, xüsusilə də meliorasiya və su təsərrüfatının inkişafı demək olar ki, tamamilə dayandı. Keçmiş respublika rəhbərliyinin səriştəsizliyi və bu sahəyə laqeyd münasibəti nəticəsində meliorasiya və su təsərrüfatı üzrə aparılan işlərin həcmi kəskin surətdə azaldı, kapital qoyuluşu heçə endirildi, sistemlərin istismarına ayrılan büdcə vəsaitinin həcmi xeyli aşağı düşdü. Nəticədə mühüm dövlət əhəmiyyətli obyektlərin saxlanılması, istismarı, təmir-bərpası son dərəcə çətinləşdi.

Belə bir şəraitdə, 1993-cü ildə Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə gəlişi meliorasiya və su təsərrüfatı sahəsini məhv olmaqdan xilas etdi, sahə öz inkişafının yeni mərhələsinə qədəm qoydu, ona dövlətin diqqət və qayğısı bərpa olundu, mövcud meliorasiya potensialından daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Ölkənin bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar aqrar sahə ilə paralel olaraq, meliorasiya və su təsərrüfatında da islahatların həyata keçirilməsinə başlanıldı, onların normativ-hüquqi bazası yaradıldı. Bu məqsədlə 40-dan artıq normativ-hüquqi sənəd hazırlandı ki, bunlardan da ən mühümü 1996-cı ildə imzalanmış "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanunudur. Qanun meliorasiya və irriqasiya sahəsində dövlət idarəçiliyinin əsaslarını, meliorasiya və irriqasiya tədbirlərinin aparılması qaydalarını müəyyən etdi.

Ulu Öndərin göstərişlərini əsas tutaraq respublikaya qoyulan xarici investisiyalar, ilk növbədə, meliorasiya və su təsərrüfatı sahəsinə yönəldildi. Xarici investisiyaların səmərəliliyini təmin etmək məqsədilə tikintisi yarımçıq qalmış 150 obyektdən respublika üçün mühüm əhəmiyyət kəsb edən 11 obyekt seçildi və onlardan iqtisadiyyatımız üçün ən vacib olan üç obyektin - Baş Mil-Muğan kollektorunun tikintisinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının və Naxçıvan Muxtar Respublikasında Vayxır su anbarının tikintisinin birinci növbədə maliyyələşdirilməsi qərara alındı.

Ümummilli Lider Heydər Əliyevə İslam dünyasının böyük hörmətinin və ehtiramının rəmzi olaraq İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan kollektorunun tikintisinin davam etdirilməsinə güzəştli kredit və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması sxeminin hazırlanmasına əvəzsiz olaraq vəsait ayırdı.

İslam İnkişaf Bankının krediti və respublika büdcəsindən ayrılan vəsait hesabına 1998-ci ildə kollektorun tikintisinin davam etdirilməsinə başlanıldı və 2000-ci ilin noyabr ayında kollektorun 52,7 kilometr uzunluğunda 2-ci buraxılış kompleksinin tikintisi yüksək keyfiyyətlə başa çatdırılaraq istismara verildi.

Heydər Əliyevin yaxından köməyi sayəsində Dünya Bankının krediti ilə 2003-cü ildə Baş Mil-Muğan kollektorunun 28,5 kilometr uzunluğunda 3-cü buraxılış kompleksinin tikintisinə başlanılmışdır.

Samur-Abşeron suvarma sistemi ölkəmizin şimal bölgəsinin, eləcə də Bakı-Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının yaşayış məntəqələrini, kənd təsərrüfatı və sənaye müəssisələrini içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı kompleks su təsərrüfatı obyektidir.

Uzun müddət ərzində suya daim artan ehtiyacı ödəmək məqsədilə Samur-Abşeron magistral kanalı əsaslı təmirə dayanmadan fasiləsiz olaraq istismar olunurdu. Bunun nəticəsində kanalın beton örtüyü dağılıb hissə-hissə sıradan çıxmış, qurğuların bir hissəsi funksiyasını itirmiş, su itkisi artmışdır.

Ulu Öndərin tapşırığına əsasən bu problemin həlli yolları araşdırılmış və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması ilə bağlı təxirəsalınmaz tədbirlərin işlənib həyata keçirilməsi təklif olunmuşdur.

İslam İnkişaf Bankının texniki yardımı ilə beynəlxalq məsləhətçi şirkət tərəfindən hazırlanmış sxemin birinci mərhələsində Samur çayı üzərində baş sugötürücü qurğunun və Samur-Abşeron kanalının Vəlvələçay çayına qədər olan hissəsinin yenidən qurulması, Xanarx kanalının, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının və Taxtakörpü su anbarının tikintisi nəzərdə tutulurdu.

Vayxır su anbarının inşasına 1983-cü ildə başlanılmış, lakin maliyyə vəsaitinin olmamasına görə tikinti işləri yarımçıq dayandırılmışdır.

Ulu Öndərimiz Heydər Əliyev 2002-ci ildə Naxçıvan Muxtar Respublikasında olarkən onun su anbarının istismara verilməsi barədə göstərişindən sonra dövlət büdcəsindən ayrılmış vəsait hesabına Türkiyənin tikinti şirkətləri tərəfindən bu obyektin tikintisi başa çatdırılmışdır.

Ümumiyyətlə, bu illərdə 200 min hektara yaxın yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 400 min hektara yaxın suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 825 min hektar sahədə suvarma sistemləri yenidən qurularaq onların su təminatı artırılmış, 460 min hektar sahədə əsaslı hamarlama və 150 min hektar sahədə əsaslı yuma işləri aparılmış, texniki cəhətdən mükəmməl irriqasiya və meliorasiya sistemləri yaradılmışdır.

Xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi, sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsi, onun qətiyyətli addımları, səriştəli idarəçiliyi nəticəsində ölkənin dayanıqlı inkişafına nail olunmuş, idarəetmə mexanizmi mütəmadi olaraq təkmilləşdirilmiş, ölkədə təhlükəsizliyin, sabitliyin gücləndirilməsi ilə bağlı vaxtında görülən tədbirlər müstəqilliyimizin daha da möhkəmləndirilməsini, dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini təmin etmişdir.

Möhtərəm Prezidentimizin rəhbərliyi altında qəbul edilmiş Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının və Strateji yol xəritələrinin dəqiq mexanizmlərlə icrası inkişafın dinamizmini artırır və əhatəsini daha da genişləndirir. Sürətli, yüksək templi bu irəliləyiş dövlətin yürütdüyü daxili və xarici siyasətin düzgünlüyünün düşünülmüş olması və müasir tələblərə cavab verə bilməsi sayəsində mümkün olmuşdur. Təbii ki, qazanılan nailiyyətlərdə ölkə rəhbərinin güclü, prinsipial siyasi iradəsinin, vaxtında düzgün qərarlar qəbul etməsinin, xalqımızın da möhtərəm Prezidentimizin strateji kursunu dəstəkləməsində ona olan inamının böyük rolu olmuşdur.

Ölkəmizdə köklü iqtisadi islahatlar, bölgələrdə infrastruktur layihələri icra edilmişdir. İnfrastruktur layihələri həm ölkəmizin ümumi inkişafına böyük təkan vermiş, həm də bizim nəhəng transmilli infrastruktur layihələrimiz Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişmişdir. Bütün sahələrdə böyük uğurlara imza atılmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artmış, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə təhlükəsizlik, sabitlik təmin edilir.

Hazırda meliorasiya və su təsərrüfatı sistemi də ölkə iqtisadiyyatının mühüm və ayrılmaz bir parçası olaraq qazanılmış nailiyyətlərdə öz payı olan sahəyə, eyni zamanda başlanılmış genişmiqyaslı islahatların ünvanına çevrilmişdir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işlərinin davam etdirilməsi və digər sahələrdə müvafiq tədbirlər həyata keçirilmişdir.

Belə ki, bütün maliyyə mənbələri hesabına 2004-2019-cu illərdə 4,4 min kilometr uzunluğunda suvarma kanallarının, 3,0 min km uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidənqurulması və bərpası, 443 min hektar sahədə torpaqların su təminatının və 286 min hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 194 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Mövcud torpaq mühafizə bəndlərinin 800 km-dən artıq hissəsi əsaslı surətdə hündürləndirilmiş və möhkəmləndirilmiş, çaylarda sel və daşqınlara qarşı 190 km muhafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 2618 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Ümumi sututumu 456 milyon kubmetr olan 4 su anbarı (Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə) tikilmiş, eləcə də ümumi sututumu 15,5 milyon kubmetr olan 3 su anbarı isə (Pirsaatçay, Zoğalavaçay, Ləvain) təmir-bərpa edilmişdir.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Xanarx kanalının tikintisi 2006-cı ildə, Samur çayı üzərində yerləşən baş suqəbuledici qurğunun bərpası, Samur çayı yaxınlığında baş sudurulducunun tikintisi, Samur-Abşeron kanalının ilk 50 km-lik hissəsinin və bu hissədə yerləşən uzunluğu 185,7 km olan təsərrüfatlararası kanalların yenidənqurulması işləri 2007-ci ildə başa çatdırılmışdır. Respublikanın 500 min hektar suvarılan sahələrindən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan kollektorunun 3-cü hissəsinin tikintisi 2006-cı ildə başa çatdırılaraq Mil-Qarabağ kollektoru ilə birləşdirilmişdir.

Samur-Abşeron kanalının 50-ci km-dən suyun Taxtakörpü su anbarına verilməsi məqsədi ilə 2008-ci ildə tikintisinə başlanılmış uzunluğu 32 km olan Vəlvələçay-Taxtakörpü kanalının, ümumi sututumu 268,4 milyon kubmetr olan Taxtakörpü su anbarının (ümumi gücü 25 MVt olan Su Elektrik Stansiyası ilə birlikdə) və uzunluğu 108 km-ə yaxın olan Taxtakörpü-Ceyranbatan kanalının tikintisi işləri 2013-cü ildə başa çatdırılmışdır.

15 noyabr 2014-cü ildə möhtərəm Prezident İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilmiş Şəmkirçay su anbarı zonasında 2015-ci ildə əkin sahələrini suvarma suyu ilə təmin edəcək 60,5 km uzunluğunda magistral kanalların tikintisi işləri başa çatdırılmışdır.

Keçmiş Sovetlər Birliyi dövründən tikintisi yarımçıq qalmış Tovuz və Şəmkir rayonlarının 20000 hektara yaxın əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə imkan yaradan və ümumi sututumu 20 milyon kbm olan Tovuzçay su anbarının inşası 2016-cı ildə başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin ölkədə taxılçılığın, pambıqçılığın, tütünçülüyün, baramaçılığın və digər sahələrin inkişafı, eləcə də aqroparkların və iri təsərrüfatların yaradılması ilə əlaqədar verdiyi tapşırıqların icrası olaraq Səhmdar cəmiyyəti meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sahələrin genişləndirilməsi, sel və daşqın sularına qarşı mübarizə və digər istiqamətlərdə əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də öz uğurlu fəaliyyətini davam etdirmişdir.

Dünya Bankının krediti və Azərbaycan tərəfinin payı hesabına həyata keçirilən "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə" çərçivəsində respublikanın 2 rayonunda (Şabran və Siyəzən) içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilmişdir. Layihə çərçivəsində Şabran rayonunda təmizləmə gücü gündə 10000 kbm və Siyəzən rayonunda təmizləmə gücü gündə 8700 kbm olan çirkab su təmizləmə qurğularında bütün mexaniki və elektromexaniki avadanlıqlar quraşdırılmış və hər iki qurğuda tikinti işləri tamamlanmışdır. Layihə üzrə tikinti işləri tam başa çatdırılmış və hazırda obyektlərin "Azərsu" ASC-yə təhvil verilməsi üçün sənədləşdirmə işləri yekunlaşmaq üzrədir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə dövlət büdcəsindən dövlət əsaslı vəsait qoyuluşu üçün ayrılmış vəsaitlər hesabına "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan "Şabran, Siyəzən və Xızı rayonları ərazisində mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi" layihəsi üzrə Şabran rayonu ərazisində "Şabran Aqropark" MMC-yə məxsus 1738 ha yeni suvarılan torpaq sahəsinə əlavə su verilməsi üçün 9,060 km (diametri 900-700 mm) uzunluğunda boru kəmərinin çəkilməsi üzrə işlər yerinə yetirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2019-cu il tarixli 952 nömrəli Sərəncamı ilə respublikanın 41 şəhər və rayonunun 254 yaşayış məntəqəsində 8362 ha (ondan 871 ha yeni suvarılan torpaqlardır) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 ədəd subartezian quyularının qazılması üçün layihə-smeta sənədləri hazırlanmış və qazma işləri tamamlanmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafq sərəncamı ilə Ağdam rayonunda 20 yaşayış məntəqəsinin 1050 ha torpaq sahəsinin suvarılması üçün 35 subartezian quyusunun 14-də qazma işləri 2018-ci ildə, 21 quyuda isə 2019-cu ildə başa çatdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2019-cu il tarixli 1367 nömrəli Sərəncamı ilə Ağcabədi rayonunda 12, Goranboy rayonunda 55 ədəd qazılması nəzərdə tutulmuş quyuların layihə sənədləri hazırlanmış, bu rayonların hər birində 12 subartezian quyusunun qazılması başa çatdırılmışdır.

Sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri üzrə respublikanın Qəbələ, Oğuz, Ağsu, Zaqatala, Balakən, Astara, Lənkəran, Gədəbəy, Qax rayonlarının ərazisindən keçən ən təhlükəli çaylarda 1798,8 pm uzunluğunda sahilbərkitmə işləri yerinə yetirilmişdir. Eləcə də Ağdaş rayonu ərazisində Yuxarı Şirvan kanalının Türyançay çayı ilə kəsişməsindəki dükerin yumaya qarşı mühafizəsi üçün barraj-fiksatorun, Göyçay rayonu ərazisində Göyçay çayında baş suqəbuledici qurğunun təmir-bərpası, Göyçay çayının 2122 pm məcrasının nizamlanması və 330 pm mühafizə bəndinin tikintisi üzrə işlər tamamlanmışdır.

2019-cu ilin mürəkkəb təbii-iqlim şəraitinə baxmayaraq, öz daxili imkanlarını səfərbər edərək ASC üzərinə düşən vəzifələri yerinə yetirmiş, suvarılan torpaqlarda şorlaşmanın, qrunt sularının səviyyəsinin və minerallaşma dərəcəsinin dəyişməsi üzərində nəzarət işləri aparmış, suvarılan torpaqların meliorativ vəziyyətini qiymətləndirmiş, meliorativ tədbirlər tələb edən torpaqlar müəyyənləşdirmiş, onların yaxşılaşdırılması üzrə tədbirlər hazırlamış və ayrılan vəsait daxilində balansında olan irriqasiya və meliorasiya sistemlərinin, hidrotexniki qurğuların istismarını təmin etmiş, müvafiq təmir-bərpa işlərini həyata keçirmişdir.

Kür, Araz və onlara qovuşan dağ çayları boyunca salınmış torpaq mühafizə bəndlərinin 159,2 km-lik hissəsində möhkəmləndirmə işləri görülmüş və 33231,0 kbm həcmində daş və beton məmulatları ilə sahilbərkitmə işləri yerinə yetirilmişdir.

Suvarma sistemlərində və kollektor-drenaj şəbəkələrində 70,0 mln.kbm həcmində lildən təmizləmə işləri aparılmış, 17500 km suvarma, 3350 km kollektor-drenaj sistemləri təmizlənmiş, 41,1 km suvarma və 30,6 km kollektor-drenaj şəbəkələri, 5847 hidrotexniki qurğu, 5676 subartezian quyusu, 315 nasos stansiyası təmir edilmişdir.

Çay məcralarında 19,9 mln.kbm həcmində məcratəmizləmə işləri aparılmış, 7,4 min kbm şax-daş və faşın, 3,3 min kbm qabion bəndlər quraşdırılmış və daş-beton bəndlərdə 32,7 min kbm həcmində təmir işləri yerinə yetirilmişdir.

Əkin sahələrinin su təminatının və meliorativ vəziyyətinin daha da yaxşılaşdırılması məqsədi ilə ASC tərəfindən respublika üzrə sudan istifadə planı, magistral kanallar üzrə su limitləri, respublikanın çayları üzrə suvarma dövründə rayonlararası su bölgüsü cədvəlləri hazırlanaraq təsdiq edilmişdir. Bütün istismar təşkilatlarında gecə-gündüz növbətçilik yaradılmış, vegetasiya suvarmalarının mütəşəkkil həyata keçirilməsi, sudan səmərəli və qənaətlə istifadənin təmin edilməsi və su limitlərinə nəzarətin gücləndirilməsi məqsədi ilə ASC-nin mütəxəssisləri ayrı-ayrı obyektlərə təhkim edilmiş, çayların gursululuq dövründə su anbarlarının doldurulması və yarana biləcək sel və daşqın sularının maneəsiz axıdılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Vegetasiya suvarması dövrünün əvvəlinə əsas su anbarlarında 14,5 mlrd. kbm həcmində su toplanmışdır. Cari ildə 1415 min hektar sahədə kənd təsərrüfatı bitkilərinin suvarılması nəzərdə tutulmuşdur. 25 may 2020-ci il tarixə taxıl bitkiləri 522 min hektar sahədə 1,9 dəfə suvarılmış, 69 min hektar sahədə pambıq bitkisinin arat suvarılması aparılmışdır. Hazırda kənd təsərrüfatı bitkilərinin suvarılması davam etdirilir.

2020-ci ildə Səhmdar cəmiyyəti meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi, yenidənqurulması işlərinin davam etdirilməsi üzrə təkliflərini aidiyyəti qurumlara təqdim etmişdir.

Respublikanın 39 şəhər və rayonunun 338 yaşayış məntəqəsində 10712 hektar əkin sahəsinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların suvarma suyuna, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün cari ildə qazılması nəzərdə tutulmuş 443 subartezian quyusunun layihə-smeta sənədləri hazırlanmış və 45 subartezian quyusunda qazma işləri başa çatdırılmışdır.

Şəmkir su anbarı zonasında tikintisi başa çatmış Şəmkir-Samux-Goranboy magistral kanalının 2-ci növbəsinin zonasında 4000 hektar və su anbarından su götürən magistral kanallardan 2000 hektar sahəyə suvarma suyunun səmərəli paylanılması və su itkilərinin qarşısının alınması məqsədilə beton üzlüklü və boru kəməri ilə paylayıcı kanalların tikintisi davam etdiriləcəkdir.

Sabirabad rayonunda qış otlaq sahələrində meliorativ tədbirlər və Araz çayının Yeni qol kanalı zonasında kollektor-drenaj şəbəkəsinin və paylayıcı kanalların tikintisi işlərini davam etdirməklə Sabirabad və Biləsuvar rayonlarının 10950 hektar torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılacaq, Saatlı və İmişli rayonlarının torpaq sahələrinə Araz çayının Yeni qolundan suyun verilməsi üçün 21 min hektar sahədə paylayıcı kanallar və 10 min hektara yaxın sahədə suyığıcı kollektorların tikintisinin başa çatdırılması nəzərdə tutulur.

Uzunluğu 73 km olan Abşeron magistral kanalının suburaxma qabiliyyətinin artırılması məqsədilə onun qalan son 11 km-lik hissəsinin yenidən qurulması ilə bu ərazilərdə zeytun, badam və digər kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün yeni yaradılmış istixanaların, aqroparklara və iri təsərrüfatlara məxsus torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsinə və mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına imkan yaranacaqdır.

Taxtakörpü su anbarı zonasında Şabran rayonunun suvarılan torpaq sahələrinin əsas su mənbəyi olan Vəlvələçay-Taxtakörpü kanalından sugötürücü qurğunun tikintisi və sudurulducu tutarın yaradılması, həmçinin suyun suvarma sahələrinə çatdırılması üçün iki magistral boru xəttinin tikintisi işləri davam etdiriləcəkdir.

Ölkənin kənd təsərrüfatının inkişafında xüsusi rol oynayan aqroparklara məxsus torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi işləri davam etdiriləcəkdir. Belə ki, 2019-cu ildə tikinti işlərinə başlanılmış "Azərşəkər" MMC-yə məxsus Yevlax və Goranboy rayonlarında 2960 hektar və Ağcabədi rayonunda 2500 hektar torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi işləri başa çatdırılacaqdır.

Ağsu, Biləsuvar, Qazax, Ağstafa rayonlarında 4000 hektara yaxın torpaq sahəsinin su təminatının yaxşılaşdırılması üçün suvarma kanallarının tikintisi işləri aparılacaqdır. Masallı rayonunda 24 və Şamaxı rayonunda 7 sututarda zəruri təmir işlərini başa çatdırmaqla 4500 hektar əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə suvarma suyundan səmərəli istifadə edilməsi və su itkilərinin qarşısının alınması məqsədilə mövcud torpaq məcralı kanalların modernləşdirilməsi məqsədilə onların yenidən qurulmasının layihə sənədlərini hazırlanması və tikinti işlərinin yerinə yetirilməsi nəzərdə tutulur.

Möhtərəm Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə respublikamızda pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün, üzümçülüyün, sitrus meyvələrinin və digər kənd təsərrüfatı məhsulları istehsalının inkişaf etdirilməsi ilə əlaqədar təsdiq edilmiş Dövlət proqramları və Tədbirlər planlarında, Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində meliorasiya və su təsərrüfatı sahəsi üzrə geniş tədbirlər nəzərdə tutulmuşdur.

Bu tədbirlərin həyata keçirilməsi ilə suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılmasına, yeni suvarılan torpaqların istifadəyə verilməsi nəticəsində ölkə əhalisinin daxili istehsal hesabına çörək və ərzaq məhsulları ilə etibarlı təminatına, yaşayış məntəqələrinin, əkin sahələrinin, hidrotexniki qurğuların və digər infrastruktur obyektlərin sel və daşqın sularının zərərli təsirlərindən mühafizəsinə, çayların su ehtiyatlarının nizamlanması hesabına onlardan daha səmərəli istifadə edilməsinə geniş imkanlar yaranacaqdır.

***Əhməd ƏHMƏDZADƏ,***
***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri***

# Pandemiya fonunda Azərbaycan iqtisadiyyatı

## Dörd ayın makroiqtisadi göstəriciləri bədbin proqnozları alt-üst edir

*Əvvəli 1-ci səh.*

Buna baxmayaraq, hətta bu cür mürəkkəb vəziyyətdə belə, istənilən dövlətin vəzifəsi əhalini virusdan qorumaqla yanaşı, qarnını da doydurmaqdır. Və bu 4-5 aylıq müşahidələr göstərir ki, dünyada bunu bacaran dövlətlər var və onlardan biri Azərbaycandır.

Dövlət Statistika Komitəsinin (DSK) cari ilin yanvar-aprel ayları üzrə ölkənin sosial-iqtisadi inkişafını əks etdirən hesabatında bildirilir ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə insanların həyat və fəaliyyəti üçün zəruri olan sahələrdən başqa digərlərində məhdudiyyətlərin tətbiqinə rəğmən, ilin əvvəlindən ötən 4 ay ərzində Azərbaycanda 22,4 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən 0,2 faiz çoxdur. Hesabat dövründə əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri neft-qaz sektorunda 1,5 faiz artmış, neft-qaz sektorunda 0,8 faiz azalmışdır.

Yanvar-aprel aylarında ÜDM-in 39,3 faizi sənaye, 10,7 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,6 faizi tikinti, 3,9 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 1,9 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2 faizi informasiya və rabitə, 18,9 faizi digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 10,3 faizini təşkil etmiş, əhalinin hər nəfərinə 2249,7 manat əlavə dəyər düşmüşdür.

Dörd ay ərzində ölkə üzrə 13 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir ki, bu da 2019-ci ilin müvafiq dövrünə nisbətən 3 faiz çoxdur. Ümumilikdə bu dövrdə sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 16,8 faiz artmışdır.

Sənaye məhsullarının 63,1 faizi mədənçıxarma, 30,5 faizi emal, 5,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə neft hasilatı 0,2 faiz azalmış, əmtəəlik qaz hasilatı 17,1 faiz artmışdır.

Emal sektorunda isə ağacın emalı və ağacdan məmulatların istehsalı 48,6, hazır metal məmulatlarının istehsalı 4,4, tütün məmulatlarının istehsalı 18,9, içki istehsalı 8,3, rezin və plastik kütlə məmulatları istehsalı 20, kimya sənayesi məhsulları istehsalı 24,9, qida məhsulları istehsalı 8,1, əczaçılıq məhsulları istehsalı 60,7, geyim istehsalı 3,6, neft məhsulları istehsalı 5,1, elektrik avadanlıqlarının istehsalı 20,6, kağız və karton istehsalı 19,3, toxuculuq sənayesi məhsulları istehsalı 1,2, digər nəqliyyat vasitələrinin istehsalı 35,1 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 4,7, metallurgiya sənayesi məhsulları istehsalı 2,3, kompüter, elektron və optik məhsulların istehsalı 2,6 dəfə artmışdır. Artım, həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınmışdır - müvafiq olaraq 14 və 2,5 faiz. Azalma isə az sahələrdə (mebel, poliqrafiya məhsulları, tikinti materialları, maşın və avadanlıqlar, dəri və dəri məmulatlar, ayaqqabı istehsalında) müşahidə olunmuşdur.

DSK-nın hesabatına əsasən, yanvar-aprel ayları ərzində əsas kapitala 3 milyard 903,5 milyon manat vəsait yönəldilmişdir. İstifadə olunmuş ümumi vəsaitin 67,2 faizi məhsul istehsalı və 22,4 faizi xidmət obyektlərinin, 10,4 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 59,9 faizi daxili sərmayələr olan bu vəsaitlərin 61,1 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir.

Hesabat dövründə ölkə üzrə neft-qaz sektoruna 1 milyard 806,7 milyon manat vəsait yönəldilmişdir. Qeyri neft-qaz sektorunun inkişafına yönəldilmiş 2 milyard 96,8 milyon manat vəsaitin 289,7 milyon manatından (ümumi sərmayənin 7,4 faizindən) isə qeyri neft-qaz sənayesi sektorunda istifadə olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, bu dövrdə əsas kapitala 1 milyard 565,2 milyon manat xarici kapital da yönəldilmişdir. Həmin vəsaitin 87,6 faizi Birləşmiş Krallıq, ABŞ, Yaponiya, Türkiyə, Norveç, İsveçrə, Malayziya, Rusiya və İran investorlarına məxsus olmuşdur.

Dövlət Statistika Komitəsi cari ilin yanvar-mart ayları üzrə ölkədə muzdla işləyənlərin orta aylıq əməkhaqqı barədə də məlumat açıqlamışdır. Bildirilir ki, Azərbaycanda bu dövrdə orta aylıq nominal əməkhaqqı ötən ilin eyni dövrünə nisbətən 28,9 faiz artaraq 744,5 manata çatmışdır. Əhalinin ümumi gəlirlərinə gəldikdə, həmin məbləğ cari ilin yanvar-aprel aylarında 17,1 milyard manat olmuşdur ki, bu da nominal ifadədə 2019-cu ilin eyni ayına nisbətən 1,3 faiz çoxdur.

DSK-nın digər bir məlumatı ölkə üzrə pərakəndə ticarət dövriyyəsi haqqındadır. Hesabata əsasən, 4 ay ərzində pərakəndə ticarət şəbəkəsindən əhaliyə 11 milyard 516,1 milyon, o cümlədən 6 milyard 169,6 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 5 milyard 346,4 milyon manatlıq qeyri-ərzaq məhsulları satılmışdır. Məlumatda bildirilir ki, koronavirus infeksiyasının yayılmasının qarşısını almaq üçün ticarət sektorunda xüsusi iş rejiminin tətbiqi bu sahədə, xüsusilə qeyri-ərzaq məhsullarının satışında fəallığı zəiflətmişdir. Belə ki, cari ilin may ayında aprel ayı ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi 33,1, o cümlədən qeyri-ərzaq malları üzrə 38,6 faiz azalmışdır. Ümumilikdə isə ötən ilin müvafiq dövrünə nisbətən bu ilin yanvar-aprel aylarında əmtəə dövriyyəsi 1,9, o cümlədən qeyri-ərzaq malları üzrə 6,5 faiz azalmış, ərzaq, içki və tütün məmulatlarının satışı isə 2,6 faiz artmışdır. Artım, həmçinin elektron ticarət dövriyyəsində olmuşdur, özü də xeyli - 1,6 dəfə.

Xarici ticarət əlaqələrinə gəldikdə, hesabata görə, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixrac edilən xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla cari ilin yanvar-mart aylarında ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 6 milyard 695,3 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin 60,6 faizini ixrac, 39,4 faizini idxal məhsulları təşkil etmişdir ki, bu da 1 milyard 421,3 milyon dollarlıq müsbət ticarət saldosu deməkdir.

Xarici ticarətdə digər mühüm fakt ixracda qeyri-neft məhsullarının xüsusi çəkisi ilə bağlıdır. Hesabatda bildirilir ki, ilin əvvəlindən ötən 3 ay ərzində Azərbaycandan ixrac olunan qeyri-neft məhsullarının faktiki qiymətlərlə dəyəri 3,4 faiz artmış, real ifadədə isə 5,2 faiz azalaraq 429 milyon dollar təşkil etmişdir.

Bir neçə fakt da informasiya və rabitə barədə: hesabata əsasən, cari ilin 4 ayı ərzində ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 690,2 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 71,8 faizindən əhali istifadə etmişdir. 2019-cu ilin eyni dövrünə nisbətən bu xidmətlərin həcmi dəyər ifadəsində 8,4 faiz artmışdır. Əldə edilmiş gəlirlərin isə 79,6 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Amma nəqliyyat sektorunda obyektiv səbəblərdən vəziyyət fərqlidir. Azərbaycan ərazisinə yerüstü və hava nəqliyyatı ilə giriş-çıxışın, o cümlədən yerli hava uçuşlarının dayandırılması, eləcə də Bakı Metropoliteninin müvəqqəti bağlanması, rayonlar və şəhərlərarası gediş-gəlişin məhdudlaşdırılması ölkə üzrə yük və sərnişin daşımalarına təsirsiz ötüşməmişdir. Hesabatda bildirilir ki, yük və sərnişin daşımaları may ayında aprel ayına nisbətən müvafiq olaraq 4,9 və 46,9, ötən ilin may ayı ilə müqayisədə isə 14,5 və 58,9 faiz azalmışdır. Bu da öz növbəsində ümumilikdə cari ilin yanvar-aprel aylarında ötən ilin eyni dövrünə nisbətən ölkə üzrə yük daşımasının 4,1, sərnişin daşımasının 18,9 faiz azalmasına səbəb olmuşdur.

Sonda istehlak qiymətləri barədə: DSK bildirir ki, yanvar-aprel aylarında ötən ilin eyni dövrünə nisbətən ümumilikdə qiymətlər 3, o cümlədən ərzaq məhsulları, içki və tütün məmulatları 5,4, qeyri-ərzaq malları 1,2, əhaliyə göstərilən ödənişli qiymətlər isə 115 faiz bahalaşmışdır.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinin şəxsi heyəti ilə görüş olub





Dövlət Sərhəd Xidmətinin (DSX) və Respublika Hərbi Prokurorluğunun birgə tədbirlər planına uyğun olaraq, dövlət sərhədinin etibarlı mühafizəsi, hərbi intizamın, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər ardıcıl həyata keçirilir.



DSX-nin və Respublika Hərbi Prokurorluğunun Mətbuat xidmətlərinin daxil olan birgə məlumatında bildirilir ki, bu tədbirlər çərçivəsində Dövlət Sərhəd Xidməti rəisinin şəxsi heyət üzrə müavini general-leytenant Azad Ələkbərovun və Azərbaycan Respublikası Hərbi prokurorunun müavini, ədliyyə general-mayoru Rasim Kazımovun Xidmətin Sərhəd Qoşunlarının Ermənistanla dövlət sərhədinin mühafizə və müdafiəsini həyata keçirən "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinin şəxsi heyəti ilə görüşləri təşkil olunub.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının sərhəd döyüş məntəqələrində xidmət aparan sərhədçilərlə görüşlərdə onların xidmət və yaşayış şəraitləri öyrənilib, hərbi qulluqçuların hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, onlarda düşmənə nifrət hissinin aşılanması, hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması üzrə profilaktik işin aparılması istiqamətində müvafiq tövsiyələr verilib, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində dövlətimizin daha da qüdrətlənməsindən, xalqımızın rifahının hərtərəfli yaxşılaşdırılmasından, respublikamızda mövcud olan əmin-amanlığın və ictimai-siyasi sabitliyin davamlılığından qürur hissi ilə bəhs edilib.

Tədbirin sonunda "Qazax" əlahiddə sərhəd diviziyasının zabitləri, sərhəd komendantları və sərhəd zastavalarının rəisləri ilə müşavirə keçirilib. Müşavirədə dövlət sərhədinin toxunulmazlığının, şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, cinayət və hadisələrin qarşısının alınması, sərhədçilərin döyüş ruhunun daha da yüksəldilməsi istiqamətində zəruri tapşırıqlar verilib, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.

# "Keşikçidağ" qoruğunun ərazisində təxribat xarakterli hər hansı hadisə qeydə alınmayıb

Xəbər verildiyi kimi, "Keşikçidağ" Dövlət Tarixi-Mədəniyyət Qoruğunun ərazisində Gürcüstanın bir qrup vətəndaşı tərəfindən 2020-ci il iyunun 4-də dövlət sərhədinin pozulmasına yönələn təxribat xarakterli hərəkətlərin planlaşdırıldığına dair məlumatlar əldə olunub.

Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Gürcüstan Sərhəd Mühafizəsi ilə qarşılıqlı həyata keçirilmiş qabaqlayıcı tədbirlər nəticəsində Azərbaycan-Gürcüstan dövlət sərhədində "Keşikçidağ" Dövlət Tarixi-Mədəniyyət Qoruğunun ərazisində təxribat xarakterli hər hansı hadisə qeydə alınmayıb.

Bir daha bildirilir ki, Azərbaycan Dövlət Sərhəd Xidməti hər bir zaman dövlət sərhədlərinin keşiyində qətiyyətlə dayanıb.

# Laqeydliyin acı nəticəsi

## Azərbaycanda karantin rejiminin yumşaldılmasının dayandırılmasına qərar verildi

*Əvvəli 1-ci səh.*

Əhalidən dönə-dönə xahiş və tələb olunurdu ki, qoruyucu vasitələrdən istifadə etsinlər, sosial məsafə saxlasınlar. Amma görünən o idi ki, əksəriyyət bu xəbərdarlığa, tələbə əhəmiyyət vermir. Karantin rejimi yumşaldıqca insanlarda pandemiyanın ilk günlərində yaranan yoluxma qorxusu, narahatlıq, təşviş duyğuları arxayınlaşma hissi ilə əvəzlənirdi. Məhdudiyyətlər aradan qaldırıldıqca vətəndaş məsuliyyətsizliyi, laqeydliyi də artırdı. Artıq koronavirusa dırnaqarası yanaşır, xəstəliyin mövcudluğuna inamsızlıq baş qaldırırdı. Bir vaxtlar maska, spirt yoxluğundan şikayətlənən vətəndaş indi bu vasitələrdən istifadəni özünə rəva bilmir. İstifadəsi zəruri olan yerlərdə görüntü xətrinə taxılan maska polis nəzarətindən yayınan andaca ağız və burun hissədən çənənin altına düşürdü. Qadağalara, qaydalara məhəl qoyulmur, şəxsi gigiyena, zəruri profilaktik tədbirlər gözardı edilirdi...

Və nəticə budur - gözlədiyimiz, ehtimal etdiyimiz başımıza gəldi. Azərbaycanda koronavirusa indiyədək gündəlik yoluxmanın pik həddinin şahidi olduq. Nazirlər Kabineti yanında Operativ Qərargah "Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" qərar verdi. Qərara əsasən, qeyd edilən ərazilərdə yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə xüsusi karantin rejiminin sərtləşdirilməsini təmin etmək üçün 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək bütün iş, xidmət, o cümlədən ticarət sahələri üzrə fəaliyyət dayandırıldı. Qərarda nəzərdə tutulan iş və xidmət sahələrində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslərin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi (müstəsna halları çıxmaqla) qadağan edildi. Xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım və fəaliyyətinə icazə verilmiş orqanlara (qurumlara) və təşkilatlara məxsus xidməti avtomobillər istisna olmaqla, bütün digər avtomobillərin və ictimai nəqliyyatın hərəkəti qadağan olundu.

Azərbaycanın Baş Naziri Əli Əsədov vətəndaşlara dünənki müraciətində təəssüflə qeyd edib ki, son yumşaldılma tədbirləri zamanı vətəndaşlarımızın böyük bir hissəsi müəyyən olunmuş qaydalara və təcrid tövsiyələrinə riayət etmədi. Bunun nəticəsi olaraq son günlər infeksiyaya yoluxanların sayı kəskin artıb. Bunlara əsaslanaraq və tibbi qərargahın müraciəti ilə Operativ Qərargah belə bir qərar verdi.

Qeyd etmək lazımdır ki, məhz vətəndaş biganəliyi, qaydalara qarşı intizamsızlıq, virusa yoluxma sayının getdikcə artması hökuməti bu addımı atmaq məcburiyyətində qoydu.

### "Vətəndaşlar kütləvi şəkildə qaydaları pozmağa cəhd edirlər"

Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Nazirlər Kabineti mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirdi ki, son günlər yoluxma dərəcəsinin artmasına, sağalanların sayının yoluxanların sayından xeyli geri qalmasına səbəb vətəndaşların məsuliyyətsizliyidir. Ona görə də karantin rejiminin yumşaldılması dayandırılır və yenidən məhdudlaşdırılma aktivləşdirilir: "Belə ki, cümə günü axşamdan bazar ertəsi səhərə kimi tam qapadılma tətbiq olunacaq. İctimai və fərdi nəqliyyat hərəkəti, küçəyəçıxma, iş rejimi məhdudlaşdırılacaq, mağazalar qapadılacaq. Bir sözlə, tam qapalı rejim yaradılacaq".

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı da brifinqdə çıxışı zamanı dedi ki, bu həftə başlayandan indiyədək koronavirusa yoluxmada ciddi say artımı ilə qarşı-qarşıyayıq: "Çox təəssüf ki, vətəndaşlar kütləvi şəkildə qaydaları pozmağa cəhd edirlər. Onlar cəmiyyətin müxtəlif təbəqələrinin müraciətinə laqeyd yanaşırlar. Nəticədə rəqəmlər artır və tibb müəssisələrinin üzərinə böyük yük düşür".

Onun sözlərinə görə, yoluxma intensivliyinin yüksək olduğuna görə qarşıdakı bir və ya iki ay ərzində həftənin iki günü, bəlkə də üç günü ərzində vətəndaşların küçəyə çıxması, nəqliyyat vasitələrinin hərəkəti və iş rejimi məhdudlaşdırılacaq, mağazalar bağlanacaq. Bu həftə məhdudiyyətlərin tətbiq olunduğu ərazi klasterlər üzrə narıncı sahə, növbəti həftə isə bütün ölkə ola bilər. Məhdudiyyətlər böyük şəhərlərlə yanaşı, epidemioloji vəziyyətdən asılı olaraq bəzi kəndlərdə də tətbiq olunacaq, eyni zamanda, bütün rayon olmasa da, lokal olaraq yoluxma dərəcəsi yüksək olan kəndlərdə də həftə sonu karantin tədbirləri həyata keçiriləcək.

TƏBİB sədri əlavə edib ki, həm həftə sonunda, həm də həftə içərisində fiziki məsafəni gözləmək və maska taxılması qaydasına əməl etsək, pozitiv nəticəyə nail olmaq olar. Bazar ertəsindən sonra normal həyata qayıtmasaq, maska istifadəsi ilə bağlı qaydalara əməl etməsək, bizi daha ciddi və sərt addımlar gözləyir...

### Yoluxma hallarının artmasında vətəndaş laqeydliyinin payı danılmazdır

Dövlət koronavirusun Azərbaycanda geniş vüsət almasına imkan verməmək, infeksiyaya yoluxmanın sürətini azaltmaq, vətəndaşının sağlamlığını qorumaq üçün lazımi bütün addımları atdı. Prezident İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən çevik, qabaqlayıcı və səmərəli tədbirlər öz effektini göstərdi. Məhz pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində dövlət tərəfindən vaxtında görülən mühüm işlər nəticəsində ölkədə COVID-19-la bağlı vəziyyət nəzarət altına alındı, insanların koronavirusa kütləvi yoluxma hallarının azaldılmasına nail olundu. Xüsusi karantin rejimi dövründə yoluxma hallarının sayı minimuma endirildi, ölüm halları çox aşağı səviyyədə oldu, xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalanların sayı yeni yoluxma hallarının sayını kəskin üstələdi. Lakin xüsusi karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra yeni yoluxma hallarının sayında artım başladı, əldə edilmiş pozitiv nəticəni qoruyub saxlamaq mümkün olmadı. Çünki bu mərhələdə virusla səmərəli mübarizədə əsas amil vətəndaşların sosial məsuliyyətindən, bilavasitə onların intizamlı davranışı və məsələyə məsuliyyətlə yanaşmasından, karantin rejimi qaydalarına riayət etməsindən birbaşa asılı idi. Lakin son günlərin narahatedici statistikası bunun əksini göstərdi. Təəssüf ki, koronavirusa yoluxma hallarının artmasında vətəndaş laqeydliyinin payı danılmazdır. Qoruyucu vasitələrdən istifadə edilməməsi, sosial məsafənin gözlənilməməsi, virusun varlığına şübhə ilə yanaşılması, xəstəliyin ciddiyə alınmaması, "bu, kimlərinsə oyunudur, belə bir virus yoxdur", "xəstəlik varsa, bəs niyə bizim tanışlarımızdan heç kim tutmayıb" kimi mənasız mücərrəd düşüncə tərzi olduqca ziyanlı və təhlükəli yanaşma tərzidir. Bu məsuliyyətsiz yanaşma tək həmin insanın özünü yox, digərlərinin də həyatını böyük risk altına atır. Odur ki, bu düşüncələrdən uzaqlaşmaq, real təhlükəni görmək lazımdır. Arxayınlığı, biganəliyi, laqeydliyi bir kənara qoyub dövlət başçısının, Birinci vitse-prezidentin müraciətlərinə, çağırışlarına, Nazirlər Kabineti yanında Operativ Qərargahın, TƏBİB-in tövsiyələrinə, qaydalarına, tələblərinə əməl etmək gərəkdir. Özümüzü, yaxınlarımızı qorumaq istəyiriksə, məsələnin ciddiliyini dərk etməli, karantin rejiminin sərtləşdirilməsi ilə bağlı Operativ Qərargahın qərarlarını anlayışla qarşılamalı, qoyulan qadağaların zəruriliyini anlamalıyıq. Məhdudiyyətlərə, qaydalara əməl etməyin hər birimiz üçün həyati vacibliyini başa düşərək, özümüzü, ailəmizi, xalqımızı qorumalıyıq.

Nə qədər ki, tanışlarımıza, ətrafımızdakı insanlara toxunmur, çoxumuz bu bəlaya mücərrəd, qeyri-real, uzaq bir təhlükə kimi baxırıq. Amma yoluxanların sayı artdıqca, ölüm halları çoxaldıqca hər kəs faciəni öz yanında, canında hiss etməyə başlayır. Bu xəstəliyin necə təhlükəli, amansız olduğunun fərqinə varır. O zaman isə artıq gec olur...

Nə qədər ki, gec deyil, özünüzün, ailə üzvlərinizin, iş yoldaşlarınızın, qohum-qonşularınızın xəstələnməsinə baiskar olmayın, onların "qatilinə" çevrilməyin.

Nə qədər ki, gec deyil, qorunun, qoruyun!

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Qafqaz Müsəlmanları İdarəsi sədrinin ICESCO-nun Baş direktoru ilə videokonfrans formatında görüşü olub



İyunun 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd Əl-Maliklə videokonfrans formatında görüşüb.

QMİ-dən AZƏRTAC-a bildiriblər ki, görüşdə QMİ sədri ilə ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd Əl-Malikə islam dünyasının nüfuzlu təşkilatının rəhbəri vəzifəsində fəaliyyətinə xeyir-dualarını bildirib və Azərbaycan ilə ICESCO arasında mövcud əlaqələrin daha yüksək səviyyəyə qalxması yönündə birgə səmərəli əməkdaşlığa ümidvar olduğunu vurğulayıb. Şeyxülislam A.Paşazadə ICESCO müstəvisində Azərbaycanın işğal altında olan ərazilərinin mədəni, dini-mənəvi irsinə münasibətdə, habelə qaçqın və məcburi köçkün soydaşlarımızın problemlərinə hər zaman diqqət və dəstək nümayişini islam həmrəyliyinin nümunəsi kimi təqdir etdiyini bildirib.

Şeyxülislam A.Paşazadə Azərbaycan Prezidentinin və ölkəmizin Birinci vitse-prezidentinin ICESCO ilə əlaqələrə böyük önəm verdiklərini vurğulayıb. QMİ sədri ICESCO ilə bərabər elm, mədəniyyət, din, ictimai xadimlərinin birgə konfranslarının keçirilməsinin böyük əhəmiyyətini qeyd edib.

ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd Əl-Malik Şeyxülislam A.Paşazadəni islam dünyasının dəyərli şəxsiyyəti kimi səciyyələndirib və onunla görüşdən, rəhbərlik etdiyi qurumun ehtiva etdiyi sahələr üzrə yaxın gələcəkdə sıx əməkdaşlıq perspektivindən məmnunluğunu ifadə edib. QMİ sədrinin KAICIID Beynəlxalq Dinlər və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Direktorlar Şurasının üzvü kimi fəaliyyətini yüksək dəyərləndirən baş katib rəhbərlik etdiyi qurumun nizamnaməsində edilmiş dəyişikliklər barədə QMİ sədrini geniş məlumatlandırıb. Bildirib ki, ICESCO qeyri-islam dinləri ilə əməkdaşlıqda maraqlıdır və bu baxımdan Şeyxülislam A.Paşazadənin beynəlxalq müstəvidə, o cümlədən regionda dinlərarası dialoq və konfessiyalararası əməkdaşlıq sahəsində böyük nüfuz və təcrübəsinə, habelə təşkilatçılıq qabiliyyətinə və geniş əlaqələrinə böyük önəm verir.

Pandemiya səbəbindən videoformatda görüşdüklərini bildirən QMİ sədri A.Paşazadə xəstəlik təhlükəsi sovuşduqdan sonra baş katib Səlim bin Məhəmməd Əl-Maliki Azərbaycana səfərə dəvət edəcəyini deyib və rəhbərlik etdikləri qurumlar arasında qarşılıqlı faydalı işbirliyi, dini-mənəvi dəyərlərə istinadən birgə layihələrin həyata keçirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan Respublikasının ICESCO üzrə Milli Komissiyasının baş katibi Vasif Eyvazzadə də iştirak edib.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz kəndləri yaxınlığında yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

“Azərbaycan”a cavab verirlər

# Məsələyə növbəti illərin dövlət investisiya proqramları çərçivəsində baxıla bilər

Bərdə rayonunun Alaçadırlı kəndində məktəb binasının olmaması, buna görə valideynlərin və azyaşlı uşaqların üzləşdiyi problemin aradan qaldırılması ilə əlaqədar sakinlər adından redaksiyamıza daxil olmuş məktub araşdırılıb tədbir görülmək üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinə göndərilmişdir.

Nazirliyin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin rəisi Anar Axundovun imzası ilə aldığımız cavab məktubunda deyilir: *“Hörmətli redaksiya, Bərdə rayonu, Alaçadırlı kəndində məktəb binasının olmaması və buna görə sakinlərin kənddə məktəb tikilməsinə dair müraciətləri aidiyyəti üzrə nazirliyin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin mütəxəssisləri tərəfindən araşdırılmışdır. Bildiririk ki, 2020-ci ilin Dövlət İnvestisiya Proqramının obyektlər üzrə yekun bölgüsü layihəsi hazırlanıb və respublika İqtisadiyyat Nazirliyinə təqdim olunub. Odur ki, sözügedən müraciətdə qaldırılan məsələyə növbəti illərin Dövlət İnvestisiya Proqramları çərçivəsində baxıla bilər”.*

# İlham Əliyevdən Yerevana növbəti sərt xəbərdarlıq

## Ermənistanı daha böyük sarsıdıcı zərbələr gözləyir

*Əvvəli 1-ci səh.*

Öncə etirazların az müddət keçdikdən sonra səngiyəcəyini, repressiv metodlarla rəqiblərini sıradan çıxaracağını düşünsə də, Sarkisyan bu dəfə yanlışlığa yol verdi. Nəticədə xalq bu canidən yaxasını qurtardı, Xocalı soyqırımının əsas səbəbkarı hakimiyyətdən qovuldu.

Bunun reseptini Prezident İlham Əliyev həmişə söyləyirdi. Dövlət başçısının böyük uzaqgörənliklə söylədiyi “erməni xalqının ən böyük düşməni ona rəhbərlik edən hərbi xuntadır. Xalq onu zəlil gününə qoyan, dövləti dalana dirəyən cinayətkar rejimdən xilas olmalıdır” fikri Ermənistanda artıq reallığa çevrildi.

İyunun 3-də Tərtər Olimpiya İdman Kompleksinin açılışındakı çıxışında da məsələnin bu tərəfinə toxunan Prezident İlham Əliyev deyib: “Bildiyiniz kimi, bu yaxınlarda qondarma “Dağlıq Qarabağ respublikası”nda qondarma prezident seçkiləri keçirilmişdir. Qondarma, saxta prezident guya ki, seçilib. Bu gün Dağlıq Qarabağda hakimiyyəti zəbt etmiş xunta rejimidir və əvvəlki rejimin tör-töküntüləridir. Ermənistanın əvvəlki rejiminin bəd əməlləri haqqında bütün faktları Ermənistanın indiki rəhbərliyi açıbdır, ictimaiyyətə təqdim edibdir. Onların generalları oğru, onların dırnaqarası “qəhrəmanları” cinayətkar, onların rəhbərləri rüşvətxordur. Keçmiş rejimin nə qədər nümayəndələri həbs olunub, nə qədər axtarışa verilib. Bu, nə deməkdir?! O deməkdir ki, 2018-ci ilə qədər 20 il ərzində Ermənistana cinayətkarlar rəhbərlik ediblər. Onlardan biri indi həbsxanadadır, o birisi isə hələ ki azadlıqda. Halbuki onun da ölkədən çıxışına qadağa qoyulub. Yeni bir ölkənin müstəqilliyi hələ 30 ilə çatmayıb, ölkənin 20 ili cinayətkarların ixtiyarına buraxılıb. Əlbəttə ki, bu cinayətkar dəstə cinayətkar rejim yaradıb”.

Bu gün Ermənistan Dağlıq Qarabağ probleminin dinc müstəvidə həlli məqsədilə ona verilən şansı hələ də lazımınca dəyərləndirmir. Eyni zamanda işğal olunmuş ərazilərdə yaradılan qondarma separatçı rejimin keçirdiyi “prezident seçkiləri” də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində aparılan danışıqlara xələl gətirməkdədir. Sözügedən ölkə hələ də Azərbaycan ərazilərindən öz silahlı qüvvələrini çıxarmağa tələsmir, burada yaratdığı separatçı rejimə hərtərəfli dəstəyini davam etdirir, hətta onun fəaliyyətinə hüquqi don geyindirməyə çalışır.

Dağlıq Qarabağda yaradılmış separatçı rejimin keçirdiyi sonuncu “seçkilər” də bu qəbildən olan növbəti cəhddən başqa bir şey deyil. Bununla bağlı müxtəlif beynəlxalq qurumlar tərəfindən çoxsaylı qərarlar, qətnamələr, eləcə də digər sənədlər qəbul edilib. Amma Ermənistan hələ də beynəlxalq hüquqa hörmətsizlik nümayiş etdirərək həmin sənədlərdə qoyulan tələbi yerinə yetirməkdən imtina edir.

Azərbaycan Prezidenti İlham Əliyev göstərilən xüsusda bildirib: “İndi Dağlıq Qarabağda da xunta rejimi hökm sürür. Əlbəttə, xunta rejimi tərəfindən keçirilmiş saxta seçkilər bir şoudur, bir təlxəklər tamaşasıdır. Bütün aparıcı ölkələr bu dırnaqarası “seçkiləri” qınayıb və tanımayıb. Baxın, özü də bəyanatlar qəbul ediblər. ATƏT-in Minsk qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya bəyan ediblər ki, seçkiləri tanımırlar. Avropa İttifaqı bəyan edib ki, seçkiləri tanımır. Avropa Parlamenti, həmçinin İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, digər təşkilatlar - bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri qınadı, təkcə Avropa Şurasından başqa. Avropa Şurası susdu. O da nəyə görə? Bəllidir. Çünki Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda “beşinci kolonu”, satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Ona görə Avropa Şurası bu saxta seçkilərlə bağlı səsini belə çıxarmadı. Bu halda hansı obyektivlikdən, hansı ədalətdən söhbət gedə bilər!”

Beləliklə, münaqişənin yeganə həlli yolu Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi, ərazi bütövlüyünün bərpası, qaçqın və məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıtmasıdır. Ölkəmizin beynəlxalq hüquqa və tarixi ədalətə söykənən bu mövqeyi bütün dünya ictimaiyyəti tərəfindən qəbul olunur və dəstəklənir.

Ermənilərin isə buna müqavimət imkanları getdikcə daha zəif hala gəlir. Digər tərəfdən düşmən görür ki, Azərbaycanın artan hərbi-siyasi gücü, qətiyyəti regionda mühüm keyfiyyət dəyişikliyi yaradıb, hərbi-siyasi və iqtisadi güc balansı tamamilə ölkəmizin xeyrinə dəyişib. Bu isə Qarabağ probleminin həllində şərtlərin məhz Azərbaycanın diktə etməsinə şərait yaradır.

Aclıq və səfalət içərisində yaşayan Ermənistan əhalisi görür ki, bu durumda Azərbaycanın torpaqlarını uzun müddət işğal altında saxlaya bilməz. Ermənilər görürlər ki, işğal faktoru üzərindən yürüdülən militarist siyasət, qonşu dövlətlərə qarşı ərazi iddialarının təşviqi və yarıtmaz idarəçilik Yerevanı regionda həyata keçirilən bütün layihələrdən kənarda qoyub. Bu isə ölkənin çöküşünü sürətləndirir, əhalinin ölkədən qaçmasına, olduqca ağır, məşəqqətli sosial şərtlər altında yaşamasına səbəb olur.

Bu durumda Azərbaycanın öz təbii resurslarına, insan potensialına söykənərək yürütdüyü sabit və uzaqgörən siyasət Ermənistanı iqtisadi, siyasi, nəqliyyat dalanına çevirib. Bu dalandan yeganə çıxış yolu isə işğala son qoyulması, dinc birgəyaşayışdır. Əks təqdirdə Ermənistanı Azərbaycan başqa yolla ərazisindən çıxmağa vadar edəcək.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

5 İyun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür

# Təbiətə ana deyiriksə...





Əvəzsiz sərvət yetirən təbiət ana qədər doğmadır. Dünyanın harasında olursan-ol, doğma yurdun, vətənin həsrətini daim çəkirsən. Məhz buna görə təbiəti ana qədər sevmək və qorumaq hər kəsin vətəndaşlıq borcuna çevrilməlidir. Ölkəmizə gələn əcnəbiləri heyran qoyan və hətta onları əbədi turistə çevirən Azərbaycan təbiətinin gözəllikləri bədii ifadəsini şairlərin poeziyasında, musiqiçilərin lirikasında, fırça ustalarının kətan üzərindəki rənglərin inikasında da yetərincə yer alıb...

Ulu Öndər Heydər Əliyev təbiətin bütün canlıların, o cümlədən insanların həyatında oynadığı mühüm rolu belə dəyərləndirmişdir: “İnsan təbiətdən öyrənir, onun havası ilə pərvəriş tapır, ağıla dolur, zənginləşir, təzələnir, təmizlənir”.

Ətraf mühitin son yüzillikdə dəhşətli dərəcədə çirklənməsi bir sıra ekoloji problemlər də yaradıb. Bu mənada ətraf mühitin mühafizəsi və ekoloji problemlər Azərbaycanda da diqqət mərkəzindədir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər il 5 İyun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ərəfəsində təbiətin qorunması, onun yeraltı sularından, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərindən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi, mühafizəsinin təkmilləşdirilməsi, bugünkü və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq mühüm məsələdir. Qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, onların həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi bu gün Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətləridir.

“Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2019-cu il tarixli sərəncamı da təbiətin öz təbiiliyi, tariximizin yaşadıcısı olan maddi-mədəniyyətin, eləcə də etnoqrafiyasından soraq verən ərazilərin göz bəbəyi kimi qorunması baxımından çox böyük əhəmiyyətə malikdir. Sərəncama əsasən, “Çıraqqala” və “Şabran şəhəri” tarixi qoruqlarının ərazisi “Çıraqqala-Şabran”, Şəmkir rayonunun tarixi ərazisi “Qədim Şəmkir şəhəri”, Ağsu rayonunun tarixi ərazisi isə “Orta əsr Ağsu şəhəri” Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilib.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında ekoloji mühitin sağlamlaşdırılması məqsədilə nəzərdə tutulan hədəflərin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilib, biomüxtəlifliyin mühafizəsi, meşələrin inkişafı, yaşıllıqların artırılması, su ehtiyatlarının davamlı idarə olunması sahəsində nəzərəçarpacaq nailiyyətlər əldə olunub.

Əlbəttə, BMT Baş Assambleyasının 1972-ci il 15 dekabr tarixli qərarına əsasən, iyun ayının 5-i Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü elan edilməsi heç də təsadüfi deyil. Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin ölkəmizə rəhbərliyinin birinci dövründə bu istiqamətdə kompleks tədbirlər həyata keçirilmiş, bütün bölgələrdə yaşıllaşdırma işləri geniş vüsət almışdır. Müstəqillik illərində də Ümummilli Liderin təşəbbüsü ilə ekoloji siyasət uğurla davam etdirilmiş, yüz min hektarlarla yeni yaşıllıq zolaqları salınmış, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. “Ekoloji təhlükəsizlik haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında”, “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının qanunları da təbiətin qorunması, ekoloji mühitin saflaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Ulu Öndər tərəfindən müəyyənləşdirilmiş ekoloji siyasət bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda ekoloji məsələlərə dair müşavirələrin keçirilməsi, beynəlxalq ekologiya sərgilərinin təşkil olunması bu sahəyə göstərilən diqqətin real ifadəsidir.

Məhz bu siyasətin uğurlu nəticəsidir ki, Azərbaycan planetin mövcud təbii sərvətlərindən, bitki və heyvan ehtiyatlarından, sudan, atmosferdən, torpaqdan səmərəli istifadə edilməsi, qorunması və bərpası məqsədilə 20-dən çox ekoloji konvensiyalara qoşulub.

Xatırlatmaq yerinə düşər ki, ölkəmizin təbii landşaftlarının qorunmasına xüsusi təbiət mühafizəsi rejimi vasitəsilə nəzarət edilir. 1925-1930-cu illərdə Azərbaycanın ilk qoruqları - Göygöl, Zaqatala və Qızılağac, 1936-cı ildə Hirkan, 1958-ci ildə isə Türyançay yaradılıb. 1959-cu ildə ümumi sahəsi 46,8 min hektar olan daha 8 qoruq bu siyahıya əlavə edilib. 1930-cu ildən 1990-cı ilə kimi dövlət qoruqlarının sayı 3-dən 15-ə çatdırılıb. 2004-cü ildə isə artıq ümumi sahəsi 194.898 min hektar (ölkə ərazisinin 2.28 faizi qədər) olan 13 qoruq, 4 milli park və 17 yasaqlıq mövcud idi.

Azərbaycan Prezidentinin 28 sentyabr 2006-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı” çərçivəsində tullantıların yandırılması zavodunun tikilməsi bu istiqamətdə həyata keçirilən layihələrin ən mühümü və diqqətçəkənidir.

Ətraf mühitin saflaşdırılması bu gün bəşəriyyəti narahat edən qlobal problemlərdən biri və əslində birincisi hesab edilir. Bu istiqamətdə beynəlxalq birlik səviyyəsində müəyyən layihələr həyata keçirilməkdədir. Azərbaycana gəlincə, ətraf mühitin sağlamlaşdırılması, əslində, dövlət siyasətinin prioritetlərindəndir. Konkret olaraq qeyd edə bilərik ki, bu istiqamətdə Heydər Əliyev Fondunun reallaşdırdığı layihələr beynəlxalq miqyasda təqdir edilməkdədir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***



# Yeni texnologiyalar su itkisinin qarşısını alır, məhsuldarlığı artırır

Xəbər verildiyi kimi, iyunun 1-də Asiya İnkişaf Bankının (AİB) təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə bankın prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilmişdir.



Azərbaycanın dövlət başçısı videokonfransda bankın rəhbərliyi ilə ölkə iqtisadiyyatının müxtəlif sahələrinə aid geniş müzakirələr aparmışdır və bu sahələrdən biri də suvarma sistemləri ilə əlaqədardır. Prezident İlham Əliyev bankın Naxçıvanda suvarma layihəsinin icrası üçün təqribən 100 milyon dollar kredit ayırmağa hazır olduğuna görə AİB rəhbərliyinə təşəkkür etmiş, ölkə ərazisində bu sahə üzrə daha mühüm layihələr icra etməyin vacib olduğunu bildirmişdir: “Bundan əlavə, sizin bütün ölkə ərazisində suvarma ilə bağlı planlarımızı nəzərdən keçirməyinizi istərdim. Biz hazırda vəziyyəti qiymətləndiririk və çox böyük su itkiləri ilə üzləşdiyimizi görürük. Bəzi hallarda köhnəlmiş infrastruktura və səmərəli olmayan su idarəetmə sisteminə görə biz suyun 40-50 faizini itiririk... Buna görə sizdən bu layihəni nəzərdən keçirməyi xahiş etmək istərdim. Ümidvaram ki, bir neçə aydan sonra bu komissiyanın fəaliyyətinin ilk nəticələri bizdə olacaq. Biz suvarmanın inkişafı üzrə dövlət proqramının qəbul edilməsi və suvarmanın daha da səmərəli olması ilə nəticələnəcək addımları müəyyən etməyə başlaya bilərik. Buna görə də texniki dəstək və maliyyə dəstəyi baxımından biz bu məsələ üzərində sizinlə çalışmağa məmnun olardıq”.

Qeyd edək ki, bu gün su problemi təkcə ölkəmizə aid deyil. İndi dünyada su çatışmazlığı ən böyük problemlərdən biridir. BMT-nin son araşdırmalarına görə, 30 ildən sonra dünya əhalisinin yarısı susuz qala bilər. Yəni 2050-ci ilədək dünyada 3,5-4,4 milyard insanın içməli su çatışmazlığı problemindən əziyyət çəkəcəyi ehtimalı var. Həmin hesabatda qeyd edilir ki, içməli su çatışmazlığından əziyyət çəkəcək insanların 1 milyardı böyük şəhərlərdə yaşayanlar olacaq. Hazırda isə dünyada 2 milyarddan çox adam içməli su çatışmazlığından əziyyət çəkir və ya ümumiyyətlə, içməli su ehtiyatlarından məhrumdur.

Azərbaycan arid zonada yerləşdiyi üçün su ehtiyatları olduqca məhduddur. Yerüstü su ehtiyatları 32,2 milyard kubmetrdir. Quraqlıq illərdə bu, 22,6 milyard kubmetrə qədər azalır. Yeraltı su ehtiyatları isə 5,2 milyard kubmetrdir. Onu da qeyd edək ki, Azərbaycanın yerüstü su ehtiyatlarının 70 faizi ölkə hüdudlarından kənarda formalaşır. Üstəlik, ümumi su tutumu 640 milyon kubmetr olan su anbarları Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində qaldığı üçün uzun illərdir ki, bu imkandan istifadə edə bilmirik.

Bütün bu səbəblərdən Prezident İlham Əliyev ölkənin su probleminin həllinə xüsusi diqqət yetirir və bu istiqamətdə çoxsaylı tədbirlər görür. Bu gün Taxtakörpü, Şəmkirçay və Tovuzçay su anbarları ölkədə su ehtiyatlarının yaradılmasında xüsusi rol oynayır. Bununla yanaşı, ölkə ərazisində olan kiçik çayların üzərində tikilən su elektrik stansiyalarından da əlavə su mənbələri kimi istifadə olunur.

Dövlət başçısı Azərbaycanda su probleminin həlli üçün görüləcək işləri vurğulayaraq demişdir: “Suvarma ilə bağlı qarşımıza qoyduğumuz rəqəm, hesab edirəm ki, təmin olunacaq. 100 min hektar yeni torpaqlara su veriləcək və 300 subartezian quyusunun qazılması nəzərdə tutulub. Biz həm də aqrotexniki tədbirlərlə bağlı texnologiyaları, həm də su ilə təminat texnologiyalarını Azərbaycana gətirməliyik. Elə müasir suvarma sistemləri var ki, hər bir qarış torpaqdan maksimum səmərəli istifadə olunur. Bax, bu texnologiyaları biz Azərbaycana gətirməliyik və elektron kənd təsərrüfatı sistemini nəhayət ki, tətbiq etməliyik”.

Artıq Azərbaycanda bir çox təsərrüfatlar dövlətin yaratdığı imkanlar hesabına xaricdən gətirilən yeni texnologiyalardan istifadə edir. Bir sıra fermer təsərrüfatları dünyanın tanınmış şirkətlərinin texnika və texnologiyalardan səmərəli istifadə edərək yüksək məhsul əldə etməyə nail olur. Məsələn, kiçik və orta taxılçılıq təsərrüfatlarında hər hektardan 30 sentner məhsul götürüldüyü halda, iri fermer təsərrüfatları və aqroparklarda müasir suvarma sistemləri hesabına bu rəqəm 60 sentnerdən yuxarıdır. Yeni suvarma sistemləri həm də su itkisinin qarşısını alır.

Ölkəmizdə son bir neçə ildə aqrar sektorda məhsul istehsalının və ixracın artması da müasir texnika və texnologiyalardan istifadə ilə bağlıdır. Belə ki, dövlətin dəstəyi ilə “Aqrolizinq” tərəfindən gətirilərək fermerlərə güzəştli şərtlərlə verilən bu texnika və texnologiyalar məhsul istehsalının artmasında önəmli rol oynayır. Xüsusilə su itkisinin qarşısını alan, torpağın münbitliyini qoruyan və məhsuldarlığı yüksəldən suvarma texnologiyaları bu sahədə daha çox fayda gətirir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Su həyatın özüdür

Bu il qış qarsız keçdi. Ümid etdik ki, yaz bol yağışlarla özünü göstərəcək. Amma bu baxımdan da arzularımız boşa çıxdı. Hazırda su qıtlığı Yer kürəsinin hər yerində qlobal problemlərdən birinə çevrilib.

Son illər Qusarda içməli və suvarma suyu ilə bağlı bir neçə layihə həyata keçirilsə də, problemin köklü şəkildə həll olunduğunu öncədən söyləmək olmaz. Problemin əsas yaranma səbəbi iqlim dəyişikliyidirsə, digər amil insan faktoru ilə bağlıdır. Belə ki, bu gün Qusarda, eləcə də qonşu rayonlarda intensiv bağçılığın, tərəvəzçiliyin genişləndirilməsi ilə əlaqədar suya olan tələbat kəskin şəkildə artmışdır. Bu da öz növbəsində iri bağ massivlərinə malik təsərrüfat rəhbərləri ilə kiçik fərdi fermerlər arasında mübahisələrə səbəb olur. Bu cür halların yaranmaması üçün Qusar Dövlət Aqrar İnkişaf Mərkəzində suvarma mövsümü ilə bağlı keçirilən geniş müşavirədə bu və ya digər məsələlər müzakirə edilib.

Bizimlə söhbətində qarşıdakı mövsümlə əlaqədar Qusar Suvarma Sistemləri İdarəsinin rəisi Məzahir Əzizov bildirib ki, son illər rayonun su mənbələrində, xüsusilə, Samur çayında suyun səviyyəsinin aşağı düşməsi, Qusar çayında azalma hiss olunur. Ekoloji durumla, iqlimlə bağlı bu hal yay aylarında xüsusilə kəskin xarakter alır, nəticədə əhaliyə suvarma suyunun fasiləsiz verilməsində müəyyən çətinliklər yaranır.

Digər tərəfdən torpaq kanallar vasitəsilə suyun uzaq məsafələrə çatdırılması zamanı da xeyli itkilər olur. Bu çətinliyi nəzərə alaraq rayon rəhbərliyi tərəfindən məsələ qaldırılmış, layihə əsasında 60 kilometrə yaxın torpaq kanallar betonlaşdırılmışdır. Rayon rəhbərliyinin yerlərdə keçirdiyi səyyar görüşlər zamanı su təminatının yaxşılaşdırılması üçün qaldırılmış məsələlərlə əlaqədar olaraq Yuxarı Kalunxür kəndi ərazisində dəyirman arxının təhlükəli ərazisində də 60 paqon metr qapalı boru xəttinin çəkilməsi, Bədirqala kəndinin suvarma suyu ilə təchiz edən torpaq kanalın təmir olunaraq üzərində su buraxıcı qurğunun quraşdırılması təmin edilib. Rayonun Könhə Xudat, Köhnə Xudat qazmaları, Kuzunqışlaq, İmamqulukəndoba və Əvəxüroba kəndləri ərazilərində 5 artezian su quyusu qazılıb.

Qarşıdakı illərdə 200 kilometrə yaxın torpaq kanallara beton üzlüyün çəkilməsi üçün yuxarı təşkilatlar qarşısında məsələ qaldırılıb. Bundan əlavə, Zindanmuruq və Yeni Həyat arxlarında rekonstruksiya işlərinin görülməsi nəzərdə tutulmuşdur, Çağarqışlaq kəndi ərazisində stasionar nasos stansiyasının tikintisi isə davam etdiriləcəkdir, həmçinin Zuxul kəndinin həyətyanı və 200 hektardan çox əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün mənbəyi Tahircal çayı olan Zuxul arxının başlanğıcında su qəbuledici kameranın tikintisi 2,3 kilometrə yaxın arxa beton üzlük çəkilməsi işləri nəzərdə tutulub. Eyni zamanda da kiçik həcmli anbarın və nasos stansiyasının tikintisi, qapalı boru xəttinin çəkilməsi, Qayakənd kəndində sel sularından mühafizə məqsədilə Qusar çayında daş-beton bəndlərin quraşdırılması işlərinə başlanacaqdır. 2020-ci ildə, həmçinin Qullar, Zindanmuruqqışlaq, Qalacıq (Çoban), Çubuqlu, İmanqulukənd, Qılahoba, Düztahiroba, Zuxuloba kəndlərində 9 artezian quyusunun qazılması nəzərdə tutulub. Cari mövsümdə su istifadəçilərinin çətinliklərlə üzləşməməsi üçün indidən xüsusi tədbirlərin görülməsinə başlanılıb.

Həyatın özü olan sudan istifadə edərkən onun nə qədər qiymətli nemət olduğunu heç kəs yaddan çıxarmamalıdır. Su israfçılığına yol verməmək, onun hədər axıdılmasının qarşısını almaq, ədalətli bölgüsünə, həm də müqavilə şərtlərinə əməl etmək istehlakçıların borcu olmalıdır.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***






# “Azercell” uşaqlar üçün “Mobil TV” xidmətini istifadəyə verdi

## Artıq “NNTV Kids” ilə dünyanın ən populyar uşaq kanallarını izləmək olar

“Azercell” Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə yeni xidməti təqdim edib. “NNTV Mobil TV” xidmətində yeni “Kids” (“Uşaqlar”) paketi istifadəyə verilib. Fakturalı və fakturasız xətt abunəçiləri tətbiqdə dünyanın ən sevilən və populyar uşaq TV proqramlarını izləyə biləcəklər.

“NNTV Kids” paketində “Disney”, “Boomerang”, “Cartoon Network”, “Nickelodeon HD”, “TRT Cocuk”, “Detskiy mir”, “Karusel”, “Discovery Channel HD” kimi ən məşhur kanallara baxmaq olar. Paketə daxil edilən kanalların müxtəlifliyi uşaqların həm əylənməsi, həm də maariflənməsinə imkan verir.

“NNTV Kids”ə qoşulmaq üçün telefonun ekranında sadəcə *425#YES yığmaq və ya “K” açar sözünü 4040 qısa nömrəsinə göndərmək kifayətdir. Xidmətə birinci dəfə qoşulanlara ilk 7 gün pulsuz istifadə imkanı hədiyyə edilir.

Ətraflı məlumat və uşaq paketinə daxil olan kanalların siyahısı ilə tanış olmaq üçün 177 nömrəsinə zəng etmək olar.

“Azercell”in “Mobil TV” xidməti abunəçilərinə istədikləri yerdə istədikləri zaman sevilən kanalları canlı olaraq izləmək imkanı verir. Qeyd edək ki, “İdman Paketini” də ayrıca təqdim edən NNTV tətbiqi 200-dən çox baxımlı telekanalı əhatə edir.

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu

### *açıq tenderə dəvət edir*

- Fondun nəzdində olan sosial xidmət müəssisələri üçün Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 400 (dörd yüz) manat**

**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**H/h: AZ91CTRE00000000000002138206**
**Büdcə gəlirlərinin təsnifat kodu: - 142330**
**Büdcə səviyyəsinin kodu: - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa və dövlət satınalmalarını hüquqi cəhətdən tənzim edən Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **29.06.2020-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **07.07.2020-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **08.07.2020-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# Beynəlxalq aləm



## ABŞ-ın Afinadakı səfirliyi daşqalaq edildi

ABŞ-da polis tərəfindən afroamerikalı Corc Floydun öldürülməsi ilə bağlı keçirilmiş yürüş Amerikanın Yunanıstandakı səfirliyinin qarşısında polislə toqquşmalara çevrilmişdir. Bu barədə yerli EPT telekanalı xəbər verir.

Tədbirin böyük hissəsi dinc keçmişdir. Nümayişçilər küçəyə plakatlarla çıxmış və polisin əleyhinə şüarlar səsləndirmişlər.

Yürüşün sonunda iğtişaşlar başlamışdır. Aksiyada iştirak edən bir qrup gənc ABŞ səfirliyinin qarşısında polislərə daş, butulka və “Molotov kokteylləri” atmışdır. Bunun cavabında polis səs qumbaralarından və gözyaşardıcı qazdan istifadə etmişdir. 12 nəfər saxlanılmışdır.

EPT-in xəbərinə görə, yürüşdə solçu təşkilatların minlərlə nümayəndəsi, həmçinin kürdlər iştirak etmişlər.

## Liviya hökuməti Trablis aeroportunu geri aldı



Liviya legitim hökumətinin qoşunları paytaxt Trablisin beynəlxalq hava limanı üzərində nəzarəti bərpa etmişdir. Bu barədə “əl-Cəzirə” telekanalı xəbər verir.

Hökumət qoşunlarının nümayəndəsi telekanala bildirmişdir ki, qiyamçı general Xəlifə Həftərin başçılıq etdiyi qanunsuz silahlı birləşmələr hava limanından uzaqlaşdırılmışdır. Hazırda onların paytaxtı atəşə tutmaq imkanı yoxdur.

Trablis beynəlxalq hava limanı 2014-cü ildən bəri işləmir. Ötən il Xəlifə Həftərin tərəfdarları aeroportu ələ keçirmişdilər. Hazırda Trablisin beynəlxalq hava limanı kimi Mitiqə hərbi aerodromundan istifadə olunur.

## Çində məktəbə hücum zamanı 40 nəfər yaralandı




Çinin cənubunda, Quansi-Çjuan muxtar rayonunda ibtidai məktəbin azı 40 şagirdi və əməkdaşı hücum nəticəsində bıçaq yarası almışdır. Bu barədə yerli KİV xəbər verir.

Hücum dünən səhər Uçjou şəhərinin yaxınlığındakı Vanfu kəndində baş vermişdir. Məktəbdə mühafizəçi işləyən 50 yaşlı kişi qəflətən uşaqlara və böyüklərə hücum etmişdir.

İlkin məlumata görə, qurbanların əksəriyyəti 6 yaşınadək olan uşaqlardır. Bir şagird, məktəbin direktoru və başqa bir mühafizəçi ağır yaralanmışlar. Polis hücum edən şəxsi həbs etmişdir. Təhqiqat aparılır.

## Almaniya hökuməti iqtisadiyyatın dirçəlməsinə 130 milyard avro ayıracaq



Almaniya hökuməti koronavirus pandemiyasının iqtisadi fəsadlarının aradan qaldırılması üçün 130 milyard avro məbləğində konyunktur paketi adlandırılan sənədi razılaşdırmışdır. Bu barədə Kansler Angela Merkel məlumat vermişdir.

Beləliklə, iqtisadiyyatın dəstəklənməsi üçün nəzərdə tutulmuş tədbirlərin ümumi həcmi 1,3 trilyon avroya çatmışdır. Bu, Avropada ÜDM-ə münasibətdə ən böyük göstəricidir.

Yeni sənəd 57 bənddən ibarətdir. Əsas tədbirlərdən biri iyulun 1-dən ilin sonunadək əlavə dəyər vergisinin 19 faizdən 16 faizə endirilməsidir. Bundan əlavə, ailələr hər uşaq üçün 300 avro məbləğində ödəniş alacaq. Gələn ildən dövlət subsidiyaları hesabına əhali və biznes üçün elektrik enerjisinin qiymətləri azaldılacaq. Elektromobillərin alınması üçün subsidiyalar artırılacaq.

Sənəddə karantindən ən çox zərər çəkmiş sahələrə, ilk növbədə turizm və restoran biznesinə əlavə yardım nəzərdə tutulmuşdur. İyundan avqustadək bu məqsədlər üçün 25 milyard avro ayrılmışdır.

## Tokio Olimpiadası sadələşdirilmiş formatda keçirilə bilər



Dünyada koronavirus pandemiyası ilə əlaqədar Tokioda Olimpiya Oyunları sadələşdirilmiş formatda keçirilə bilər. TASS agentliyinin xəbərinə görə, bu variantı Yaponiya hökuməti və oyunların təşkilat komitəsi istisna etmir.

Güman ki, açılış və bağlanış mərasimlərində iştirakçıların sayının azaldılması barədə qərar qəbul olunacaq, hələ arenalarda azarkeşlərin sayı məhdudlaşdırılacaq. Eyni zamanda təkcə bütün idmançılar və personal deyil, tamaşaçılar da COVID-19 testi keçməli olacaqlar. Bundan əlavə, atletlərin Olimpiya kəndindən kənarda hərəkətləri məhdudlaşdırılacaq.

Xatırladaq ki, 2020-ci il Olimpiadası koronavirus pandemiyası üzündən gələn ilə keçirilmişdir.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Quba şəhərində Soyqırımı Memorial Kompleksi digər malların alınması (221900), tikili və avadanlıqların cari təmiri (222110) xərc maddələri üzrə kotirovkalar sorğusu elan edir

Maraqlanan təşkilatlar 0233353707 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 11.06.2020-ci il saat 17:00-dək qəbul olunur.
Əlaqələndirici şəxs: Ağayev Ayaz Əlisafa oğlu

Ünvan: Quba şəhəri, N.Nərimanov 1A/soyqirim.az email:office@soyqirim.az

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi” Publik Hüquqi Şəxsi (DOST Agentliyi) beynəlxalq və ölkə səviyyəli tədbirlərdə, bayramlarda, mükafatlandırma, eləcə də yubiley mərasimlərində təbrik və xatirə məqsədilə verilməsi nəzərdə tutulan hədiyyələrin satın alınması məqsədilə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsini həyata keçirmiş və müsabiqənin qalibi “LOTUS CO” QSC müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi” Publik hüquqi Şəxsi (DOST) Agentliyi miniven tipli avtonəqliyyat vasitələrinin satın alınması məqsədilə 13 mart 2020-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsini həyata keçirmiş və müsabiqənin qalibi “Autouniversal” MMC müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi” Publik Hüquqi Şəxsi (DOST Agentliyi) tərəfindən **video-çarxların və infoqrafika işlərinin satın alınması** məqsədilə elan olunan açıq tenderdə “Dövlət satınalmaları haqqında” qanunun 11.1-ci maddəsinə əsasən tenderdə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların sayı 3-dən az olduğu səbəbindən tender proseduru ləğv olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 09.04.2020-ci il tarixdə elan etdiyi fondun aparatı və yerli orqanları üçün digər maşın və avadanlıqların satın alınması üzrə açıq tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən baş tutmamış hesab edilir və onun davamından imtina edilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun aparatı və yerli orqanları üçün dəftərxana mallarının satın alınması məqsədilə 24.02.2020-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində “İNTELLEKT M.A” MMC qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 09.04.2020-ci il tarixdə elan etdiyi fondun nəzdində olan sosial xidmət müəssisələri üçün “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin” satın alınması üzrə açıq tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun 11.1-ci maddəsinə əsasən baş tutmamış hesab edilir və onun davamından imtina edilir.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya əzizi

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi vəzifəsini icra edən Mürsəl Vəliyevə anası

**TEYYUBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və kollektivi Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, dosent Natiq Talıbova anası

**BADİSƏBA ƏSGƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7405
Sifariş 1364
Qiyməti 40 qəpik